Xalqın qəzeti!

# Xalq qəzeti

№ 269 (30963) 23 dekabr 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Yeni – 2026-cı il Azərbaycanda “Şəhərsalma və Memarlıq İli” olacaq



## Prezident İlham Əliyev 2026-cı ilin Azərbaycanda “Şəhərsalma və Memarlıq İli” elan olunması ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2026-cı ilin Azərbaycanda “Şəhərsalma və Memarlıq İli” elan olunması ilə əlaqədar sosial media hesablarında paylaşım edib.



## Siyasi anlaşmanın hüquqi təsdiqi

### *Azərbaycanın çoxvektorlu xarici siyasətinin növbəti təntənəsi*

**Azərbaycanın xarici siyasət kursu çoxşaxəli və dinamik xarakteri ilə diqqət mərkəzində dayanır. Cənubi Qafqazın lider dövləti statusunu təsdiqləyən rəsmi Bakı ənənəvi tərəfdaşlıq coğrafiyasını genişləndirərək Şərqi Avropa və Balkan yarımadası istiqamətində strateji dərinliyə malik diplomatik gedişlər edir. Bu istiqamətdə atılan növbəti mühüm addım Monteneqro ilə siyasi əlaqələrin yeni müstəviyə daşınması və konsulluq sahəsində əməkdaşlığın institusional çərçivəyə salınması oldu.**

Bakıda Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Monteneqronun Baş nazirinin müavini, xarici işlər naziri Ervin İbrahimoviç arasında baş tutan görüş, eləcə də tərəflər arasında imzalanan “Azərbaycan Respublikası Hökuməti ilə Monteneqro Hökuməti arasında konsulluq sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” iki dost ölkənin siyasi iradəsinin göstəricisidir.

*(ardı 9-cu səhifədə)*

## Vaşinqtonun Avropa siyasəti Brüsseli niyə qane etmir?

### *Müstəqil qərarvermə isə Bakını böyük güclərin rəqabətindən qoruyur*

**Son illər Qərb siyasətində baş verən proseslər nəzərə alınanda aydın görünür ki, Transatlantik münasibətlər əvvəllər heç vaxt olmadığı qədər gərgin, ziddiyyətli, hətta sistemli parçalanma astanasındadır. ABŞ-ın dəyişkən xarici siyasət ritmi, Avropa İttifaqında daxili siyasi disbalans, NATO-nun strateji xəttində yaranan ziqzaqlar, enerji və təhlükəsizlik sahələrindəki asılılıq dilemması Qərbdə geopolitik hesablamalarda itkilərin baş verdiyini göstərir.**



Liberal dünya nizamının dirəkləri hesab edilən rəsmi Vaşinqton və Brüssel bu gün normativ güc iddiası ilə yanaşı, öz aralarındakı ziddiyyətləri idarə etməyə çalışırlar. Amma ziddiyyətlərin özünü bu şəkildə büruzə verməsini, sadəcə, daxili siyasi proseslərin nəticəsi ilə əlaqələndirmək düzgün olmaz. Qlobal güc balansının dəyişməsi, yeni regional blokların meydana çıxması, böyük oyunçuların aktivləşməsi, Yaxın Şərq və Qafqazda baş verən yenilənmiş dinamika Transatlantik cütlüyün əvvəlki ritmini tamamilə dəyişdirir. ABŞ-ın prioritetlərinin Asiya–Sakit okean regionuna yönəlməsi, Avropa üçün isə təhlükəsizlik və enerji təminatının qarşıdan gələn onilliklərdə qurulması məsələləri əlaqələri yenidən formalaşdırır. Dəyişikliklər isə Qərbin geosiyasi düzəninə təsir etməklə beynəlxalq sistemin bütün aktorlarına yeni seçimlər, manevr zolaqları, balans imkanları yaradır. Bu genişmiqyaslı dönüşün fonunda Azərbaycan kimi çevik diplomatik reflekslərə malik ölkələr üçün böyük geosiyasi pəncərə açılır.

*(ardı 9-cu səhifədə)*

## Azərbaycan yüksələn sosial rifah ölkəsidir



Səhifə ⇨ 12

## Dövlət humanizmi və vətəndaş məmnunluğu



Səhifə ⇨ 8

## Sülhə etimad qapısı açılır



Səhifə ⇨ 10

## TRIPP-ə qlobal maraq artır




Səhifə ⇨ 11

## Ermənistanla təhlükəsizlik tərəfdaşlığı, yoxsa sülhə demarş?



Səhifə ⇨ 5

# Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin bir keçmişi vardır. İpək Yolu üzərində yerləşən və mühüm ticarət, sənətkarlıq, mədəniyyət mərkəzləri kimi Şərq ölkələri ilə sıx iqtisadi, siyasi və mədəni əlaqələr quran iri şəhərlərimizin özünəməxsus simasının formalaşmasında qiymətli memarlıq abidələri müstəsna rol oynamışdır.

Azərbaycan şəhərsalma və memarlıq sənətinin bariz nümunələri olub daim yüksək inkişaf səviyyəsinə görə seçilən tarixi şəhərlərimiz ötən dövrlərin memarlıq tendensiyalarına uyğun böyüyüb genişlənməklə bərabər, yerli mədəniyyətin əsas xüsusiyyətlərini qoruyub saxlamışdır.

Bu gün ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan müdafiə qalaları, karvansaralar, məscid, məbəd və türbələr milli memarlığın parlaq ənənələrini əks etdirir. Bədii-memarlıq həllinin kamilliyi baxımından iftixar hissi doğuran dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrindən Möminə xatun türbəsi, Xudafərin körpüsü, “Atəşgah” kompleksi və digər bu kimi misilsiz nümunələr Azərbaycanın memarlığının rəmzlərinə çevrilmişdir.

UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş nadir sərvətlərimiz – qədim və orta əsrlərin şəhər mədəniyyətini özündə təcəssüm etdirən İçərişəhər və Şirvanşahlar sarayı kompleksi, əzəmətli ruhunu indiyədək qoruyan Qız Qalası, Şəkinin tarixi mərkəzi və Xan sarayı Azərbaycan şəhərsalma və memarlıq sənətinin dünya inciləri sırasında layiqli yer tutan yadigarlarıdır.

900 illiyi UNESCO çərçivəsində yubileyləri keçirilən böyük şəxsiyyətlər siyahısına daxil olunan qüdrətli sənətkar Əcəmi Naxçıvaninin Azərbaycan və Yaxın Şərq ölkələrinin orta əsrlər memarlığına güclü təsir göstərmiş yaradıcılığı dövrün memarlıq məktəbinin ən yüksək zirvəsidir.

Azərbaycan şəhərlərinin planlaşdırma quruluşunda və memarlıq tərzində artıq XIX əsrin ortalarına doğru müəyyən dəyişikliklər öz əksini tapmışdır. Sürətlə sənayeləşən Bakı şəhəri Şərq və Qərb memarlığının sintezində qədimliklə müasirliyin vəhdətindəki təkrarsız görkəmini məhz həmin vaxtlardan almağa başlamışdır.

Azərbaycan Respublikasında şəhərsalma və memarlıq fəaliyyətində milli ənənələrdən yaradıcı şəkildə istifadə olunmasına XX əsrdə xüsusi diqqət yetirilmişdir. Bu dövrdə bir sıra şəhərlər yenidən qurulmuş və onların əvvəlki siması dəyişmiş, bölgələrdə şəhərlərin planlaşdırılması önə çəkilmişdir. İki görkəmli memarın – Mikayıl Hüseynovun və Sadıq Dadaşovun fəaliyyətinin aparıcı yer tutduğu həmin dövr milli ənənələr zəminində yeni memarlıq üslubunun yaradılması ilə səciyyələnir.

Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər Azərbaycan şəhərsalma və memarlığının inkişafında xüsusi mərhələ təşkil edir. Tarixən təşəkkül tapmış Azərbaycan şəhərlərinin və bütöv şəhərsalma sistemlərinin qorunması ilə bağlı bu illərdə Ulu Öndərin təşəbbüsü əsasında vacib qərarlar qəbul edilmiş, tədbirlər həyata keçirilmiş, şəhərlərdə memarlıq abidələrinin bərpası üzrə planlı iş aparılmış, memarlıq və şəhərsalma fəaliyyətinin davamlılığını təmin edən institusional təsisatlar qurulmuşdur.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra şəhər quruculuğu sahəsindəki yeni təzahürlər ölkədə inşa edilən monumental komplekslərin memarlıq həllində özünü qabarıq büruzə vermişdir. Ötən müddətdə dövrün qabaqcıl yanaşmalarını və milli təcrübələri əks etdirən layihələrin gerçəkləşdirilməsi sayəsində şəhərsalma sənətinin yüksək mənəvi-estetik təsir gücünə malik orijinal nümunələri yaradılmışdır. Mövcud möhtəşəm binalar sırasına daimi yeniləşmə rəmzi olan Heydər Əliyev Mərkəzi, Alov qüllələri kimi modern üslublu unikal memarlıq abidələrinin və Ağ şəhər kompleksinin əlavə edilməsi ilə paytaxtın mənzərəsi daha da zənginləşmiş, regionların memarlıq siması xeyli dəyişərək yeni şəkil almışdır.

Bu gün də Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasında paytaxt və regionların tarazlı inkişafının təmin edilməsi və dayanıqlı məskunlaşmanın təşviqi, Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluqlar təsbit edilməklə, memarlıq və şəhərsalma fəaliyyətinin prioritet istiqamətləri olaraq müəyyənləşdirilmişdir.

Ermənistanın işğal etdiyi və otuz il ərzində viran qoyduğu ərazilərimizdə 44 günlük Vətən müharibəsindəki Zəfərin ardınca innovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı bərpa-quruculuq işləri Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışını aydın nümayiş etdirir. Böyük Qayıdışa dair I Dövlət Proqramına müvafiq qaydada “yaşıl enerji” zonası elan edilmiş bu ərazilərdə 2020–2025-ci illərdə – dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir müddətdə 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanmış və quruculuq işlərinə başlanılmışdır. Azərbaycanın mədəniyyət paytaxtı, xalqımızın qürur mənbəyi Şuşa şəhərinin əvvəlki memarlıq mühiti və əsl tarixi siması bərpa edilməklə dirçəldilməsi isə milli iradənin təzahürüdür.

Ölkəmiz iqlim dəyişmələri və şəhərsalma ilə əlaqədar qlobal çağırışların həllində, innovativ yanaşmaların formalaşmasında etibarlı tərəfdaş kimi tanınır. BMT nin Məskunlaşma Proqramı (“UN-Habitat”) ilə birgə təşəbbüslər və bu çərçivədə memarların bir araya gəldiyi milli şəhərsalma forumları Azərbaycanın beynəlxalq tərəfdaşlarla ortaq fəaliyyətinin uğurlu nümunəsidir. BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın dayanıqlı şəhərsalma proseslərində artan rolunu göstərir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də ölkədə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikasında 2026-cı il “Şəhərsalma və Memarlıq İli” elan edilsin.

**2** Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 dekabr 2025-ci il**

# Aztəminatlı ailələrə birdəfəlik maddi yardım verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə **qərara alıram:**

**1** 2025-ci il 30 dekabr tarixinə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə 200 (iki yüz) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

**2** Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədilə:

2.1. “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 93-VIIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 268 nömrəli Fərmanının 1.6.1.1-ci yarımbəndində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üçün nəzərdə tutulmuş vəsaitdən 15 300 000 (on beş milyon üç yüz min) manat ayrılsın.

2.2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan ailələrə ödənilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 dekabr 2025-ci il**

# Prezident İlham Əliyevin Ali Avrasiya İqtisadi Şurasının iclasında və MDB dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etməməsinin səbəbləri açıqlanıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dekabrın 21-də Rusiyanın Sankt-Peterburq şəhərində keçirilmiş Ali Avrasiya İqtisadi Şurasının iclasında və MDB dövlət başçılarının dünənki Zirvə görüşündə iştirak etməməsinin səbəbləri açıqlanıb.**

Prezident Administrasiyasından AZƏRTAC-a bildirilib ki, Azərbaycan Avrasiya İqtisadi İttifaqına üzv olmadığına görə Prezident İlham Əliyev Ali Avrasiya İqtisadi Şurasının dekabrın 21-də keçirilmiş iclasında iştirak etməyib.

Dövlətimizin başçısı MDB dövlət başçılarının Sankt-Peterburq şəhərində keçirilmiş qeyri-rəsmi Zirvə görüşündə isə iş qrafikinin sıxlığına görə iştirak edə bilməyib.

Xatırladaq ki, Azərbaycan Respublikası üzv dövlət kimi MDB-nin rəsmi Zirvə görüşlərində mütəmadi olaraq iştirak edir və MDB çərçivəsində əməkdaşlığa, o cümlədən üzv dövlətlərlə ikitərəfli əlaqələrin inkişafına mühüm əhəmiyyət verir.

Prezident İlham Əliyev bu il oktyabrın 9–10-da Tacikistanın Düşənbə şəhərində keçirilmiş MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edib. İclas çərçivəsində istər ikitərəfli, istərsə də çoxtərəfli müstəvidə keçirilmiş görüşlər səmərəli olub.

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram. Sizə möhkəm cansağlığı, həm şəxsi həyatınızda, həm də dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Əminəm ki, Xorvatiya və Azərbaycan xüsusi əhəmiyyət kəsb edən iqtisadi əməkdaşlığın inkişafı istiqamətində birgə səylərimizlə qarşılıqlı dostluğu və ikitərəfli əlaqələri möhkəmləndirməyə və dərinləşdirməyə davam edəcəkdir.

Sizə ən xoş arzularımı çatdırır, ölkənizin vətəndaşlarına tərəqqi və firavanlıq diləyirəm.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Zo a MİLANOVİÇ,***
***Xorvatiya Respublikasının Prezidenti***

* * *

Hörmətli İlham Heydər oğlu.

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Bu sevincli günlə əlaqədar ən xoş arzularımı qəbul edin.

Sizə bu əlamətdar gündə, ilk növbədə, möhkəm cansağlığı, xoşbəxtlik və qardaş Azərbaycan xalqının bundan sonra da tərəqqisi və ölkənizin beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Sevindirici haldır ki, Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə davamlı və hərtərəfli inkişaf yolu ilə inamla irəliləyir.

Dövlət başçısı vəzifəsində nailiyyətləriniz ölkə daxilində və onun hüdudlarından kənarda Sizə böyük nüfuz və hörmət qazandırıb.

Fürsətdən istifadə edərək Tacikistan ilə Azərbaycan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin müxtəlif aspektlərinin daha da möhkəmləndirilməsinə göstərdiyiniz daimi diqqətli münasibətinizi xüsusi olaraq qeyd etmək istərdim.

Əminəm ki, aramızda yaranan etibarlı siyasi dialoqa və sıx dostluğa əsaslanaraq, ölkələrimizin strateji tərəfdaşlıq çərçivəsində qarşılıqlı münasibətlərinin bundan sonra da birgə təşviqini davam etdirəcəyik.

*Səmimiyyətlə,*

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

* * *

Zati-aliləri,

Gürcüstan hökuməti adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. İcazə verin, bu əlamətdar gündə Sizə öz dərin ehtiramımı ifadə edim. Qeyd etmək istərdim ki, Sizin rəhbərliyiniz altında Azərbaycan Respublikası əhəmiyyəti uğurlara nail olmuşdur.

Gürcüstanı və Azərbaycan Respublikasını tarixi dostluq və sarsılmaz strateji tərəfdaşlıq bir-birinə bağlayır və bu da regionda sabitliyin və rifahın təmin olunmasına öz töhfəsini verir. Mən qətiyyətlə inanıram ki, birgə səylərimiz nəticəsində ölkələrimiz arasında mövcud olan əlaqələr daha da dərinləşəcək və möhkəmlənəcəkdir.

Möhtərəm cənab Prezident, fürsətdən istifadə edərək, Sizə bir daha öz dərin ehtiramımı izhar edir, möhkəm cansağlığı, rifah və məsuliyyətli fəaliyyətinizdə uğurlar, dost Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***İrakli KOBAXİDZE,***
***Gürcüstanın Baş naziri***

* * *

Zati-aliləri.

Doğum gününüz münasibətilə Sizə öz adımdan və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – ICESCO adından səmimi təbriklərimizi çatdırmaqdan və ən yüksək ehtiramımızı ifadə etməkdən şərəf duyuram.

Bu əlamətdar gün Sizin müdrik liderliyinizi və Azərbaycan Respublikasının tərəqqisinə, sabitliyinə, beynəlxalq mövqeyinin möhkəmlənməsinə sarsılmaz sadiqliyinizi qeyd etmək üçün yaxşı fürsət yaradır. Zati-alinizin rəhbərliyi ilə Azərbaycan mədəniyyətlərarası dialoqa, sülhə, əməkdaşlığa və davamlı inkişafa böyük töhfələr verməklə İslam dünyasında və onun hüdudlarından kənarda fəal rol oynamaqda davam etmişdir.

ICESCO Azərbaycan Respublikası ilə xüsusilə təhsil, süni intellekt, mədəniyyət və irs sahələrində sıx və məhsuldar əməkdaşlığa böyük əhəmiyyət verir. Ortaq məqsədlərimizə və dəyərlərimizə nail olmaq üçün bu tərəfdaşlığı daha da möhkəmləndirməyə sadiq qalırıq.

Bu xoş fürsətdən istifadə edərək Zati-alinizə və hörmətli ailənizə möhkəm cansağlığı, davamlı uğurlar və rifah arzulayıram. Həmçinin Sizin rəhbərliyinizlə dost Azərbaycan xalqına bundan sonra da tərəqqi və firavanlıq diləyirəm.

Zati-aliləri, icazə verin, Sizə ən yüksək hörmət və ehtiramımı bildirim.

***Səlim bin Məhəmməd ƏL-MALİK,***
***ICESCO-nun Baş direktoru***

* * *

Hörmətli İlham Heydər oğlu.

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm.

Məmnunluqla qeyd etmək istərdim ki, Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası sosial-iqtisadi inkişafda və xalqın həyat səviyyəsinin ardıcıl şəkildə yüksəldilməsində mühüm uğurlara nail olub.

Türk Dövlətləri Təşkilatının Sammitində iştirak etmək məqsədilə Sizin ölkənizə etdiyim səfər çərçivəsində Qəbələ şəhərində keçirilmiş görüşümüzü xüsusi səmimiyyətlə xatırlayıram. Tam əminəm ki, birgə səylərimiz sayəsində Türkmənistan-Azərbaycan əməkdaşlığı bundan sonra da qardaş xalqlarımızın mənafeyi naminə inkişaf edəcək və dərinləşəcəkdir.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin möhkəmləndirilməsi və inkişafına verdiyiniz böyük şəxsi töhfəyə və göstərdiyiniz dərin diqqətə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik və məsuliyyətli fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, tərəqqi və davamlı firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmən xalqının Milli Lideri,***
***Türkmənistan Xalq Məsləhətinin sədri***

* * *

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin gərgin əməyiniz sayəsində qardaş Azərbaycan sosial-iqtisadi sahədə, dövlət quruculuğunda və beynəlxalq aləmdə əhəmiyyətli uğurlar qazanıb.

Çoxillik səmərəli fəaliyyətiniz, yüksək peşəkarlığınız və Vətənə sədaqətlə xidmətiniz həm həmvətənləriniz arasında, həm də ölkənin hüdudlarından kənarda Sizə böyük ictimai rəğbət və nüfuz qazandırıb.

Dağıstanda Azərbaycan Respublikası ilə əsrlər boyu davam edən dostluq, mehriban qonşuluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan tarixi səmərəli əməkdaşlıq yüksək dəyərləndirilir.

Hörmətli İlham Heydər oğlu, qarşıdan gələn 2026-cı ildə Sizə möhkəm cansağlığı, rifah və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***Sergey MƏLİKOV,***
***Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri***

* * *

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi, möhkəm cansağlığı və Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzularımı qəbul etməyinizi xahiş edirəm.

Siz doğma Vətəninizə yorulmadan və sədaqətlə xidmət göstərir, onun sistemli sosial-iqtisadi və ictimai-siyasi inkişafını, sabitliyini təmin edir, ardıcıl olaraq mühüm strateji təşəbbüslər həyata keçirirsiniz.

Qoy bütün planlarınız bundan sonra da həmvətənlərinizin yekdil dəstəyi ilə səmərəli şəkildə reallaşsın, Azərbaycan Respublikasında və beynəlxalq aləmdə sahib olduğunuz yüksək nüfuz əhəmiyyətli məqsədlərinizə çatmağınıza kömək olsun!

Çoxşaxəli Rusiya-Azərbaycan tərəfdaşlığı və qlobal sülh naminə Tatarıstan və Azərbaycan xalqları arasında qardaşlıq əlaqələrinin möhkəmləndirilməsinə ümidvar olduğumu bildirirəm.

Sizə və yaxınlarınıza xoşbəxtlik diləyir və ən xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi,***
***“Rusiya - İslam dünyası” Strateji Baxış Qrupunun sədri***

* * *

Hörmətli İlham Heydər oğlu.

Sankt-Peterburq Hökuməti və şəhərin sakinləri adından Sizi doğum gününüz münasibətilə təbrik edirik.

Siz parlaq siyasi xadim kimi atanızın - Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin böyük işini ləyaqətlə və inamla davam etdirirsiniz.

Sizin rəhbərliyinizlə Azərbaycan dövlət quruculuğu, iqtisadi rifah və beynəlxalq nüfuz sahələrində mühüm nailiyyətlər qazanıb, tarixi ədaləti və ərazi bütövlüyünü bərpa edib, Cənubi Qafqazda və Avrasiyada əsas güc mərkəzlərindən birinə çevrilib.

Sankt-Peterburq və Bakını uzun illərdir səmərəli əməkdaşlıq, ümumi tarixə, mədəniyyətə və insan talelərinə söykənən əsl qardaşlıq telləri bağlayır.

Biz Neva sahilində yerləşən şəhərdə böyük və fəal Azərbaycan diasporunun yaşaması, təhsil alması və işləməsi ilə qürur duyuruq. Muzeylərimiz, teatrlarımız, universitetlərimiz və müəssisələrimiz çoxsaylı birgə layihələrlə bir-birinə bağlıdır.

Sizə möhkəm cansağlığı, tükənməz enerji və Azərbaycan xalqının rifahı naminə yeni nailiyyətlər arzulayıram.

Qoy Sankt-Peterburq ilə Azərbaycan arasında dostluq əlaqələri hər il daha da möhkəmlənsin və dərinləşsin!

*Dərin hörmətlə,*

***Aleksandr BEQLOV,***
***Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru***

* * *

Möhtərəm cənab Prezident.

İcazə verin, Sizi doğum gününüz münasibətilə şəxsən öz adımdan və Türk Dövlətləri Təşkilatının Katibliyinin heyəti adından səmimi-qəlbdən təbrik edim.

Bu il oktyabrın 7-də Türk Dövlətləri Təşkilatının Azərbaycanın tarixi və gözəl şəhəri olan Qəbələdə keçirilən 12-ci Zirvə görüşü çərçivəsində görüşümüzü məmnuniyyətlə xatırlayıram. İnanıram ki, Azərbaycan Respublikasının Türk Dövlətləri Təşkilatına sədrliyi dövründə təşkilatımız daha da güclənəcək və inkişaf edəcəkdir.

Təşkilatımız çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsinə verdiyiniz töhfələrə görə Sizə dərin təşəkkürümü bildirirəm.

Sizi doğum gününüz münasibətilə bir daha təbrik edir, Zati-alinizə cansağlığı və Azərbaycan Respublikasının inkişafı naminə fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Kubanıçbek ÖMÜRALIYEV,***
***Türk Dövlətləri Təşkilatının Baş katibi***

* * *

Çox hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Uzaqgörən siyasi xadimin parlaq keyfiyyətləri və məqsədlərə çatmaqda nümayiş etdirilən əzmkarlıq ali dövləti vəzifənizdəki uğurlu fəaliyyətinizi əvvəlcədən müəyyənləşdirir.

Sizin rəhbərliyinizlə aparılan islahatlar sayəsində Azərbaycan Respublikası dövlət institutlarının təkmilləşdirilməsi, davamlı sosial-iqtisadi tərəqqiyə nail olunması, regionda və dünyada mövqelərinin möhkəmləndirilməsi yolunda inamla irəliləyir.

Fürsətdən istifadə edərək Müstəqil Dövlətlər Birliyi məkanında inteqrasiya əməkdaşlığının qorunması və dərinləşdirilməsi məsələlərində ardıcıl mövqeyinizə, MDB dövlətləri arasında dostluq münasibətlərinin inkişafına verdiyiniz şəxsi töhfəyə görə Sizə səmimi minnətdarlığımı bildirirəm.

Çox hörmətli İlham Heydər oğlu, Sizə cansağlığı, rifah diləyir, bütün planlarınızın və təşəbbüslərinizin həyata keçməsində uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Sergey LEBEDEV,***
***Müstəqil Dövlətlər Birliyinin Baş katibi***

* * *

Möhtərəm cənab Prezident.

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir, Zati-alinizə ən xoş arzularımı çatdırıram.

Siz Azərbaycanın yeni tarixini yazırsınız. Müxtəlif ölkələrə səfərləriniz, xüsusən ABŞ Prezidenti tərəfindən Ağ Evə dəvət və orada Sizin fəaliyyətinizə verilən yüksək qiymət bunu bir daha təsdiq edir. Sizin həyata keçirdiyiniz konstruktiv və praqmatik siyasət ölkəmizin inkişafına və insanların rifahına öz bəhrələrini verməkdədir.

Möhtərəm cənab Prezident, Sizin xalqa arxalanaraq, bir an olsun belə dayanmadan apardığınız siyasət ölkəmizin ərazi bütövlüyünün bərpa olunması ilə nəticələndi. Azərbaycan yeganə ölkədir ki, İkinci Dünya müharibəsindən sonra öz ərazi bütövlüyünü tam bərpa etdi. Əminəm ki, həyata keçirdiyiniz siyasət ölkəmizə daha böyük uğurlar və qələbələr gətirəcək.

Sizi doğum gününüz münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, ailə səadəti və ölkəmizi daha yüksək zirvələrə aparan yolda böyük uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi***

* * *

Möhtərəm cənab Prezident.

Sizi doğum gününüz münasibətilə Türk Mədəniyyəti və İrsi Fondunun kollektivi adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür və ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayıram.

Sizin uzaqgörən və məqsədyönlü rəhbərliyinizlə Azərbaycan Respublikası dinamik inkişaf yolu keçərək regional və beynəlxalq miqyasda nüfuzunu daha da möhkəmləndirmiş, siyasi, iqtisadi, sosial və mədəni sahələrdə mühüm nailiyyətlər əldə etmişdir. Şübhəsiz ki, bu amil bütün Türk dünyasını qürurlandırır və sevindirir.

Türk dünyasının gündən-günə güclənməsinə göstərdiyiniz daimi diqqət və dəstək təşkilatımızın ortaq Türk irsinin öyrənilməsi, qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində fəaliyyətinin daha da genişlənməsinə mühüm töhfə verir.

Zati-aliləri, bu əlamətdar gündə Sizə bir daha ən xoş arzularımı çatdırır, Azərbaycan Respublikasının rifahı naminə həyata keçirdiyiniz ali missiyada yeni-yeni uğurlar diləyirəm.

Sizi, həmçinin qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə ürəkdən təbrik edirəm.

*Dərin hörmətlə,*

***Aktotı RAİMKULOVA,***
***Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti***

* * *

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Azərbaycan Respublikasının müasir inkişafı, dövlətçiliyinin möhkəmləndirilməsi, beynəlxalq nüfuzunun yüksəldilməsi və davamlı sosial-iqtisadi tərəqqisi Sizin liderliyinizlə sıx bağlıdır.

Sizin rəhbərliyinizlə Azərbaycan milli maraqlara, suverenliyə və ardıcıl inkişafa əsaslanan strateji kursu davam etdirir.

Vətəndaşların rifahının daha da yaxşılaşdırılmasına, idmanın inkişafının dəstəklənməsinə və inklüziv cəmiyyətin təşviqinə yönəlmiş ardıcıl sosial siyasətiniz xüsusilə təqdirəlayiqdir. Paralimpiya hərəkatına, eləcə də əlilliyi olan şəxslərin hüquqlarının qorunmasına və sosial inteqrasiyasına göstərilən diqqət dövlət siyasətinə irəliyə doğru istiqamətlənmiş və insan mərkəzli yanaşmanı əks etdirir.

Sizə möhkəm cansağlığı, tükənməz enerji və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlqar RƏHİMOV,***
***Beynəlxalq Gözdən Əlillər İdman Federasiyasının prezidenti***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikasının Prezidenti vəzifəsindəki çoxşaxəli fəaliyyətiniz Sizin görkəmli dövlət, siyasi və beynəlxalq xadim kimi böyük istedadınızı üzə çıxarıb.

Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş iqtisadi, sosial və mədəni inkişaf strategiyasının ardıcıl və qətiyyətlə həyata keçirilməsi Sizə nüfuz, eyni zamanda xalqın hörmətini, etimadını, məhəbbətini qazandırıb.

Yüksək peşəkarlığınız, zəngin həyat təcrübəniz, ən mürəkkəb vəziyyətlərdə siyasi kompromislər tapmaq bacarığınız, çoxmillətli Azərbaycan vətəndaşlarının maraqlarına xidmət edən sosial siyasətin ardıcıl şəkildə həyata keçirilməsi beynəlxalq aləmdə yüksək nüfuz qazanmağınıza imkan verib.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycanın rifahı naminə qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsində yeni uğurlar, əmin-amanlıq, sülh və tərəqqi arzulayır, həmçinin yaxınlarınıza ən xoş diləklərimi yetirirəm.

*Dərin hörmətlə,*

***Rusln AUŞEV,***
***Rusiya Federasiyası İnquşetiya Respublikasının birinci Prezidenti, Sovet İttifaqı Qəhrəmanı***

* * *

Çox hörmətli cənab Prezident.

Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə uzun ömür, cansağlığı və bütün xeyirxah təşəbbüslərinizdə Uca Allahdan xeyir-dua diləyirəm.

Rusiya müsəlmanları hörmətlə və ən səmimi arzularla Sizə ünvanlanan çoxsaylı təbriklərə qoşulurlar.

Sizin rəhbərliyinizlə qardaş xalqınızın qazandığı uğurları və nailiyyətləri, siyasi kursunuzun müdrikliyini və uzaqgörənliyini, Azərbaycan Respublikasının iqtisadiyyatının, elminin və mədəniyyətinin hərtərəfli inkişafını sevinclə qeyd edirik.

Bu nailiyyətlər Azərbaycanın beynəlxalq aləmdə layiqli yer tutduğunu, ölkənin və onun xalqının gələcəyinin də təhlükəsiz olacağını bəyan etməyə imkan verir.

Sizin rəhbərliyinizlə Azərbaycan monolit cəmiyyətin bərabər hissələri olan müxtəlif dinləri və mədəniyyətləri birləşdirən bir ölkəyə çevrilib. Ölkənin möhkəmlənməsinə töhfə verəcək dinlərarası və millətlərarası dialoqa şəxsi diqqətinizi sevinc hissi ilə vurğulayırıq. Azərbaycan Respublikası və Rusiya Federasiyasında müsəlman xalqların ənənəvi dini olan İslamın dirçəldilməsi işinə göstərdiyiniz davamlı qayğıya görə xüsusi minnətdarlığımızı bildiririk. Azərbaycan xalqının mütləq lideri kimi arzularınız və qayğılarınız bizim üçün çox əzizdir.

Ümidvaram ki, Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası bundan sonra da iqtisadiyyatını və beynəlxalq mövqelərini ardıcıl, məqsədyönlü şəkildə gücləndirməyə davam edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Uca Allahdan Sizə və bütün Azərbaycan xalqına firavanlıq və rifah, tükənməz enerji, mühüm işlərinizdə Yaradanın xeyir-duasını diləyirəm.

*Hörmətlə və xoş dualarla,*

***Baş müfti şeyx Ravil QAYNUTDİN,***
***Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin sədri, Beynəlxalq Müsəlman Forumunun baş katibi***

* * *

Möhtərəm cənab Prezident, Türk dünyasının fəxri və qalib sərkərdəsi!

Sizi doğum gününüz münasibətilə Türk Dünyası Mediatorlar Birliyi adından səmimi-qəlbdən təbrik edirəm. Türkdilli dövlətlərin mediasiya birlikləri və mediatorları adından Sizə, ailə üzvlərinizə uzun ömür, möhkəm cansağlığı və fəaliyyətinizdə uğurlar arzulayıram.

Azərbaycan Respublikasında bütün istiqamətlərdə həyata keçirdiyiniz islahatlar, o cümlədən mediasiya sahəsindəki yeniliklər yalnız ölkə daxilində deyil, dünya miqyasında və türkdilli dövlətlərdə də müsbət əks-səda doğurur və öyrənilir. Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasındakı tarixi imzanız təkcə Türk dünyasının deyil, bütün bəşəriyyətin tarixinə qızıl hərflərlə yazılmışdır.

Türk Dövlətləri Birliyi çərçivəsində gördüyünüz işlərin nəticəsində türkdilli dövlətlər arasında iqtisadi, hüquqi və digər sahələrdə əməkdaşlıq imkanları genişlənmişdir. Sizin siyasi iradəniz və davamlı siyasətiniz bu gün türkdilli dövlətlərin peşə birlikləri üçün böyük motivasiya mənbəyidir.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla dostluq münasibətləriniz və Türk dünyası siyasətindəki vahid mövqeyiniz bizim peşə fəaliyyətimizin inkişafına mühüm töhfələr verir. Sizin siyasətinizdə Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" ideyası bu gün də uca tutulur.

Məhz bu işlərin nəticəsidir ki, Türkiyə Respublikasının Prezidenti Türk Dünyası Mediatorlar Birliyinin təsis edilməsi və beynəlxalq səviyyədə fəaliyyət göstərməsi ilə bağlı Sərəncam imzalamışdır.

Möhtərəm cənab Prezident, bu nailiyyətlərin əldə olunmasında Sizin rəhbərliyinizlə Azərbaycanda həyata keçirilən hüquqi islahatların mühüm rolu vardır. Xüsusilə Sizin imzaladığınız "Mediasiya haqqında" Qanun bu işlərə əlavə dəyər qatmışdır. Bu Qanun əsasında fəaliyyət göstərən Azərbaycan Respublikasının Mediasiya Şurası Türk dünyasında və beynəlxalq arenada nümunəvi qurum kimi təqdim olunur. Azərbaycanın təcrübəsi artıq Özbəkistan və Qırğızıstan tərəfindən öyrənilərək bu ölkələrin qanunvericiliyində də tətbiq edilmişdir. Türkiyədə isə 45 minlik mediasiya icması Azərbaycan modelini diqqətlə izləyir və gələcəkdə bu təcrübənin Türkiyə qanunvericiliyinə gətirilməsi planlaşdırılır.

Sizin gördüyünüz işlər sayəsində Azərbaycan istinad edilən mərkəzə çevrilmişdir. Bütün tədbirlərimizdə Azərbaycan Türk dünyasının əsas dayaqlarından biri kimi qəbul olunur.

Möhtərəm cənab Prezident, Türk dünyasında belə bir atalar sözü vardır: "Əgər bir insan qızmar Günəş altında bir ağacın kölgəsində rahatlıq tapırsa, deməli yüz il, min il əvvəl bu ağacı kimsə əkmişdir". Bu hikmətdən çıxış edərək xüsusi vurğulayıram ki, Sizin doğum gününüz bütün Türk dünyası üçün əlamətdardır. Sizin varlığınız və liderliyiniz bütün istiqamətlərdə yol açmış və bu yola işıq salmışdır. Biz hamımız bu işıqla irəliyə doğru addımlayırıq.

Biz Türk dünyasının dahi liderlərindən olan Ulu Öndər Heydər Əliyevin xatirəsini hər zaman uca tuturuq. Onun tarixi xidmətləri bizim üçün nümunədir. Türk Dünyası Mediatorlar Birliyi bütün tədbirlərində Heydər Əliyevin xatirəsini hörmətlə yad edir. Bu, bizim keçmişimizə və dahi şəxsiyyətlərimizə verdiyimiz dəyərin bariz nümunəsidir. Siz qədim türk ənənələrində olduğu kimi, ailəyə, ata vəsiyyətinə, dostluğa verdiyiniz dəyərlə nümunəvi lider, nümunəvi ata və ailə başçısısınız. Qarabağın işğaldan azad olunması ilə ata vəsiyyətini yerinə yetirməyiniz bizi hər zaman duyğulandırır.

Fürsətdən istifadə edərək, Sizi bir daha əmin etmək istəyirəm ki, biz hər zaman Sizin tutduğunuz yola və apardığınız siyasətə uyğun olaraq fəaliyyətimizi davam etdirəcəyik. Siz təkcə Azərbaycanda deyil, Türk dünyasında və beynəlxalq aləmdə yüzlərlə ilklərin müəllifisiniz.

Sizə möhkəm cansağlığı arzulayıram. Sizin liderliyinizlə irəliləmək hər zaman bizim üçün böyük şərəfdir.

*Dərin hörmətlə,*

***Yakup ERİKEL,***
***Türk Dünyası Mediatorlar Birliyinin İdarə Heyətinin sədri***

* * *

Çox hörmətli cənab Prezident.

"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının üzvləri olan soydaşlarımız adından və şəxsən öz adımdan Zati-alinizə doğum gününüz münasibətilə səmimi təbriklərimizi çatdırmaqdan böyük şərəf duyuruq.

Siz Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısı kimi onun vəsiyyətlərini yerinə yetirmisiniz. Sizin liderliyinizlə Azərbaycanımız müasir və uğurlu bir dövlətə çevrilmiş, beynəlxalq aləmdə öz rolunu və nüfuzunu inamla artıraraq mühüm nəticələrə, o cümlədən ərazi bütövlüyünün tam bərpasına və möhkəmləndirilməsinə nail olmuşdur.

Xalqlarımızın dostluğunun və Ukrayna ilə Azərbaycan arasında qarşılıqlı dəstəyə, beynəlxalq hüquqa, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət prinsiplərinə əsaslanan strateji tərəfdaşlığın möhkəmləndirilməsinə Azərbaycan Respublikasının Prezidenti kimi Sizin şəxsi töhfənizin Ukraynada yüksək qiymətləndirilməsi daim bizdə böyük şərəf və fərəh hissi doğurur.

Zati-aliləri cənab Prezident, icazə verin, Sizi bir daha ürəkdən təbrik edək, Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə yeni uğurlar, ailə üzvlərinizə, əziz soydaşlarımız olan Azərbaycan xalqına davamlı rifah, sülh, tərəqqi arzulayaq.

*Dərin hörmət və məhəbbətlə,*

***Arif QULİYEV,***
***"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının rəhbəri, Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetinin Konstitusiya, beynəlxalq hüquq və ictimai-hüquqi fənlər kafedrasının professoru, hüquq elmləri doktoru, diplomat, Ukraynanın Əməkdar təhsil işçisi, Ukrayna Ali Təhsil Milli Elmlər Akademiyasının Akademiki***

* * *

Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan.

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Sizin rəhbərliyinizlə ölkəmiz 2025-ci ildə də qürur mənbəyi olan böyük uğurlar əldə etdi. Xüsusilə avqustun 8-də Vaşinqtonda, Ağ Evdə keçirilmiş tarixi görüşlər, Azərbaycan və Ermənistan arasında Birgə Bəyannamənin imzalanması və digər razılaşmaların əldə olunması xüsusi qeyd edilməlidir.

Azərbaycan Respublikasının beynəlxalq müstəvidə öz sözünü qətiyyətlə deməsi, milli maraqlarımızın ardıcıl şəkildə müdafiəsi və ölkəmizin dünya tərəfindən sülhsevər, güclü bir dövlət kimi qəbul edilməsi məhz Sizin siyasi iradəniz nəticəsində mümkün olmuşdur.

Bu il, həmçinin tarixi Zəfərimizin beş illiyini də böyük iftixar hissi ilə qeyd etdik.

Sizin uzaqgörən siyasətiniz sayəsində Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz qazanıb, eyni zamanda, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız arasında birlik möhkəmlənib, Vətən sevgisi daha da artıb. Biz, ABŞ-da yaşayan azərbaycanlılar bunu xüsusilə hiss edirik. Vətəndən uzaqda olsaq da, Sizin liderliyiniz bizim üçün qürur və güc mənbəyidir. Sizin həyata keçirdiyiniz siyasətə inamımız sarsılmazdır və biz bu yolda hər zaman yanınızdayıq.

Fürsətdən istifadə edərək "Konstitusiya və Suverenlik İli"nin sonu ərəfəsində Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edir, 2026-cı ildə Sizə yeni zəfərlər, xalqımıza davamlı sülh və firavanlıq diləyirik.

*Hörmətlə,*

***Samir NOVRUZOV,***
***ABŞ-Azərbaycan İnteqrasiya Mərkəzinin rəhbəri***

* * *

Hörmətli cənab Prezident.

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür və ali dövlət fəaliyyətinizdə uğurlar arzulayırıq. Bu əlamətdar gündə biz yalnız dövlət başçısına deyil, artıq

22 ildir Azərbaycan xalqı üçün qürur mənbəyinə, güc, iradə və qətiyyət rəmzinə çevrilmiş böyük Liderə ehtiramımızı bildiririk.

Qlobal miqyasda mürəkkəb dəyişikliklərin baş verdiyi, təzyiq və çağırışların artdığı taleyüklü mərhələlərdə Sizin siyasi iradəniz və davranış modeliniz gənc nəsil üçün əsl rəhbərlik nümunəsinə çevrilmişdir. Siz öz mövqeyinizlə göstərdiniz ki, çətinliklər qarşısında möhkəm dayanmaq, Vətənə sədaqəti populist sözlərlə deyil, məsuliyyət və ləyaqətlə ifadə etmək, eləcə də beynəlxalq münasibətlərdə güc nisbətləri dəyişərkən prinsipiallıqdan və mənəvi bütövlükdən geri çəkilməmək milli liderliyin əsas mahiyyətidir.

Qlobal siyasi qüvvələrin ölkəmizin haqq işinə münasibətinin birmənalı olmadığı, həqiqətlərin kölgədə qaldığı dövrlərdə belə Siz ədalətə olan inamınızı heç vaxt sarsıtmadınız, güzəşti prinsipdən üstün tutmadınız. Torpaqlarımızın işğaldan azad olunacağına, tarixi ədalətin bərpa ediləcəyinə olan sarsılmaz inamınız yalnız dövlət siyasətinin əsasını təşkil etmədi, eyni zamanda bütöv bir nəslin dünyagörüşünü formalaşdırdı.

Bu gün Azərbaycanda və dünyanın müxtəlif ölkələrində, o cümlədən Böyük Britaniyada yaşayan azərbaycanlılar üçün Siz strateji uzaqgörənlik və milli məsuliyyət nümunəsinin simvolusunuz. Sizin liderliyiniz sübut etdi ki, rəhbərlik emosional reaksiyalarla deyil, müdrikliklə, güzəştlərlə deyil, qətiyyət və inamla ölçülür. Sizin milli birliyə və tarixi ədalətə sadiqliyiniz xalqımızda öz gücünə və gələcəyinə inam yaratdı. Siz bir daha göstərdiniz ki, Vətəni sevmək onun ləyaqətini qorumaq, insanına sərmayə qoymaq və layiq olduğu mövqeni dünya miqyasında təmin etməkdir.

Hörmətli cənab Prezident, fürsətdən istifadə edib Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də ürəkdən təbrik edirik. Bu müstəsna tarix dünya azərbaycanlılarının milli birliyinin, mənəvi bütövlüyünün və Vətənə sarsılmaz bağlılığının parlaq təcəssümüdür. Məhz Sizin uzaqgörən və məqsədyönlü rəhbərliyiniz sayəsində bu həmrəylik daha da güclənmiş, dünyanın harasında yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı üçün milli qürur, mənəvi dayaq və güvən mənbəyinə çevrilmişdir.

Yeni ilin ölkəmizə davamlı sülh və əmin-amanlıq, xalqımıza daha yüksək rifah və inkişaf gətirməsini, Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmlənməsini diləyirik. Arzu edirik ki, bu Yeni il də Sizin qətiyyətli və müdrik rəhbərliyinizlə dövlətçiliyimizin daha da möhkəmlənməsi, milli maraqlarımızın etibarlı şəkildə qorunması və gələcək nəsillərin firavanlığı naminə yeni və tarixi nailiyyətlərlə yadda qalsın.

*Ən dərin hörmətlə,*

***Fəridə PƏNAHOVA,***
***Britaniya Azərbaycan Cəmiyyətinin rəhbəri və "Qarabağ" məktəbinin təsisçisi***

* * *

Cənab Prezident.

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm. Sizə şərəfli və məsuliyyətli fəaliyyətinizdə uğurlar arzulayıram.

Sizin rəhbərliyinizlə Azərbaycan böyük inkişaf yolu keçmiş, tarixi nailiyyətlər qazanmışdır. Təbii ki, ən böyük uğurlardan biri uzun illər işğal altında qalmış Qarabağın azad edilməsidir. Bu tarixi hadisə Azərbaycan xalqına böyük sevinc və qürur hissi yaşatmaqla yanaşı, dünyada soyqırımına məruz qalmış, torpaqlarını itirmiş bütün çarəsiz insanlar üçün bir ümid işığı olmuşdur.

Sizin Azərbaycan xalqını "dəmir yumruq" kimi ətrafınızda sıx birləşdirərək qətiyyət və iradənizlə bu Zəfəri qazanmağınız Ulu Öndər Heydər Əliyevin "Mən fəxr edirəm ki, azərbaycanlıyam" kəlamının nə qədər dərin məna kəsb etdiyini bir daha göstərdi.

Cənab Prezident, Sizi, həmçinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edir, Zati-alinizə cansağlığı, Azərbaycan xalqına firavanlıq arzu edirəm.

Sizə dərin hörmət və ehtiramımı ifadə edirəm.

***Volkan AYDƏMİR,***
***Türkiyədə fəaliyyət göstərən Dərincə Azərbaycan Evi Dərnəyinin sədri***

* * *

Möhtərəm cənab Prezident.

İcazə verin, Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edim və ən xoş arzularımı çatdırmaqdan böyük şərəf hissi duyduğumu bildirim.

Sizin müdrik siyasətiniz və prinsipial mövqeyiniz nəticəsində Azərbaycanımızın ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmişdir. Ölkəmizin gündən-günə artan hərtərəfli inkişafı, beynəlxalq nüfuzunun möhkəmlənməsi və dünya siyasi arenasında Azərbaycanın etibarlı tərəfdaş kimi qəbul edilməsi bilavasitə Sizin adınızla bağlıdır.

Cənab Prezident, Sizin güclü siyasi iradəniz nəticəsində Ermənistan rəhbərliyi sülhə doğru addımlar atmağa məcbur olmuşdur. Azərbaycan ilə Ermənistan arasında sülhün bərqərar olması Cənubi Qafqazda sabitliyə, inkişafa, əmin-amanlığa və regionda yeni kommunikasiya xətlərinin açılmasına geniş imkanlar yaradır.

"Konstitusiya və Suverenlik İli"ndə, avqustun 8-də, tarixi Zəfərimizin beşinci ildönümü ərəfəsində Ağ Evdə ABŞ Prezidenti ilə keçirilmiş görüş Sizin müdrik liderliyinizin və uzaqgörən siyasətinizin təntənəsi olaraq, Azərbaycan ilə ABŞ arasında strateji tərəfdaşlıq əlaqələrinin yeni mərhələyə yüksəlməsinə zəmin yaratmışdır.

Hörmətli cənab Prezident, biz, Gürcüstanda yaşayan azərbaycanlılar xalqımızın əbədiyaşar lideri, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttə sadiq qalaraq, Sizin tərəfinizdən daim göstərilən hərtərəfli diqqət və qayğını böyük minnətdarlıq hissi ilə qarşılayırıq. Sizin rəhbərliyinizlə Azərbaycan Respublikasının qazandığı uğurlar, dövlətimizin beynəlxalq nüfuzunun artması və dünya azərbaycanlılarına göstərilən davamlı dəstək bizi sonsuz dərəcədə qürurlandırır. Biz hər zaman milli kimliyimizi, dilimizi və mədəniyyətimizi qoruyub saxlayaraq Odlar Yurdu Azərbaycanla fəxr edirik.

Əminik ki, Sizin uzaqgörən siyasətiniz nəticəsində Azərbaycan dövləti bundan sonra daha böyük zirvələr fəth edəcək, dünya azərbaycanlılarının həmrəyliyi daha da möhkəmlənəcəkdir.

Cənab Prezident, Sizi bir daha doğum gününüz, qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə ürəkdən təbrik edirəm.

Sizə möhkəm cansağlığı, uzun ömür, məsuliyyətli və şərəfli fəaliyyətinizdə yeni-yeni zəfərlər, ailənizə rifah və səadət, müdrik Azərbaycan xalqına isə davamlı sülh, xoşbəxt və firavan həyat diləyirəm.

Biz birlikdə güclüyük!

*Dərin hörmət və ehtiramla,*

***Məhəbbət İMANOV,***
***Gürcüstandakı "Azərbaycan Evi"nin direktoru***

* * *

Möhtərəm cənab Prezident.

Sizi doğum gününüz münasibətilə Avro-Atlantik Azərbaycanlıları Tərəfdaşlıq Şurası adından səmimi-qəlbdən təbrik edir, Zati-alinizə ən xoş arzularımızı çatdırıram.

Sizin qətiyyətiniz, möhkəm siyasi iradəniz, uzaqgörən diplomatiyanız və prinsipial mövqeyiniz nəticəsində Azərbaycanın milli maraqları beynəlxalq müstəvidə ardıcıl şəkildə və uğurla təmin olunur. Zəngəzur dəhlizi ilə bağlı strateji qərarların qəbul edilməsi, ATƏT-in Minsk qrupunun fəaliyyətinə son qoyulması və 907-ci düzəlişin tətbiqinin dayandırılması ölkəmizin ədalətli mövqeyinin möhkəmlənməsinə mühüm töhfədir. Bu uğurlar dünya azərbaycanlıları üçün böyük qürur mənbəyidir.

Cənab Prezident, Sizi, eyni zamanda, qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbrik edirəm.

Avro-Atlantik Azərbaycanlıları Tərəfdaşlıq Şurasının üzvləri Sizin rəhbərliyinizlə Azərbaycanın daha böyük nailiyyətlər əldə edəcəyinə dərin inam ifadə edir və hər zaman dövlətimizin yanında olduqlarını bildirirlər.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Sahil QASIMOV,***
***Niderland Krallığında fəaliyyət göstərən Avro-Atlantik Azərbaycanlıları Tərəfdaşlıq Şurasının baş katibi***

* * *

Möhtərəm cənab Prezident.

Finlandiya Azərbaycanlıları Assosiasiyasının həmsədrləri olaraq Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə dərin hörmət və ehtiramımızı ifadə edirik.

Sizin müdrik rəhbərliyiniz, ardıcıl və prinsipial siyasətiniz nəticəsində Azərbaycan öz suverenliyini və milli maraqlarını beynəlxalq müstəvidə qətiyyətlə qoruyur. Zəngəzur dəhlizi ilə bağlı strateji baxışın formalaşdırılması, ATƏT-in Minsk qrupunun fəaliyyətinə xitam verilməsi və 907-ci düzəlişin tətbiqinin dayandırılması ölkəmizin haqq işinin beynəlxalq səviyyədə qəbul olunmasının bariz nümunəsidir. Bu nailiyyətlər xaricdəki bütün azərbaycanlılar kimi, Finlandiyada yaşayan soydaşlarımız üçün də böyük qürur mənbəyi və mənəvi dayaqdır.

Biz Sizin rəhbərliyinizlə Azərbaycanın daha güclü və qüdrətli gələcəyə doğru inamla irəlilədiyinə əminik və hər zaman dövlətimizin yanında olduğumuzu bəyan edirik.

Eyni zamanda, Sizi 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbrik edirik.

Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayırıq.

*Dərin hörmətlə,*

***Vasif MURADLI və Arzu OQTAY,***
***Finlandiya Azərbaycanlıları Assosiasiyasının həmsədrləri***

* * *

Hörmətli cənab Prezident.

Moldova Azərbaycanlıları Konqresi adından və şəxsən öz adımdan doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırırıq. Azərbaycan Respublikasının müdrik və uzaqgörən rəhbəri kimi Sizə ölkənin suverenliyinin, beynəlxalq nüfuzunun möhkəmlənməsində və davamlı inkişafında əvəzolunmaz xidmətlərinizə görə minnətdarlığımızı bildirir, dərin hörmət və ehtiramımızı ifadə edirik.

Sizin rəhbərliyinizlə Azərbaycan tərəqqi və yenilənmə yolunda inamla irəliləyir: azad edilmiş ərazilərin bərpası və inkişafı üçün genişmiqyaslı proqramlar ardıcıl olaraq həyata keçirilir, Qarabağ və Şərqi Zəngəzur bölgələrinin sosial-iqtisadi inteqrasiyası sürətlənir və müasir infrastruktur qurulur ki, bu da ölkə tarixində yeni bir səhifə açır. Eyni zamanda, Azərbaycan regional sabitliyin əsas amili, enerji təhlükəsizliyində etibarlı tərəfdaş və Şərqlə Qərbi birləşdirən beynəlxalq nəqliyyat və logistika dəhlizlərində həyati əhəmiyyət kəsb edən bir əlaqə kimi mövqeyini möhkəmləndirib.

Milli maraqların qorunmasına, ədalət və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan ardıcıl xarici siyasətiniz, eləcə də dünyanın aparıcı güc mərkəzləri ilə inamlı və bərabər dialoq aparmaq bacarığınız harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıda qürur hissi yaradır.

Moldovadakı Azərbaycan diasporu Vətənin uğurlarını xüsusi sevinc hissi ilə izləyir və xaricdəki həmvətənlərimizə göstərdiyiniz diqqəti yüksək qiymətləndirir. Bizim üçün Siz güclü, müstəqil və müasir Azərbaycanın simvolu, qürur mənbəyi və birləşdirici qüvvəsisiniz, milli kimliyi və Vətənə mənəvi bağları gücləndirirsiniz.

Hörmətli cənab Prezident, davamlı yüksək sədaqətimiz və səmimi dəstəyimizlə hər zaman yanınızdayıq.

Bu əlamətdar gündə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, tükənməz enerji, uzun ömür, Azərbaycanın və xalqımızın rifahı naminə yeni nailiyyətlər arzulayırıq. Qoy yorulmaz fəaliyyətiniz ölkəmiz üçün böyük qələbələr, davamlı sülh, sabitlik və rifahla əlamətdar olsun!

Cənab Prezident, Sizi, həmçinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirik. 2026-cı ildə Sizə yeni-yeni nailiyyətlər arzulayırıq.

*Səmimi hörmətlə və ən xoş arzularla,*

***Elçin BAYRAMOV,***
***Moldova Azərbaycanlıları Konqresinin sədri***

* * *

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Sizin müdrik və qətiyyətli rəhbərliyinizlə Azərbaycan Respublikası dövlət quruculuğunda, iqtisadi inkişafda və beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsində böyük uğurlar qazanıb. Ölkənin tərəqqisinə və xalqın rifahına yönəlmiş çoxşaxəli səyləriniz Sizə təkcə Azərbaycanda deyil, həm də onun hüdudlarından kənarda dərin hörmət qazandırıb.

Siz Müzəffər Ali Baş Komandan kimi müasir tarixdə və milyonlarla insanın qəlbində xüsusi yer tutursunuz. Strateji komandanlığınızla 44 günlük Vətən müharibəsində tarixi ədalət və Azərbaycanın ərazi bütövlüyü bərpa edilib. Bu möhtəşəm Qələbə yenilməz ruhun, milli birliyin və beynəlxalq hüququn təntənəsinin simvoluna çevrilib, adınızı xilaskar Lider kimi tarix salnaməsinə əbədi olaraq həkk edib.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, tükənməz enerji, xoşbəxtlik və ölkənizin əmin-amanlığı, tərəqqisi naminə fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

*Dərin hörmətlə,*

***Lev SPİVAK,***
***"Azİz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının sabiq prezidenti***

* * *

Zati-aliləri cənab Prezident.

Sizi Avstraliya Azərbaycan Assosiasiyaları Alyansı adından doğum gününüz münasibətilə dərin ehtiramla təbrik etməkdən böyük şərəf duyuruq. Sizin qətiyyətli liderliyiniz, milli maraqların müdafiəsi üçün nümayiş etdirdiyiniz yüksək siyasi iradə və müasir dövrün tələblərinə uyğun olaraq formalaşdırdığınız dövlətçilik strategiyası dünya azərbaycanlıları üçün hər zaman nümunə olmuşdur.

Zati-alinizin həyata keçirdiyi uğurlu siyasət nəticəsində bu il Azərbaycan xalqı Vətən müharibəsində qazandığımız tarixi Zəfərin beşinci ildönümünü xüsusi qürurla qeyd etdi. İkinci Qarabağ müharibəsində əldə edilən tarixi Qələbə, dövlətimizin suverenliyinin bərpası və ərazi bütövlüyünün təmin edilməsi birmənalı şəkildə Sizin adınızla bağlıdır və xalqımızın yaddaşına əbədi həkk olunmuşdur. Bu tarixi Zəfər Azərbaycan diasporunun fəaliyyətinə yeni motivasiya, milli birlik düşüncəsinə isə yeni məna qazandırmışdır. Avstraliyada yaşayan soydaşlarımız bu gün həm dövlətçilik, həm mədəniyyət, həm də milli kimlik baxımından daha mütəşəkkil şəkildə bir araya gəlirlər. Bu proses Sizin rəhbər ideyalarınız, xüsusilə də diaspor işinin institusional səviyyədə inkişafına verdiyiniz strateji dəstək nəticəsində mümkün olmuşdur.

Hörmətli cənab Prezident, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində Avstraliya Azərbaycan Assosiasiyaları Alyansı olaraq bildiririk ki, milli maraqlar naminə həyata keçirdiyiniz fəaliyyətlər diasporumuz tərəfindən xüsusi minnətdarlıqla qarşılanır. Azərbaycançılıq ideyasının müasir dövrdə qorunması, inkişafı və beynəlxalq müstəvidə təbliği istiqamətində verdiyiniz töhfələr bizim üçün həm etalondur, həm də məsuliyyət mənbəyidir.

Fürsətdən istifadə edərək, qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Zati-alinizə səmimi təbriklərimizi və xoş arzularımızı çatdırırıq. Yeni ilin dövlətimizin daha da güclənməsinə və qüdrətlənməsinə, Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına, xalqımızın rifahının yüksəlməsinə və sülhün möhkəmlənməsinə xidmət edən yeni mərhələnin başlanğıcı olmasını arzu edirik.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, Azərbaycanın daha parlaq gələcəyi naminə ali dövləti fəaliyyətinizdə davamlı nailiyyətlər arzulayırıq.

*Dərin hörmətlə və ehtiramla,*

***Fuad AYDINBƏYZADƏ,***
***Avstraliya Azərbaycan Assosiasiyaları Alyansının prezidenti***

* * *

Hörmətli Prezident, cənab Ali Baş Komandan.

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə "Konstitusiya və Suverenlik İli"ni uğurla başa vurur. Bu il ölkəmizin qazandığı mühüm nailiyyətlərlə yadda qalır. Bütün uğurların əsasında Sizin əzmkarlığınız, qətiyyətiniz, uzaqgörən siyasətiniz durur. Bu siyasət sayəsində Azərbaycanın regionda, eləcə də dünyada artan nüfuzunu görməkdən böyük məmnunluq duyuruq.

Bu il biz, tariximizin ən parlaq səhifəsi olan şanlı Zəfərimizin beşinci ildönümünü böyük fərəh hissi ilə qeyd etdik. Bu tarixi Qələbəni bizə bəxş etdiyinizə görə Sizə minnətdarıq.

Biz, Kanadada yaşayan azərbaycanlılar Sizinlə fəxr edirik. Azərbaycan xalqının birliyi, xoşbəxt gələcəyi naminə müəyyən etdiyiniz, həyata keçirdiyiniz səmərəli daxili və xarici siyasəti dəstəkləyirik.

Cənab Prezident, Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbrik edirik. Sizə cansağlığı, ailə səadəti, Azərbaycanın daha parlaq gələcəyi, xalqın rifahı naminə şərəfli fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

*Dərin hörmətlə,*

***Yaşar Pur ƏLİ,***
***Kanadada fəaliyyət göstərən "Az Media Group"un rəhbəri***

# Prezident İlham Əliyevin "Xəzərin geosiyasəti" konsepti

**III MƏQALƏ**

## Milli təhlükəsizlik: qlobal miqyas fonunda



Azərbaycan Prezidentinin konseptində milli maraqların təmin edilməsi bağlılığında milli təhlükəsizlik məsələsinin ciddi elmi əsası mövcuddur. "Azərbaycanın Xəzər nefti" əsərində irəli sürülən nəzəri müddəalardan onu belə dərk etmək olar: geosiyasətin tarixi nüvəsini coğrafiya təşkil edir. Bu keyfiyyətdə coğrafiya, tədqiqatın təməlinə Yer kürəsinin məkan özəllikləri ilə dünya güc sahələrinin arasındakı balans və ya əməkdaşlıq xüsusiyyətlərinin birbaşa və əks əlaqələrinin öyrənilməsini yerləşdirir. Bu zaman geosiyasətin metodoloji nüvəsini ümumplanetar miqyasda "modelləşdirmə" təşkil edir. Eyni zamanda, bu yanaşmanın tərkibində regional kontekst də araşdırılır. Deməli, Prezident İlham Əliyevin konseptində nəzəri-konseptual tədqiqat ümumidən xüsusiyə, tamdan hissəyə istiqamətlənmiş idraki proses kimi qəbul edilmişdir.

Xəzər regionu üçün belə yanaşma çox səmərəlidir və strateji aspektdə perspektivlidir. Çünki bununla, faktiki olaraq, ümumi geosiyasi təlim səviyyəsində Xəzərin geosiyasətinin əsaslı nəzəri çərçivəsi dəqiq müəyyən edilir. Burada ümumi idraki dərketmə "trayektoriyası", daha doğrusu, "kreativ idraki zonası" aşağıdakı kimi təsəvvür edilə bilər.

Xəzəryanı regionun geosiyasi xüsusiyyətlərinin milli maraqlar və milli təhlükəsizlik kontekstində adekvat nəzəri dərki ümumplanetar səviyyədə "konseptual modelləşdirmə" fonunda regional coğrafi, siyasi, tarixi, ekoloji və geosiyasi faktorlara kompleks yanaşma əsasında faydalı olur. Burada nəzəri yanaşma çərçivəsində ümumi ilə xüsusinin vəhdəti ön sıraya çıxarılır. Məsələn, dövlətlərarası münaqişələr və ya ərazi mübahisələri vurğulanan faktorlar kompleksini nəzərə alaraq həll edilə bilər.

Əsərdə bu cür yanaşmanın perspektivini çoxlu sayda müddəalar ifadə edir. Onlardan iki ümumi xarakterli məqamı vurğulamaq olar.

Birincisi, hər hansı regiona bütövlükdə sivilizasiya növlərinin müqayisəsi fonunda baxmaq imkanı meydana gəlir. Azərbaycan Prezidenti əsərində dəniz və kontinental sivilizasiyaları ümumi səviyyədə həmin kontekstdə yığcam təqdim edir. Dəniz sivilizasiyası haqqında dövlət başçısının əsas müddəalarını II məqalədə ifadə etmişik. Kontinental sivilizasiya xalqları statik, konservativ, seyrçi kimi formalaşdırır və bununla dəniz sivilizasiyası xalqlarından fərqləndirir. Dəniz sivilizasiyası xalqları əsasən Qərb yarımkürəsində Atlantik okeanı hövzəsində yaşayırlar. Kontinental ölkələr isə əsasən Şərqdə, Avrasiyada məskunlaşanlardır. Buradan atlantizm və avrasiyaçılıq arasındakı münasibətlərin dünya tarixi və siyasətinin bütün əsas istiqamətlərini müəyyən etdiyi nəticəsini çıxarmaq olar.

Beləliklə, çox maraqlı nəzəri qənaət alınır: Azərbaycan Prezidenti Xəzərin geosiyasətinə dünyanın iki əsas sivilizasiya növlərinin tarixi və siyasi münasibətlərinin xüsusiyyətləri fonunda yanaşır. Həmin ümumi nəzəri yanaşma səviyyəsində əsaslı məntiqi üsulla Xəzərin region kimi geosiyasəti məsələsinə konseptual keçid edir.

Bu məqamda Xəzərin geosiyasəti konsepti üçün əhəmiyyəti çox olan bir rasional xüsusiyyəti vurğulamaq zəruridir. Biz əsərdə ayrıca konseptual rolu olan "dövləti və milli maraqların ortaq məna sahəsi"ndə milli təhlükəsizliyin təminini nəzərdə tuturuq. Artıq bu miqyasda milli təhlükəsizlik dövlətin, xalqın, cəmiyyətin və vətəndaşın təhlükəsiz birgəyaşamaq imkanlarının sistemi kimi təsəvvür edilməlidir. Yəni ölkə miqyasında fərd, cəmiyyət və dövlətin kompleks mövcudolma (ekzistensial varoluş) şərtlərinin müəyyən edilməsi aktuallaşdırılır. Eyni zamanda, buradan region miqyasında dövlətlərarası münasibətlərin əsas xüsusiyyətlərinə və oradan da qlobal səviyyədə Xəzərin geosiyasətinin müxtəlif komponentlərinin tədqiqinə keçid etmək mümkündür.

Prezident İlham Əliyevin tədqiq etdiyi əsərdə Xəzər məsələsinə bu cür əsaslı ümumi nəzəri-konseptual yanaşması özlüyündə konseptin ikinci tərkib hissəsini tədqiqatın ön sırasına çıxarır. II məqalədə vurğulandığı kimi, bu, Xəzərin siyasi tarixidir. Həmin konktekstdə müəllifin yüksək nəzəri səviyyədə çox maraqlı tədqiqatının şahidi oluruq.

## Xəzərin siyasi tarixi: Azərbaycan konteksti

Tarixi mənbələrdə Xəzərin 10 milyon il əvvəl formalaşmağa başladığı göstərilir. Təqribən 500 min il əvvəl Sarmat dənizi parçalanmış və ondan ayrıca Xəzər hövzəsi yaranmışdır. Başqa rəqəmlər də ola bilər. Lakin bizim üçün əsas olanı Xəzərin bir hövzə və dəniz kimi çox qədim tarixə malik olmasıdır. Bu o deməkdir ki, geosiyasətdə Xəzər coğrafi ərazi kimi (hövzədə: su+quru əraziləri) ciddi əhəmiyyət kəsb edir. Çünki bəşər tarixi göstərir ki, hər hansı geniş ərazinin formalaşma xüsusiyyətləri orada məskunlaşan xalqların yaşam fəlsəfəsinə, həyat tərzinə, məşğulluğuna və bütövlükdə mədəniyyətinə ciddi təsir edir. Azərbaycan Prezidentinin əsərində də bu mövqe hiss edilir. Həmin kontekstdə Xəzərin tarixinə nəzər salınaraq əsərdə Xəzər regionunun siyasi tarixinin beş dövrü müəyyən edilir – antik, orta əsr, XVIII-XIX əsrlər, XX əsr və müasir dövr.

Antik dövr (miladdan öncə IV əsrdən miladın II əsrinə qədər) Xəzərdə qarşıdakı çoxəsrlik rəqabətin öntarixi kimi təqdim edilir. Həmin dövrün müəllifləri dağınıq da olsa, Xəzər dənizi haqqında məlumatlar veriblər. Miladdan öncə IX-VIII əsrlərdə Xəzər "Günəşin doğulduğu Böyük dəniz" kimi təsvir edilmişdir. Homer də Xəzər haqqında informasiya vermişdir. Qədim yunan coğrafiyaçıları Ön Asiya-Xəzəryanı əraziyə strateji yolun mövcudluğundan bəhs etmişlər. Yəni antik dövrdə artıq Xəzər kommunikasiya aspektində strateji əhəmiyyəti olan ərazi kimi qəbul edilməyə başlamışdı. Lakin əsərdə göstərildiyi kimi, onların təsəvvürü dağınıq və qeyri-dəqiq idi.

Əsərdə yazılır ki, Orta Əsr dövründə Xəzərlə bağlı zəngin hərbi-siyasi proseslər baş vermişdir. Burada artıq rəqabət aparan güclərin mübarizəsinin əlamətləri özünü göstərir. Rəqabət əsasən Şərqdən Qərbə və əksinə olan istiqamətlərdə ana ticarət yolları uğrunda aparılmışdır. Çin, Hindistan və Mərkəzi Asiyadan başlayan yollar Xəzər regionunda Avropadan olan yollarla kəsişmişdir. Böyük İpək Yoluna daxil olan Xəzəryanı Yol həmin dönəmdən mühüm hərbi-strateji və iqtisadi anlam kəsb etməyə başlamışdır.

Bununla Xəzəryanı regionun geniş bir geosiyasi məkanda müxtəlif istiqamətlərdə özəl statusu konkret məzmun almağa başlamışdır. Belə görünür ki, burada Xəzəryanı regionun təbii bioloji resursları və nəqliyyat məsələləri əsas yer tutmağa başlamışdır. O baxımdan əsərdə Abşeron neftinin tarixinə geniş yer verilməsi çox əhəmiyyətlidir.

Əsərdə göstərilir ki, artıq X əsrdə Azərbaycan neftinin ilk ixracı mövcud olmuşdur. Həmin dönəmdə 10-12 metr dərinliyində quyular qazılmışdır. X əsrdə Məsudi yazırdı ki, Bakıda ağ neft mənbələri vardır ki, dünyanın başqa yerində ona rast gəlinmir. Bura gəmilər üzüb gəlirlər. Bundan 3 əsr sonra başqa müəllif Abşeronda böyük neft qaynağının olduğundan yazmışdır. Hətta gecə-gündüz yer üstünə yanan neftin fontan vurduğundan bəhs etmişlər. Avropalı səyyah Marko Polo XIII əsrdə Bakı və onun nefti barədə bəhs etmişdir. XVI əsrdə İ.Barbaro Bakıda neftdən məişətdə geniş istifadə edildiyini vurğulamışdır.

XIII əsrin sonundan başlayaraq Xəzər dənizi vasitəsilə beynəlxalq ticarət böyük əhəmiyyət kəsb etmişdi. Qərbi Avropada həmin dönəmdə Xəzər dənizi haqqında kifayət qədər məlumat toplanmışdı. XV əsrdə Bakı dəniz limanı kimi geniş şöhrət qazanmışdı. Artıq XV əsrin ortalarında Xəzər regionu Asiya–Avropa xəttində beynəlxalq ticarətdə açar rolunu oynamağa başlamışdı. Onun Aralıq dənizi, Qara dəniz, Uzaq Şərq, Fars Körfəzi miqyasında kommunikativ funksiyası mövcud idi. XVI əsrdən Bakı limanından dünya bazarlarına neft, duz, ipək və zəfəran daşınırdı.

XV əsrdə Osmanlı və Səfəvinin mövcudluğu Xəzəri böyük dövlətlərin rəqabəti məkanına çevirmişdir. Avropa, Rusiya və regionun böyük gücləri arasında uzun müddət davam edən amansız mübarizə belə başlamışdır. Bununla Xəzər regionu həm də dünya siyasətinə vacib geosiyasi faktor kimi daxil olmuşdur. Belə bir gedişat, təbii ki, Xəzərin sonrakı tarixi mərhələlərdə geosiyasi xüsusiyyətlərinin formalaşmasına ciddi təsir etmişdir. O cümlədən, XVI əsrdə Rusiya Kazan və Həştərxanı zəbt etməklə Xəzərdə yeni bir güclü oyunçuya çevrilmişdir.

1684-cü ildə isə E.Kempfer yazırdı ki, biz artıq Abşeronun üçüncü özəlliyi kimi neft mənbəyi olmasının şahidi olduq!

Əsərdə bundan sonra XVIII-XIX əsrlərdə Xəzərlə bağlı baş verən tarixi siyasi hadisələrin maraqlı təsviri verilir. Orada yazılır ki, XVIII əsrin əvvəllərində Xəzər regionu və xüsusilə Azərbaycan Yaxın və Orta Şərqdə geosiyasi rəqabət meydanına çevrilmişdi. Əsas aktorlar isə Türkiyə, İran, Rusiya, İngiltərə və Fransa idi. Həmin dönəmdən region uğrunda güzşəştsiz mübarizə ənənə halını aldı. Böyük imperialist dairələr Xəzəryanı regionunda üstünlük əldə etmək üçün bütün vasitələrə əl atdılar.

Ağır müharibələr, təxribatlar, demoqrafik dəyişmələr, hərbi təzyiqlər və digər üsullarla Xəzəryanı region aramsız olaraq dünya siyasətinin gündəmində xüsusi yer tutdu. Bununla da tarixi baxımdan əhəmiyyəti böyük olan proses baş verdi: Xəzər həm ərazi, həm də təbii resurslar kontekstində dünya siyasətində mühüm rol oynamağa başladı. Onun geosiyasətinin mərkəzi faktorunu bu xüsusiyyət təşkil etdi. Yəni təəssüf ki, Xəzərə kənar böyük qüvvələr öz maraqlarını nəyin bahasına olursa-olsun təmin etmək məntiqi ilə yanaşdılar və bu zəngin məkanı ixtilaf yerinə çevirdilər.

Bu səbəbdən Xəzəryanı region yerli xalqların və ölkələrin iradəsindən asılı olmayaraq geosiyasi çəkişmə meydanı oldu. Bu, 2020-ci ilin payızına qədər belə davam etdi.

Lakin XIX əsrin ikinci yarısından Xəzər məsələsinin geosiyasi konteksti dünya üçün daha da aktuallaşmışdır. Bu baxımdan Bakıya neft emalı zavodu olan "Fium"un rəhbərlərinin – Leyn və Makendruinin dəvət olunması haqqında çox yazılır. Onlar Bakı neftinin ixracı məsələsinə ciddi fikir verdilər. Həmin dönəmdə bir-birinin ardınca Qərb neft maqnatları Cənubi Qafqaza axın etdilər. Rotşild, Nobel qardaşları, Uollis qardaşları, A.Styüard onların yalnız bir qismidir. XIX əsrin sonuna artıq bir neçə istiqamətdən Azərbaycan neftinin dünya bazarlarına müxtəlif yollarla çıxarılması intensivləşdi. Yeni texnologiyaların tətbiqi ilə bu, getdikcə daha da genişləndi və daha da gəlirli oldu. Azərbaycan nefti sayəsində yadlar milyonçu oldular. Dünyanın zənginləri kimi Xəzər regionu üzərində hegemonluq iddiaları və iştahları artdı.

Buna baxmayaraq, az sayda olsa da, azərbaycanlı zənginlər də meydana gəldi. Məsələn, H.Z.Tağıyev, M.Nağıyev. Ş.Əsədullayev, M.Muxtarov və başqaları.

Əsərdə XX əsr boyu və XXI əsrin əvəllərində Xəzəryanı regionunun siyasi tarixində baş verən proseslər öncəki dönəmlərin xüsusiyyətləri kontekstində çox dolğun təqdim edilmişdir. Azərbaycan Prezidenti XX əsrdə SSRİ-nin tərkibində olarkən Azərbaycanda neftin istehsalı, istismarı və daşınmasının ümumi xarakteristikasını tam adekvat təqdim etmişdir.

Prosesin müstəqillik mərhələsi isə ayrıca əhəmiyyəti olan dönəmdir. Faktiki olaraq, keçən əsrin 90-cı illərindən Xəzəryanı regionun, ilk növbədə, Azərbaycanın qlobal geosiyasətdə yeri və rolunun yeniləşməsində enerji daşıyıcılarının aparıcılığı əsərdə dərindən və adekvat əsaslandırılır. Bununla da Xəzəryanı regionun siyasi tarixində yeni bir mərhələ başlamış olur. Həmin mərhələnin xüsusiyyətləri prizmasında Azərbaycan Prezidentinin Xəzərin geosiyasətinin konseptini formalaşdırarkən hansı səbəbdən siyasi tarix aspektinə ciddi önəm verdiyi aydınlaşır.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Suverenliyimizin Zəfər yolunun siyasi-hüquqi salnaməsi

**Azərbaycan tarixində elə dövrlər var ki, həmin mərhələlər yalnız silahın gücü ilə deyil, sözün gücü ilə də qazanılır. 44 günlük Vətən müharibəsi məhz belə tarixi anlardan biri idi. Bu müharibədə Azərbaycan yalnız döyüş meydanında deyil, siyasi tribunada, beynəlxalq mediada, hüquqi müstəvidə də qalib gəldi. Vəfaddin İbayevin yeni çapdan çıxmış "Suverenliyimizin zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar, siyasi paralellər" (Bakı, 2025) adlı kitabı Böyük Zəfərin elmi-publisistik salnaməsi kimi diqqəti cəlb edir. Monoqrafiya Azərbaycan tarixşünaslığında Zəfər konsepsiyasının elmi əsaslarla işlənməsi baxımından mühüm hadisədir. Əsər, ilk növbədə, Azərbaycan tarixinin 44 günlük Vətən müharibəsi mərhələsinin siyasi-tarixi diskurs, hüquqi legitimlik və liderlik modeli prizmasından sistemli tədqiqinə həsr olunmuşdur.**

Müəllifin əsas metodoloji üstünlüyü ondan ibarətdir ki, siyasi çıxış və müsahibələr klassik mənbə kimi deyil, tarix yaradan faktlar, hüquqi və beynəlxalq münasibətlər kontekstində normativ mətnlər kimi şərh olunur. Beləliklə, kitab diskurs-analiz, siyasi tarix, beynəlxalq hüquq və müqayisəli liderlik tədqiqatlarını sintez edən multidissiplinar model təqdim edir.

### Zəfərin tarixi zərurət kimi əsaslandırılması

Monoqrafiyada ümummilli lider Heydər Əliyevin 1993–2003-cü illərdə müəyyən etdiyi dövlətçilik strategiyasının Prezident İlham Əliyev tərəfindən yeni tarixi şəraitdə uğurla reallaşdırıldığı elmi əsaslarla sübuta yetirilir. Kitabda Prezident İlham Əliyevin çıxış və müsahibələri tarixi determinizm prizmasından təhlil olunur. Prezidentin atəşkəs dövrü ilə bağlı mövqeyi xüsusi əhəmiyyət kəsb edir: "Ulu öndər Heydər Əliyev o vaxt müharibəni dayandırmaqla tarixi qərar verdi. Çünki bizim gücümüz çatmırdı. Biz dayanmalı idik ki, güc toplayaq, möhkəmlənək" tezisi – tarixilik və reallıq prinsipləri əsasında şərh olunur.

Bu kontekstdə müharibənin başlanması ani qərar kimi deyil, uzunmüddətli tarixi hazırlığın məntiqi nəticəsi kimi təqdim edilir. Ordunun qurulması, iqtisadi müstəqillik, enerji diplomatiyası, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi Zəfərin tarixi-sosioloji dayaqları kimi dəyərləndirilir. Müəllif göstərir ki, 1993–2003-cü illər dövlətçilik bazasının formalaşması, 2003–2020-ci illər isə bu bazanın strateji gücə çevrilməsi mərhələsi olmuşdur. Beləliklə, Zəfər tarixi subyektiv yox, obyektiv qanunauyğunluqlara söykənən hadisə kimi təqdim edilir.

Kitabın əsas ideyalarından biri budur ki, 2020-ci ilin payızında əldə edilən Zəfər nə təsadüf, nə də emosional qərarın nəticəsi idi. Bu Qələbə onilliklər boyu aparılan dövlətçilik siyasətinin məntiqi yekunu idi. Prezident İlham Əliyevin müharibənin ilk günü xalqa müraciətində dediyi sözlər bu tarixi gerçəkliyi ifadə edirdi: "Biz haqq yolundayıq. Biz öz torpağımızda vuruşuruq. Qarabağ Azərbaycandır!".

### Siyasi lider və Ali Baş Komandan

Monoqrafiyada Prezident İlham Əliyevin 44 günün 33 günündə xalqa müraciət etməsi, müsahibə verməsi və ya ictimai görüşlər keçirməsi faktı müasir siyasi liderliyin nadir nümunəsi kimi dəyərləndirilir.

Prezidentin qətiyyətli siyasi iradəsini əks etdirən bu bəyanat xüsusi təhlil obyektinə çevrilir: "Biz sona qədər gedəcəyik. Bizim başqa yolumuz yoxdur". Müəllif bu fikri klassik siyasi liderlik nəzəriyyələrində "geri dönməz qərar" modeli ilə əlaqələndirir və İlham Əliyevin müharibə zamanı tərəddüdsüz, ardıcıl və legitim qərarlar qəbul etdiyini elmi əsaslarla sübut edir.

Müharibə şəraitində eyni vaxtda cəbhə əməliyyatlarının idarə olunması, daxili siyasi sabitliyin qorunması və beynəlxalq informasiya müharibəsinin aparılması kimi paralel proseslərin idarə edilməsi İlam Əliyevin siyasi idarəetmə qabiliyyətinin yüksək səviyyəsini göstərən əsas meyar kimi təqdim edilir. Müəllifin Yuli Sezar, Çingiz xan, Atilla, Əmir Teymur, Səlahəddin Əyyubi, Uinston Çörçill, Vudro Vilson, Mustafa Kamal Atatürk, Şarl de Qoll kimi tarixi liderlərlə apardığı siyasi paralellər müqayisəli siyasətşünaslıq baxımından olduqca dəyərlidir. Bu paralellər Prezident İlham Əliyevin situativ deyil, strateji düşünən lider olduğunu elmi şəkildə əsaslandırır.

### İnformasiya müharibəsində qələbə

Kitabın mühüm üstünlüklərindən biri Prezident İlham Əliyevin beynəlxalq media ilə müsahibələrinin təhlilidir. Çünki 44 günlük müharibənin ən mühüm cəbhələrindən biri beynəlxalq informasiya məkanı idi. Al Jazeera, BBC, Fox News, France 24, Sky News, RAI News, ARD və digər nüfuzlu media orqanlarında səsləndirilən mövqelər beynəlxalq münasibətlər nəzəriyyəsi kontekstində analiz edilir və göstərilir ki, Prezident İlham Əliyevin verdiyi müsahibələr Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında həlledici rol oynadı. Xüsusilə, qərəzli və manipulyativ suallara verilən cavabların hüquqi və faktoloji əsaslandırılması İlham Əliyevin peşəkar diplomat obrazını ön plana çıxarır.

Kitabda Heydər Əliyevin müəyyən etdiyi milli dövlətçilik ideyalarının "işıq yolu" konsepsiyası altında ümumiləşdirildiyi və bu ideyaların 44 günlük Vətən müharibəsi zamanı Prezident İlham Əliyev tərəfindən konkret siyasi, hərbi və diplomatik addımlarla reallaşdırıldığı göstərilir. Müəllif bu nəticəyə 2020-ci ilin payızında Prezidentin aparıcı beynəlxalq media qurumlarına verdiyi çoxsaylı müsahibələrin təhlili əsasında gəlir.

44 günlük müharibə dövründə Al Jazeera, BBC və France 24 kimi kanallara verdiyi müsahibələrdə İlham Əliyev münaqişənin mahiyyətini beynəlxalq auditoriyaya aydın şəkildə izah edərək vurğulamışdır ki, Azərbaycan müharibəni başlatmamış, əksinə, uzun illər sülh yolu ilə problemin həllinə çalışmışdır. O, Ermənistanın işğalçı siyasətinin davam etməsinin Azərbaycanın özünümüdafiə hüququndan istifadə etməsini qaçılmaz etdiyini bildirmişdir. Prezidentin bu mövqeyi kitabda beynəlxalq hüququn əsas prinsipləri ilə əlaqələndirilərək şərh olunur.

BBC və Sky News-a verdiyi müsahibələrdə İlham Əliyev Azərbaycan Ordusunun hərbi əməliyyatlar zamanı yalnız legitim hərbi hədəfləri seçdiyini, mülki əhaliyə və mülki infrastruktura zərər vurulmaması üçün ciddi göstərişlər verildiyini diqqətə çatdırmışdır. Müəllif bu fikirləri beynəlxalq humanitar hüquq normalarına riayət olunmasının sübutu kimi təqdim edir və Azərbaycan Ordusunun fəaliyyətinin hüquqi əsaslılığını vurğulayır.

Fox News və RAI News kanallarına verdiyi müsahibələrdə Prezident İlham Əliyev Ermənistanın müharibə zamanı atəşkəs razılaşmalarını pozaraq yaşayış məntəqələrini hədəfə almasını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmış, bu addımların müharibə cinayəti xarakteri daşıdığını bildirmişdir. Kitabda bu mövqe beynəlxalq cinayət hüququ prizmasından təhlil edilərək, gələcəkdə hüquqi məsuliyyət məsələsinin qaçılmaz olduğu qənaəti irəli sürülür.

ARD və France 24-ə verdiyi açıqlamalarda İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün danışıqlar mövzusu olmadığını, ölkənin suveren hüquqlarını istənilən vasitə ilə qorumağa qadir olduğunu qeyd etmişdir. Müəllif bu fikirləri Prezidentin strateji qətiyyətinin və siyasi iradəsinin təzahürü kimi qiymətləndirir.

Beləliklə, monoqrafiya 44 günlük Vətən Müharibəsi zamanı İlham Əliyevin Al Jazeera, BBC, Fox News, France 24, Sky News, RAI News, ARD və digər nüfuzlu media orqanlarına verdiyi müsahibələrdə səsləndirdiyi fikirlərin sistemli təhlili əsasında Prezidentin siyasi liderliyini, diplomatik ustalığını və beynəlxalq hüquqa əsaslanan mövqeyini elmi müstəvidə ortaya qoyur və Azərbaycanın tarixi qələbəsinin ideoloji-hüquqi əsaslarını dərinləşdirir.

### Müharibənin legitimliyi və Ermənistanın məsuliyyəti

Kitabda xüsusi vurğulanan məqamlardan biri müharibənin hüquqi əsaslarının izahıdır. Monoqrafiyada Ermənistan - Azərbaycan münaqişəsi beynəlxalq hüququn üç əsas sahəsi üzrə təhlil edilir: beynəlxalq hüquq, beynəlxalq humanitar hüquq, beynəlxalq cinayət hüququ. Müəllif Ermənistanın ərazi işğalı, mülki əhaliyə qarşı cinayətlər, mədəni irsin məhv edilməsi kimi əməllərinin beynəlxalq cinayət məsuliyyəti yaratdığını elmi-hüquqi arqumentlərlə əsaslandırır. Bu baxımdan kitab yalnız tarixi-siyasi tədqiqat deyil, həm də hüquqi iddialar üçün konseptual baza rolunu oynaya biləcək elmi mənbədir. Prezidentin bu fikri hüquqi diskursun əsas tezisi kimi təqdim olunur: "Biz heç kimin torpağında deyilik. Biz öz torpağımızdayıq və bu bizim qanuni haqqımızdır".

### Zəfərin mənəvi qaynaqları

Müəllifin Prezident İlham Əliyevin çıxış və müsahibələrini Qurani-Kərim ayələri və "Kitabi-Dədə Qorqud" eposu ilə müqayisəli şəkildə təqdim etməsi siyasi ideologiyanın milli-mənəvi köklərlə üzvi bağlılığını nümayiş etdirir. Bu yanaşma Zəfərin yalnız hərbi-siyasi deyil, milli–mənəvi hadisə olduğunu göstərir.

Şuşanın azad edilməsindən sonra xalqa müraciətində Prezident İlham Əliyev bu qələbəni təkcə hərbi deyil, həm də tarixi ədalətin bərpası kimi dəyərləndirmiş, atasının müəyyən etdiyi strateji məqsədlərin həyata keçirildiyini xüsusi vurğulamışdır. Müəllif bunu "işıq yolu" ideyasının ən parlaq və simvolik nəticəsi kimi təqdim edir.

Vəfaddin İbayev kitabında Prezident İlham Əliyevin 15 may 2021-ci il tarixində Şuşa şəhərində keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının açılış mərasimində etdiyi çıxışı da xüsusi təhlil predmetinə çevirir. Müəllif bu çıxışı 44 günlük Vətən müharibəsində əldə olunan hərbi-siyasi qələbənin mədəni, mənəvi və ideoloji davamı




kimi qiymətləndirir.

Müəllifin yanaşmasına görə, Prezidentin Şuşada səsləndirdiyi fikirlər Azərbaycanın yalnız ərazi bütövlüyünü bərpa etmədiyini, eyni zamanda, işğal dövründə məhv edilmiş milli-mədəni irsin dirçəldilməsi mərhələsinə keçdiyini nümayiş etdirirdi. İlham Əliyevin Şuşanı Azərbaycan mədəniyyətinin paytaxtı kimi təqdim etməsi müəllif tərəfindən dövlət siyasətində mədəniyyət faktorunun strateji əhəmiyyətinin vurğulanması kimi dəyərləndirilir. Bu çıxışla İlham Əliyev qələbənin yalnız silah gücü ilə deyil, mədəni və mənəvi üstünlük vasitəsilə də möhkəmləndirildiyini beynəlxalq ictimaiyyətə nümayiş etdirmişdir.

Beləliklə, "Suverenliyimizin zəfər yolu" kitabı sadəcə hadisələri təsvir etmir, Zəfərin necə və niyə mümkün olduğunu izah edir. Bu monoqrafiya Prezident İlham Əliyevin mahir diplomat, uzaqgörən siyasi lider, beynəlxalq hüquqa söykənən dövlət başçısı və müzəffər Ali Baş Komandan olduğunu faktlar və arqumentlərlə ortaya qoyur. Bu kitabı oxumaq 44 günlük müharibəni yenidən yaşamaq deyil, onu anlamaqdır. Və bu isə suverenliyimizin Böyük Zəfər yolu tarixinin gələcək nəsillərə ötürülməsi baxımından son dərəcə vacibdir.

***Anar İSGƏNDƏROV,***
***Milli Məclisin Elm və təhsil komitəsinin sədri, tarix elmləri doktoru, professor,***

***Habil MƏMMƏDOV,***
***tarix elmləri doktoru, professor.***

# Ləyaqətli siyasi varis, qüdrətli dövlət xadimi

**Ümummilli lider Heydər Əliyev 2003-cü ildə Azərbaycan xalqına müraciətində İlham Əliyev haqqında demişdir ki, o, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.**



Həmin il xalqın böyük etimadı ilə ilk dəfə Prezident seçilən İlham Heydər oğlu Əliyev 22 illik hakimiyyəti dövründə özünü Ulu öndərin layiqli siyasi varisi, xalqımızın, millətimizin sevimli rəhbəri kimi tanıtmışdır.

İlham Əliyevi görkəmli siyasi xadim kimi yetişdirən amillər hansılardır?

İlham Əliyevin ana babası ictimai və siyasi xadim Əziz Əliyev ağır repressiya illərində Azərbaycanda milli kadrların böyük bir dəstəsini səbəbsiz işgəncələrdən, ölümdən xilas etmişdir. Əziz Əliyevin özü 50-ci illərin əvvəllərində haqsız olaraq təqiblərə məruz qalmışdır. Ulu öndər Heydər Əliyev Əziz Əliyevin fəaliyyətini yüksək qiymətləndirərək demişdir ki, Əziz Əliyevin dövründə əldə etdiyi nailiyyətlər əvəzsizdir, tarixi bir nailiyyətdir. Qeyri-adi istedadı İlahidən gələn bu insan özünün məqsədyönlülüyü, fədakarlığı, zəhmətsevərliyi, biliklərə can atması sayəsində çox şey qazanmış, hərtərəfli insani keyfiyyətlər əldə etmişdir. O, dövlət xadimi, nazir, çətin illərdə Azərbaycanın rəhbərlərindən biri idi.

Çətin illərdə Dağıstana rəhbərlik etmiş Əziz Əliyev burada yerli əhaliyə qarşı həyata keçirilən siyasi repressiyalara son qoyulmasına, dağıstanlılardan ibarət milli hərbi hissələrin təşkil olunmasına, yerli hakimiyyət orqanlarına dağıstanlıların təyin edilməsinə nail olmuşdur. Onun İkinci Dünya müharibəsi dövründəki fəaliyyəti mühüm hərbi və siyasi əhəmiyyət kəsb edir. Azərbaycan və Dağıstan xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsi Əziz Əliyevin adı ilə sıx bağlıdır.

Prezident İlham Əliyevin atası Heydər Əlirza oğlu Əliyev Azərbaycanın milli tarixində xüsusi yer tutan nadir tarixi şəxsiyyətdir ki, onun zəngin irsi uzun müddət politoloqların, filosofların, tarixçilərin və tədqiqatçıların diqqət mərkəzində qalacaq. Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsinə misilsiz töhfələri sayəsində o, sağlığında əfsanəyə çevrilmiş və dünyadakı azərbaycanlıların sonsuz sevgisini qazanmışdır. Heydər Əliyev indiki Azərbaycan dövlətinin qurucusu hesab olunur. Heydər Əliyev ölkəmizdə düşüncə plüralizminin, demokratiyanın, güclü sosial ədalət hissinin və milli özünüdərkin təməlini qoydu. İkinci hakimiyyəti illərində ölkənin lideri kimi Qarabağ savaşında atəşkəsə, iqtisadi, siyasi, sosial və hüquqi islahatların həyata keçirilməsinə nail oldu.

Ulu öndərin Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri özünü əvəz edə biləcək siyasi varis yetişdirməsi idi. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yürütdüyü praqmatik və uzaqgörən siyasət nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunmaqla yanaşı, ölkəmiz regionun sürətlə inkişaf edən, güclü və nüfuzlu dövlətinə çevrilib. Azadlıq və müstəqillik naminə bütün çətinliklərlə cəsarətlə üzləşən və mübarizə ruhuna malik olan Heydər Əliyev siyasi məktəbinin ən layiqli davamçısı bu gün Azərbaycanın şanlı tarixinə yeni parlaq səhifələr yazır.

Prezident İlham Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən biri demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda əldə olunan nailiyyətlərdir. Azərbaycançılıq fəlsəfəsi İlham Əliyev siyasətinin mənəvi dayağıdır. Dövlət başçımızın rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan regionun ən güclü və suveren aktoruna, eləcə də yüksək beynəlxalq nüfuza malik olan dövlətə çevrilib.

2003-cü ildən etibarən Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, silahlı qüvvələrin hərbi hazırlıq səviyyəsinin artırılması ilə bağlı görülən işlər Qarabağ münaqişəsinin aqibəti ilə bağlı bəzi dairələrdə yaranan haqsız əminliyi darmadağın etdi. Azərbaycanda güclü müdafiə sənayesi quruldu. Qısa müddət ərzində görülmüş işlər sayəsində Azərbaycan ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer aldı.

Siyasi, iqtisadi, hərbi, sosial, ekoloji və digər istiqamətlərdə təhlükəsizliyin təmin olunması strateji maraqların gerçəkləşməsinə və inkişaf dinamikasının davam etməsinə əlverişli şərait yaradıb. Regionların sosial-iqtisadi inkişafına dair həyata keçirilən Dövlət proqramları sayəsində bölgələrdə inkişaf prosesləri sürətlənib, kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı konkret proqramlar icra olunub. Siyasi partiyaların, mətbuatın fəaliyyətinin stimullaşdırılması istiqamətində görülmüş işlər kontekstində mühüm irəliləyişlər baş verib. Siyasi dialoqun qurulması istiqamətində əldə olunmuş uğurlar bundan sonra da bu prosesin effektiv davam etdiriləcəyindən xəbər verir.

Prezident İlham Əliyevin uzaqgörən siyasətinin məqsədi Azərbaycanın 30 ilə yaxın müddətdə pozulmuş ərazi bütövlüyünün bərpası idi. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və Ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyev Prezident kimi çoxillik gərgin əməyinin nəticəsində Azərbaycanı ərazi bütövlüyünə qovuşdurdu, xalqımızı dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi tanıtdı.

Böyük Zəfərə gedən yol ulu öndər Heydər Əliyevin siyasi varisinə vəsiyyəti ilə başlandı. 44 günlük müharibə nəinki döyüş meydanında, həm də informasiya məkanında aparıldı. Dövlət başçısı döyüşlərə komandanlıq etməklə bərabər, dünyanın ən nüfuzlu telekanallarına, mətbuat orqanlarına 30-dan çox müsahibə verdi, haqq işimizi dünyaya çatdırdı və bununla ermənilərin həm də informasiya manipulyasiyasına ciddi zərbə vuruldu.

Vətən müharibəsində müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi şanlı Azərbaycan Silahlı Qüvvələrinin Qarabağ uğrunda çıxdığı müqəddəs yürüşün hər bir günü zəfər gününə çevrildi. Hər gün qəhrəman döyüşçülərimiz irəli getdi və 44 gün ərzində bircə dəfə də olmadı ki, igid hərbçilərimiz düşmən tapdağından azad etdikləri ərazilərdən bir qarış belə geri çəkilsinlər. Çünki Ali Baş Komandanın "İrəli" əmri ilə düşmən üzərinə yeriyən cəsur döyüşçülərimiz "bu yolda öldü var, döndü yox", – deyərək haqq savaşına çıxmışdılar. Azərbaycanın mərd oğulları 44 gün ərzində bəşər tarixində misli görünməmiş qəhrəmanlıq, vətənpərvərlik nümayiş etdirdilər, dünya hərb sahəsində yeni döyüş təcrübəsi yaratdılar.

Heydər Əliyev dövlət idarəçiliyi məktəbinin yetirməsi olan Prezident İlham Əliyev dahi siyasətçidən məğlubedilməzlik dərsi almış, onun siyasət dünyasının bütün incəliklərinə yiyələnmiş, eyni zamanda, atasına qarşı baş vermiş haqsızlıqlar, təqiblər və xəyanətlərin də şahidi olmuşdur. İlham Əliyev çox gənc yaşlarından dahi rəhbərin üzləşdiyi haqsızlıqlara, xəyanətlərə qarşı mübarizəyə qalxmış, doğma xalqına xidmət etmək üçün atası ilə çiyin-çiyinə addımlamış, onun ən yaxın silahdaşı olmuş, şərəfli mübarizə yolu keçmişdir. Bundan əlavə, Prezident İlham Əliyev Ulu öndərin yolu ilə gedərək mükəmməl siyasi təhsil almışdır.

Artıq Prezident İlham Əliyevin təşəbbüsü ilə işğaldan azad olunmuş ərazilərimizdə bərpa-quruculuq işləri davam edir, keçmiş məcburi köçkünlər və qaçqınlar öz dədə-baba yurdlarında məskunlaşır, yeni infrastrukturlar yaradılır, yeni idarəçilik modeli tətbiq edilir. Prezident İlham Əliyev bildirir ki, biz Azərbaycan üçün ortamüddətli və uzunmüddətli inkişaf strategiyasını, faktiki olaraq, müharibədən əvvəl işləyib hazırlamışdıq. Əlbəttə ki, ərazilərin işğaldan azad edilməsi əlavə imkanlar verəcək. Çünki ərazilərin bərpası çoxlu resurs tələb edəcək. Lakin, eyni zamanda, bu resurslar Azərbaycanda sərf olunacaq. Onlar biznesi stimullaşdıracaq, iqtisadiyyatımızın tikinti sektorunu stimullaşdıracaq, yeni iş yerləri yaradacaq, imkanlar yaradacaq, kənd təsərrüfatına əlavə dəyər qatacaq. Bu səbəbdən də indi bizim, müəyyən mənada, iki inkişaf proqramımız var. Birincisi, bizim, hər il qəbul etdiyimiz illik inkişaf proqramı və həmçinin 2030-cu ilədək inkişaf proqramı. İkincisi, Qarabağın bərpası üçün inkişaf proqramıdır ki, hazırda başlanğıc mərhələsindədir. Hazırda bizim hökumət strukturlarımız ikisi arasında birləşmə və ya koordinasiya üzərində işləyir ki, eyni məqsəd üçün iki dəfə xərc çəkilməsin. Bu məqsədlə hazırda biz işğaldan azad edilmiş ərazilərdə tamamilə yeni idarəçilik modelini təqdim edirik. Prezident hakimiyyətinin, Prezident Administrasiyasının fərqli idarəçilik modeli olacaq və inkişafa çox müasir yanaşma olacaq, təkcə bərpa zamanı deyil, həm də bərpadan sonra.

***Könül ƏLİYEVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Ermənistanla təhlükəsizlik tərəfdaşlığı, yoxsa sülhə demarş?

## *ABŞ konqresmenlərinin anti-Azərbaycan "təşəbbüsü"nə sözardı*



**Donald Trampın prezidentliyi ilə ABŞ-ın anti-Azərbaycan fəaliyyəti rəsmən aradan qalxsa da, Co Bayden administrasiyası dövründə ölkəmizə qarşı yönəlmiş qərəzin "ilhamvericiləri" sıradan çıxmayıblar. Konqresmenlər Qas Bilirakisdən və Frenk Pellonedən ibarət qrupun "Ermənistan Təhlükəsizlik Tərəfdaşlığı Aktı" adlı qanunvericilik təşəbbüsü qaldırması fikrimizin sübutudur.**

Sözügedən təşəbbüs ABŞ-ın Azərbaycana yardımını bloklamağı, "Azadlığa dəstək aktı"na 907-ci düzəlişin icrasına, "erməni əsir və girovların" azadlığa çıxmalarına nail olmağı, Ermənistanın təhlükəsizliyini gücləndirməyi, Qarabağ ermənilərinin geri dönüşünü dəstəkləməyi, habelə "İrəvana qarşı fəaliyyətinə görə" ölkəmizin məsuliyyətə cəlb edilməsini hədəf seçir. Bəli, ortada absurd teatrı var ki, onun diqqətə çatdırdığımız səhnəsini ABŞ-dakı erməni lobbi və diaspor təşkilatları qurub.

Bəli, Q.Bilirakis və F.Pellone kimilər köhnə şakərlərindən əl çəkmək niyyətində deyillər. Belələri Birləşmiş Ştatların erməni lobbi və diaspor təşkilatlarının anti-Azərbaycan fəaliyyətini daim gündəmdə saxlamaqla, yalnız şəxsi mənfəət əldə etməyi düşünürlər. Çünki özlərinə rahat qazanc mənbəyi tapıblar. Hərdən absurd teatrına dramatik çalarlar qatırlar ki, "bəsləndikləri" mənbə qurumasın.

***

"Ermənistan qeyri-sabit bir regionda əsas tərəfdaşdır. Ölkə suverenliyi və təhlükəsizliyi üçün davam edən təhdidlərlə üzləşdiyi bir vaxtda real dəstəyə layiqdir", – deyə konqresmen Bilirakis bildirib və əlavə edib ki, müəllifi olduğu qanunvericilik təşəbbüsü ABŞ-ın "təcavüzə, insan hüquqları pozuntularına və etnik ermənilərin məcburi köçkünlüyünə, göz yummayacağına dair aydın mesaj verir. Məsuliyyət xarici siyasətimizin mərkəzində olmalıdır.

Göründüyü kimi, Q.Bilirakis özünün "erməni sevdasını" əsaslandırmaq üçün mənasız pafosa baş vurur, ucuz populizmi işə salır. Stajlı ermənipərəst F.Pellone isə daha "irəli gedib". Bildirib ki, uzun müddətdir Azərbaycana, guya, Cənubi Qafqazı sabitlikdən çıxarmaq, dəhşətli insan hüquqları pozuntuları törətmək və erməni xalqını təhdid etmək üçün cəzasız şəkildə hərəkət etmək imkanı verilib. Sən demə, artıq bıçaq sümüyə dirənibmiş. Bu saxta baxışın tərəfdarları Konqresin erməni komitəsinin həmsədrləri Bred Şerman, Devid Valadao, Qeyb Amo, Deyv Min, Cen Şakovski, Kris Smit kimi şəxslərdir. Bir sözlə, köhnə ermənipərəstlər.

Yeri gəlmişkən, adlarını çəkdiyimiz şəxslərdən B.Şerman da pafosa güc verib, qanunvericilik layihəsini mühüm əhəmiyyət daşıyan sənəd kimi təqdim etməyə çalışıb. O deyib ki, Cənubi Qafqazda davamlı sülh zor və təzyiq üzərində deyil, suverenliyə, insan hüquqlarına və beynəlxalq hüquqa hörmət əsasında qurulmalıdır. "Azərbaycanın Ermənistana qarşı davam edən təcavüzü, erməni əsirlərin saxlanılması və erməni mədəni-dini abidələrinin məhvi ciddi cavab tələb edir. Bu qanunvericilik aktı ABŞ-ın beynəlxalq hüququn pozulmasını mükafatlandırmayacağını, Ermənistanın sərhədlərini təmin etməyə, ədalətli, davamlı sülhə qovuşmaq yolunda onun etibarlı tərəfdaşa layiq olduğunu açıq şəkildə göstərir", - deyə təxribatçı fikirlər səsləndirən Şermandan geri qalmayan konqresmen Valadao isə bildirib ki, "Azərbaycanın Cənubi Qafqazdakı təcavüzü uzun müddət davam edib". Valadao həyata keçirdikləri qərəzli fəaliyyətə əlahiddə don geydirmək üçün Konqresin erməni komitəsinin ölkəmizin məsuliyyətə cəlb edilməsi istiqamətində "böyük işlər gördüyünü" də vurğulayıb.

"Ermənistan Təhlükəsizlik Tərəfdaşlığı Aktı" adlandırılan qanunvericilik təşəbbüsü o qədər həyasız notlara köklənib ki, orada ABŞ-ın Müdafiə Nazirliyi qarşısında da tələb qoyulub. Sən demə, nazirlik ölkəmizin Silahlı Qüvvələrinin Ermənistanın suveren ərazisindən tam çıxarılmasını, bu il avqustun 8-də Vaşinqtonda imzalanmış Birgə Bəyannamə üzrə öhdəliklərini yerinə yetirməsini təmin etməli imiş. Hələ tələblər sırasında erməni əsir və girovların qeyd-şərtsiz azadlığa çıxmalarına nail olmaq, Ermənistana qarşı hərbi əməliyyatlara son qoyulması da var. Göründüyü kimi, ermənipərəst konqresmenlərin həyasızlıq ritorikası sərhəd tanımır. Daha bir sərhədsiz həyasızlıq isə Pentaqon qarşısında İrəvanın müdafiə qabiliyyətinin gücləndirilməsinə dəstək tələbinin qaldırılmasıdır.

Sözügedən qanunvericilik təşəbbüsündə yer alan məqamlardan biri də "Azadlığa dəstək aktı"na 907-ci düzəlişlə bağlıdır. Məlumdur ki, Prezident Tramp avqustun 8-də xüsusi jest edərək Azərbaycan Prezidenti İlham Əliyevin önündə məlum düzəlişin qüvvəsini dayandırdı. O da məlumdur ki, hazırda ABŞ-da yeni strateji xətt çərçivəsində "907"nin tamamilə ləğvinin tərəfdarları da var. Görünür, məsələ Birləşmiş Ştatların erməni lobbi və diaspor təşkilatlarında, o cümlədən ölkədəki ermənipərəstlərdə əndişə doğurub. Ona görə də onlar düzəlişin qüvvəsini dayandırmaq barədə Prezidentin müstəsna səlahiyyətinin ləğvinə girişiblər. Haqqında bəhs etdiyimiz qanun layihəsinin həyasızlıq mahiyyətinin ən böyük təzahürü də budur. Əsaslandırma isə ondan ibarətdir ki, dövlət başçısının "907"nin qüvvəsini dayandırmaq səlahiyyətinə xitam verilməsi ABŞ vergi ödəyicilərinin vəsaitlərinin Azərbaycanın hərbi təcavüzünü dəstəkləməsinin və ya asanlaşdırmasının qarşısını almağa yönəlib. Yəni ortada növbəti absurd teatrı var.

***

Qeyd edək ki, Amerika Erməni Milli Komitəsi (ANCA) və Amerikanın Erməni Assambleyası "Ermənistan Təhlükəsizlik Tərəfdaşlığı Aktı"nı alqışlayaraq sənədə dəstək ifadə ediblər. ANCA-dan bildirilib ki, akt, guya, Azərbaycanın təcavüzünü cilovlamaq və ABŞ–Ermənistan tərəfdaşlığını gücləndirmək üçün sağlam məntiqə əsaslanan yanaşmadır. Qurumun icraçı direktoru Aram Hamparyan sənədin Vaşinqtonun siyasətini sülhün konkret meyarlarına fokusladığını deyib. Həmin "meyarlardan" yuxarıda söz açdıq. Belə çıxır ki, onlar nəzərə alınmasa, ABŞ-ın Cənubi Qafqazda sülh siyasəti konkret deyilmiş. Göründüyü kimi, qanunvericilik təşəbbüsü rəsmi Vaşinqtonun həm də şantaj edilməsinə yönəlib.

Yada salaq ki, 2025-ci ilin martında 60 ABŞ konqresmeni dövlət katibi Marko Rubioya məktubla müraciət edərək, "907"nin tam icrasını tələb etmişdi. Onlar fikirlərini əsaslandırmaq üçün "Qarabağın erməni xristian əhalisinə qarşı etnik təmizləmənin həyata keçirildiyini, Ermənistanın suveren ərazilərinin işğalını və erməni əsirlərin qanunsuz saxlanılmasını" önə çəkmişdilər. Məktubda vurğulanmışdı ki, "real nəticə və məsuliyyətlə üzləşməyən Azərbaycan Ermənistan əleyhinə davam edən təcavüzlə ədalətli və davamlı sülh perspektivlərini sarsıdır". Həmçinin may ayında Konqresin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin dinləmələrində konqresmenlər Cim Kosta və Kris Smit də oxşar fikirlər səsləndirmişdilər. Dövlət katibi Rubio isə cavabında Azərbaycanla Ermənistan arasında yeni müharibənin dağıdıcı olacağını demişdi. Yəni Dövlət Departamentinin rəhbəri cavabı ilə, faktiki olaraq, ermənipərəstlərin iddialarının neqativ mahiyyət daşıdığını, təxribatçı xarakterini vurğulamışdı. Lakin onlar öz inadlarından dönməyərək, sentyabrda yenidən hərəkətə keçmişdilər. Həmin vaxt adını çəkdiyimiz konqresmen Şerman "907" üzrə Prezidentin müstəsna səlahiyyətinin ləğvini nəzərdə tutan təşəbbüslə çıxış etsə də, dəstək qazanmamışdı.

***

Sonda onu da bildirək ki, ABŞ-ın erməni lobbi və diaspor təşkilatlarının, eləcə də ölkə ermənipərəstlərinin bütün anti-Azərbaycan mahiyyət daşıyan təşəbbüsləri kimi, "Ermənistan Təhlükəsizlik Tərəfdaşlığı Aktı"nın da heç bir real dəstək qazanmayacağı, Vaşinqtonun nə Azərbaycanla, nə də ümumən Cənubi Qafqazla bağlı hazırkı yanaşmasını dəyişdirməyəcəyi birmənalıdır. Mənasız təşəbbüslər qaldıranlar anlamalıdır ki, Bayden dövrü artıq başa çatıb. O dövr ki, böyük yanlışlarla və səriştəsizliklərlə dolu idi.

Məsələnin digər tərəfində gəlincə, məlumdur ki, "Ermənistan Təhlükəsizlik Tərəfdaşlığı Aktı"na bənzər sənədlər Azərbaycan-Ermənistan sülh prosesinin hazırkı dinamikasını pozmağa, ümumən, Bakı ilə İrəvan arasında barışın əldə olunmasını əngəlləməyə yönəlib. Ermənistan rəsmiləri isə müxtəlif bəyanatlarında sülhün tərəfdarı olduqlarını bəyan edirlər. Bir halda ki, ABŞ konqresmenləri kimi, prinsip etibarilə, yüksək ranqlı şəxslər (özləri cılız mahiyyətli olsalar da - red.) erməni maraqlarının sərsəm üsullarla qorunmasına çalışan təşəbbüslər irəli sürürlər, əslində, Baş nazir Nikol Paşinyan administrasiyasının təmsilçilərinin buna qarşı açıq etiraz etmələri mütləqdir. Ermənistan rəhbərliyi nəzərə almalıdır ki, hazırda sülh prosesi kövrəkdir və onun qorunması üçün barış əleyhinə yönələn, düşmənçilik səhifəsinin açılmasına rəvac verə biləcək istənilən təşəbbüs beşiyindəcə boğulmalıdır. Lakin rəsmi İrəvan susur. Axı susmağın razılıq əlaməti qismində qiymətləndirilmək təmayülü var. Yaxşı olar ki, Paşinyan və tərəfdarları bu barədə ciddi düşünsünlər.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan–Türkiyə Birgə Hökumətlərarası Komissiyanın iclası



**Dekabrın 22-də Bakı şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclası keçirilib.**

Əvvəlcə Azərbaycanın Baş naziri Əli Əsədov və Türkiyənin Vitse-prezidenti Cevdet Yılmaz arasında təkbətək görüş olub. Sonra Ə.Əsədov və C.Yılmazın həmsədrliyi və hər iki ölkənin müvafiq dövlət qurumlarının rəhbərliyinin iştirakı ilə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclası keçirilib.

İclasda qeyd olunub ki, Azərbaycan ilə Türkiyəni dərin tarixi və mədəni köklər üzərində qurulmuş möhkəm dostluq, qardaşlıq münasibətləri birləşdirir.

2021-ci il iyunun 15-də prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış tarixi Şuşa Bəyannaməsinin ikitərəfli münasibətləri müttəfiqliyin ən yüksək zirvəsinə qaldırdığı bildirilib.

Dövlət başçıları arasındakı şəxsi münasibətlərin və sıx təmasların strateji tərəfdaşlığın ardıcıl inkişafını təmin edən əsas amil olduğu diqqətə çatdırılıb.

Təkcə bu il prezidentlərin 7 qarşılıqlı səfərinin baş tutduğu vurğulanıb.

Prezident İlham Əliyevin iyunun 19-da Türkiyəyə səfəri zamanı Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin açılış mərasiminin keçirildiyi, Prezident Rəcəb Tayyib Ərdoğanın isə noyabrın 8-də Bakıda Vətən müharibəsində Qələbənin 5-ci ildönümünə həsr olunmuş hərbi paradda iştirak etdiyi xatırlanıb. Bütün bunların siyasi dialoqun yüksək səviyyəsinin göstəricisi olduğu qeyd edilib.

Azərbaycan ilə Türkiyə arasında beynəlxalq təşkilatlar çərçivəsində mövcud olan ənənəvi sıx əməkdaşlıqdan və qarşılıqlı dəstəkdən məmnunluq ifadə olunub.

Türk Dövlətləri Təşkilatının hər iki ölkə üçün xüsusi əhəmiyyətə malik olduğu vurğulanaraq, prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın Türk dünyasının birliyi və Türk Dövlətləri Təşkilatının (TDT) beynəlxalq aləmdə nüfuzunun artırılması üçün əzmkar fəaliyyət göstərdikləri bildirilib.

Bu ilin oktyabrında Qəbələdə TDT-nin 12-ci Zirvə Görüşünün təşkil olunduğu və sədrliyin Azərbaycana keçdiyi xatırlanıb, sədrliyimiz dövründə təşkilatın öz inkişafını davam etdirəcəyinə və nüfuzunu daha da artıracağına əminlik ifadə edilib.

Bu il TDT-də yeni formatın – Hökumət başçılarının/Vitse-prezidentin görüşünün yaradıldığı, Qırğızıstanda keçirilən ilk görüşdən sonra Azərbaycanın 2026-cı ildə növbəti iclasa ev sahibliyi edəcəyi diqqətə çatdırılıb.



İqtisadi-ticari sahədə ikitərəfli əlaqələrə toxunularaq, Türkiyənin Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olduğu qeyd edilib. Bildirilib ki, hər iki ölkənin mövcud iqtisadi potensialı və coğrafi üstünlükləri ticarət dövriyyəsinin həcmini daha yüksək səviyyəyə qaldırmaq üçün real imkanların mövcud olduğunu göstərir.

Preferensial Ticarət Sazişinin nəticələrinin təhlil edilərək əhatə dairəsinin genişləndirilməsinin vacibliyi vurğulanıb.

İnvestisiya sahəsində əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluq ifadə olunub.

Azərbaycanla Türkiyənin enerji sahəsində birgə reallaşdırdıqları meqalayihələrin böyük regional və qlobal əhəmiyyət daşıdığı bildirilib.

Cənub Qaz Dəhlizinin strateji önəmi vurğulanaraq, son aylarda Azərbaycanın qaz ixrac etdiyi ölkələrin sayının 14-ə çatdığı, onlardan 10-nun Avropa ölkəsi olduğu bildirilib.

Birgə səylərlə artıq Suriyaya qaz nəqlinə başlanıldığı, ilk dəfə olaraq Türkiyə ərazisindən keçməklə Azərbaycan qazının Yaxın Şərq regionuna çatdığı vurğulanıb.

Cari ilin martında istismara verilən İğdır-Naxçıvan təbii qaz boru kəmərinin Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyini gücləndirdiyi diqqətə çatdırılıb.

Elektrik enerjisi sahəsində də qarşılıqlı faydalı əməkdaşlığın qurulduğu bildirilərək, bu gün Naxçıvan-Türkiyə enerji qovşağı layihəsi üzərində fəal işin aparıldığı qeyd edilib. Vurğulanıb ki, Naxçıvanın bərpaolunan enerji potensialından istifadə edilərək Türkiyə və Avropa istiqamətində yaşıl enerjinin ixracı hədəflər sırasındadır.

Nəqliyyat sahəsi Azərbaycan-Türkiyə əməkdaşlığının prioritet istiqamətlərindən biri kimi dəyərləndirilib. İki ölkə arasında avtomobil və dəmir yolları nəqliyyatı ilə yükdaşımalar sahəsində əməkdaşlığın üzrə aktual məsələlər müzakirə olunub.

Orta Dəhlizin mühüm halqası olan Bakı-Tbilisi-Qars dəmir yolunun daşıma qabiliyyətinin ötən il Azərbaycanın sərmayələri hesabına 1 milyon tondan 5 milyon tona qədər artırıldığı vurğulanıb. Ə.Əsədov BTQ dəmir yoluna əlavə yük axınlarının cəlb olunması üçün səylərin artırılmasının önəmini qeyd edib.

Orta Dəhlizin inkişafının hər iki ölkə üçün strateji əhəmiyyət kəsb etdiyi bildirilib.

Azərbaycanın əsas hissəsinin Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsi üzrə Vaşinqtonda əldə edilmiş razılaşmaların əhəmiyyəti qeyd olunub.

İlkin mərhələdə 15 milyon ton yükdaşıma qabiliyyətinə malik olacaq Zəngəzur dəhlizinin Orta Dəhlizin əsas xəttinə çevriləcəyi diqqətə çatdırılıb. Avqustda Zəngəzur dəhlizinin bir hissəsi olan Qars-İğdır-Aralık-Dilucu dəmir yolu xəttinin təməlinin qoyulmasının əhəmiyyəti vurğulanıb.

Azərbaycanın və Türkiyənin, həmçinin humanitar əlaqələrə böyük əhəmiyyət verdikləri bildirilib, təhsil sahəsində əməkdaşlığa xüsusi diqqət yetirilib.

2024–2025-ci tədris ilindən fəaliyyətə başlayan Türkiyə–Azərbaycan Universiteti (TAU) təhsil sahəsində uğurlu əməkdaşlığın bariz nümunəsi kimi səciyyələndirilib.

Bu ilin sentyabrında Bakıda Türk Anadolu Liseyinin yeni filialının açılmasından məmnunluq ifadə olunub, növbəti tədris ilindən İstanbulda da Azərbaycan məktəbinin yaradılacağı diqqətə çatdırılıb.

Peşə təhsili sahəsində əməkdaşlığın nəticələri yüksək qiymətləndirilib, bu sahədə Türkiyə təcrübəsinin ölkəmiz üçün faydalı olacağına ümidvarlıq ifadə edilib.

Eyni zamanda, ətraf mühitin qorunması və iqlim dəyişikliyi ilə mübarizə sahələrində də əməkdaşlıq məsələləri nəzərdən keçirilib.

Ə.Əsədov Türkiyənin COP31-in ev sahibi seçilməsi münasibətilə C.Yılmaza təbriklərini çatdırıb, tədbirə hazırlıq prosesində Azərbaycanın qardaş ölkəyə hərtərəfli dəstək göstərməyə hazır olduğu diqqətə çatdırılıb.

İclasda hər iki ölkənin nümayəndə heyətlərinin üzvlərinin gündəlikdə duran məsələlərə dair məruzələri dinlənilib.

Sonda Baş nazir Əli Əsədov və Vitse-prezident Cevdet Yılmaz Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclasının Protokolunu imzalayıb, ikitərəfli əməkdaşlığın aktual sahələrini əhatə edən 110-bəndlik Fəaliyyət Planını təsdiqləyiblər.

***XQ***

# Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz Azərbaycana səfərə gəlib



**Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz dekabrın 22-də Azərbaycan Respublikasına səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyənin vitse-prezidenti Cevdet Yılmazı Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

# Ümummilli liderin məzarını ziyarət



**Azərbaycanda səfərdə olan Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmazın rəhbərlik etdiyi nümayəndə heyəti dekabrın 22-də Fəxri xiyabanı ziyarət edib.**

Əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsi ehtiramla anılıb, məzarı önünə əklil qoyulub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üstünə gül dəstələri düzülüb.

# Türkiyə heyəti Şəhidlər xiyabanı və Zəfər parkında



**Azərbaycanda səfərdə olan Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmazın rəhbərlik etdiyi nümayəndə heyəti dekabrın 22-də Şəhidlər xiyabanına gəlib.**

Nümayəndə heyəti Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər güllər düzüb. Həmçinin "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Daha sonra Şəhidlər xiyabanında 1918-ci ildə Bakının bolşevik-erməni daşnak qoşunlarından azad edilməsi uğrunda döyüşlərdə şəhid olmuş qəhrəman türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsi ziyarət olunub, abidə önünə əklil qoyulub, gül dəstələri düzülüb.

* * *



**Həmin gün Türkiyənin vitse-prezidenti Cövdət Yılmazın rəhbərlik etdiyi nümayəndə heyəti Zəfər parkını ziyarət edib. Ziyarət zamanı qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.**

Nümayəndə heyəti torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş Vətən müharibəsi şəhidlərinin xatirəsini dərin ehtiramla yad edib, Zəfər abidəsinin önünə əklil qoyulub.

Mərasimdə Azərbaycanın ərazi bütövlüyünün qorunması və bərpası uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının əziz xatirəsi anılıb.

***XQ***

# Daxili işlər nazirinin paytaxtda sıra baxışı

**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov dekabrın 22-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**



Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 120 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 13 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.



Qeyd edək ki, Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tərəfindən 2025-ci il ərzində respublikanın şəhər və rayonlarında ümumilikdə 21 sıra baxışı keçirilib.

Xidmətə qəbul üçün Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət edərək sıra baxışlarında iştirak etmiş gənclərdən 4392 nəfər seçim turunun növbəti mərhələlərinə buraxılıb ki, onlardan da 435 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

***XQ***

# "Rəqəmsallaşma, süni intellekt və media savadlılığı"

**Medianın İnkişafı Agentliyinin həyata keçirdiyi "Media savadlılığı" Həftəsi dekabrın 22-də "Rəqəmsallaşma, süni intellekt və media savadlılığı" mövzusunda konfransla yekunlaşıb.**





Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov rəqəmsallaşmanın sürətlənməsi və süni intellekt texnologiyalarının geniş yayılması fonunda media savadlılığının əhəmiyyətinin daha da artdığını vurğulayıb. O qeyd edib ki, müasir informasiya mühitində vətəndaşların, xüsusilə gənclərin məlumatı düzgün təhlil etmək bacarığının formalaşdırılması, etibarlı mənbələrə istinadın təşviqi və məsuliyyətli paylaşım mədəniyyətinin gücləndirilməsi prioritet istiqamətlərdəndir.

Sonra il ərzində media savadlılığının artırılması istiqamətində görülən işlərə dair videoçarx nümayiş olunub. Medianın İnkişafı Agentliyinin dəstək layihələri, strateji planlaşdırma və informasiya texnologiyaları departamentinin direktoru Ləman İsgəndərova "Media savadlılığı" Həftəsi barədə təqdimatla çıxış edib.

Konfrans müzakirələrlə davam edib.

***XQ***

# “Harmoniya” filminin təqdimatı





**Dekabrın 21-də Nizami Kino Mərkəzində Azərbaycanda müxtəlif dinlərin nümayəndələri arasında mövcud olan birgəyaşayış və tolerantlıq ənənələrini əks etdirən “Harmoniya” sənədli filminin təqdimatı keçirilib. Film Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Mənəvi Dəyərlərin Təbliği Fondunun və Bakı Media Mərkəzinin birgə layihəsidir.**

Filmin təqdimatında Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak edib.

Əvvəlcə film nümayiş etdirilib. Sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov film haqqında fikirlərini bölüşüb. O, ekran işində üç müxtəlif dini təmsil edən rəfiqələrin timsalında Azərbaycan xalqının müxtəlif din və xalqlara yanaşmasının ortaya qoyulduğunu bildirib: “Əsrlər, minilliklər boyu bu coğrafiyada Azərbaycan xalqı multikultural dəyərləri, bir-birinə hörməti, çiyin-çiyinə yaşamağı, adət-ənənəni növbəti nəsillərə ötürmək kimi çox möhtəşəm bir xüsusiyyəti özündə yaşadır. Bu gün Azərbaycanda müxtəlif dinlərin nümayəndələri birlikdə yaşayır, fəaliyyət göstərir, yaradır. Təbii ki, bu, Azərbaycan xalqının müdrikliyinin ən bariz nümunələrindən biridir”. Komitə sədri qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin apardığı siyasət nəticəsində multikultural dəyərlər Azərbaycan xalqının sadəcə adət-ənənəsi kimi qalmadı, bu gün də uğurla davam edən dövlət siyasətinə çevrildi. O, işğaldan azad edilən ərazilərdə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın birgə səyləri nəticəsində bütün ibadət yerlərinin bərpa olunduğunu da diqqətə çatdırıb.

Ekran işinin quruluşçu rejissoru və ssenari müəlliflərindən biri Fuad Məmmədzadə filmin əsas qəhrəmanları olan Nigar, Cəmilə və Sofiya obrazlarının əsasında Azərbaycan üçün təbii olan bir reallığı çatdırmaq istədiklərini deyib.



“Azərbaycan dünyada nadir ölkələrdəndir ki, burada eyni zamanda müsəlman, yəhudi və xristianlar vahid ailə kimi yaşayır. Biz həmin xanımların timsalında bir mesaj vermək istəyirik ki, bu, həqiqətən də mümkündür”, - deyə o bildirib.

Qeyd edək ki, Bakı Media Mərkəzinin istehsal etdiyi sənədli film Azərbaycanda müxtəlif din mənsublarının birgəyaşayışı üçün yaradılmış imkanlar, dinlərarası harmoniyanın təbliği məqsədilə hazırlanıb. Filmin baş prodüseri Arzu Əliyeva, prodüseri Orman Əliyev, quruluşçu rejissoru Fuad Məmmədzadə, ssenari müəllifləri Fuad Məmmədzadə və Ramil Ələkbərov, quruluşçu operatoru Ziya Babayev və bəstəkarı Hafiz İbrahimlidir.

Çəkilişlər Azərbaycanın müxtəlif bölgələrindəki dini ibadətgahlarda, eyni zamanda, ölkəmizdə formalaşmış nümunəvi tolerantlıq və multikulturalizm mühitini, dinlərarası harmoniyanı, həmrəyliyi, mədəni müxtəlifliyi, birgəyaşayış dəyərlərini təbliğ və təşviq etmək məqsədilə noyabrın 5-də Bakıda keçirilən “Fərqliliyin rəngi” festivalında aparılıb.

Film fərqli din mənsubu olan üç rəfiqənin gündəlik həyatı və qarşılıqlı münasibətlərinin nümunəsində ölkəmizdəki tolerant mühiti işıqlandırır. Qəhrəmanların ailə həyatları, ibadətləri və illərlə davam edən münasibətləri onların mədəni müxtəliflik və sülh şəraitində yaşadıqlarını nümayiş etdirir. Sənədli film vasitəsilə cəmiyyətdə tolerantlıq, qarşılıqlı hörmət və multikultural dəyərlərin təbliği, eyni zamanda, ölkəmizin dinlərarası harmoniyanın qorunması və inkişafı istiqamətində həyata keçirdiyi dövlət siyasətinin mahiyyəti diqqətə çatdırılır.

Azərbaycan tarixini yaşatmaq, həqiqətləri olduğu kimi çatdırmaq Bakı Media Mərkəzi üçün yarandığı ilk gündən böyük önəm daşıyır. Mərkəz bu müddət ərzində ölkəmizin ən müxtəlif tarixi dövrlərini özündə əks etdirən “Hədəf Bakıdır”, “Miras”, “Tağıyev”, “Son iclas”, “Əbədi ezamiyyət”, “Biz” və “Şuşa, sən azadsan!” kimi ictimaiyyət tərəfindən geniş marağa səbəb olan filmlər istehsal edib. “Harmoniya” sənədli filmi də “Bir günəş altında” sənədli filmindən sonra Azərbaycanda multikulturalizm ənənəsinin gündəlik həyatdakı təzahürlərini real insan hekayələri ilə əks etdirən ekran işidir.

***XQ***

# XİN-də görüşlər və qəbul



**Dekabrın 22-də xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar Birləşmiş Millətlər Təşkilatının ölkəmizdəki rezident-əlaqələndiricisi Vladanka Andreyeva ilə görüşüb.**

Görüşdə Ceyhun Bayramov Azərbaycanla BMT arasında mövcud münasibətlərin inkişafını məmnunluqla qeyd edib. Nazir bu istiqamətdə göstərdiyi səylərə görə rezident-əlaqələndiriciyə təşəkkür edib, ona



gələcək fəaliyyətində uğurlar arzulayıb.

Ceyhun Bayramov Azərbaycanın ərazi bütövlüyünün bərpasından sonra ərazilərimizdə aparılan genişmiqyaslı bərpa, yenidənqurma, Cənubi Qafqazda sabitlik və əməkdaşlıq mühitinin yaradılması istiqamətində atılan mühüm addımlardan danışıb. Bu il avqustun 8-də Vaşinqtonda imzalanmış Birgə Bəyannamənin və əldə edilmiş digər tarixi razılıqların regionda sülh prosesinin irəliləilməsində əhəmiyyətli mərhələ olduğunu diqqətə çatdırıb. Nazir, həmçinin rezident-əlaqələndiriciyə gələcək fəaliyyətində uğurlar arzulayıb.

* * *

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar Kolumbiya-**



**nın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Luis Fernando Kuartas Ayala ilə də görüşüb.**

Görüşdə nazir Ceyhun Bayramov iki ölkə arasında mövcud münasibətlərin inkişafını məmnunluqla qeyd edərək, bu istiqamətdə göstərdiyi səylərə görə səfirə təşəkkürünü bildirib. Söhbət zamanı ölkələrimiz arasında mövcud siyasi dialoqun qorunub saxlanılması və inkişaf etdirilməsində qarşılıqlı səfər və təmasların, eləcə də siyasi və konsulluq məsləhətləşmələrinin əhəmiyyəti qeyd olunub.

Nazir Ceyhun Bayramov səfir Luis Fernando Kuartas Ayalanın Azərbaycan–Kolumbiya münasibətlərinin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirərək ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

* * *

**Ötən gün Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Beynəlxalq Mülki Müdafiə Təşkilatının (ICDO) Baş katibi Ərgüc Kələntərlini qəbul edib.**

Ceyhun Bayramov cari ildə Bakı şəhərində keçirilmiş Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının 3-cü növbədənkənar sessiyası çərçivəsində ilk dəfə olaraq ölkəmizin nümayəndəsi kimi Ərgüc Kələntərlini Təşkilatın Baş katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik edib, bu seçimin Azərbaycanın beynəlxalq nüfuzunun və mülki müdafiə sahəsində artan rolunun göstəricisi olduğunu vurğulayıb.

Görüşdə mülki müdafiə sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi, təbii və texnogen fəlakətlərə qarşı mübarizə, humanitar yardımlar sahəsində əməkdaşlıq və təcrübə mübadiləsi perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

## Bərdə və Beyləqanda ağacəkmə aksiyaları



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Yaşıl marafon” kütləvi ağacəkmə kampaniyası çərçivəsində növbəti ağacəkmə aksiyaları Bərdə və Beyləqan rayonlarında təşkil edilib.**

IDEA İctimai Birliyindən verilən məlumata görə, könüllülərin iştirakı ilə Bərdə rayonunda 600-dən çox Eldar şamı ağacı əkilib. Həmçinin Beyləqan rayonunda keçirilən aksiya zamanı 2 mindən çox sərv və şam ağacı əkilib.

Qeyd edək ki, IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən “Ümumrespublika yaşıllaşdırma marafonu”nun (“Yaşıl marafon”) əsas məqsədi yaşıllıq sahələrinin artırılması, ağacəkmə ənənəsinin təşviqi, ətraf mühitin mühafizəsinə, ölkəmizin flora biomüxtəlifliyinin zənginləşdirilməsinə və yaşıllıqların qorunması ilə bağlı maarifləndirməyə töhfə verməkdir.

“Yaşıl marafon” çərçivəsində 2025-ci ilin payız və 2026-cı ilin yaz əkin mövsümləri ərzində ölkə üzrə 2 milyona yaxın ağacın əkilməsi nəzərdə tutulur.

***XQ***

*Xuntaçıların məhkəməsi*

## Təqsirləndirilən şəxslər dövlət ittihamlarından yan keçməyə çalışıblar

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası dekabrın 22-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclası təqsirləndirilən şəxslərin son söz çıxışları ilə davam etdirilir.

D.Babayan çıxışında ittiham tərəfinin çıxışında bildirdiklərinə əks dəlillər səsləndirib. O, təqsirləndirilən şəxslərin günahsız olduğunu deyib. “Mən özümü heç bir maddə ilə günahkar hesab etmirəm”.

Təqsirləndirilən Levon Mnatsakanyan isə deyib: “Qarabağ (qondarma rejimi nəzərdə tutur – red.) Ermənistandan onun təhlükəsizliyinin qarantı kimi çıxış etməyi xahiş etdi və bu dövrdən də təmas xəttində bütün əməliyyatlar Ermənistan Respublikasının baş qərargahı (silahlı qüvvələrin baş qərargahı nəzərdə tutulur – red.) tərəfindən hazırlanmış planlara uyğun aparılırdı. Burada məhkəmə iclasları zamanı qeyd etmişdim ki, mən 1992-ci ildə hərbiyə çağırılmışam. Zabit rütbəmi nəzərə alaraq, məni batalyonun komandir müavini təyin etdilər. Bu vəzifəyə təyin edilmək üçün başqa heç bir şey tələb olunmurdu. Lakin ittiham tərəfi iddia edir ki, məni başqa hansısa parametrlərə görə təyin ediblər”.

Təqsirləndirilən şəxs müharibədə onlar tərəfdən muzdluların döyüşməsi barədə ittiham tərəfinin dediklərinə də münasibət bildirib: “Bildiyim qədər onlar muzdlu olmayıblar. Onlar hamısı könüllülər idi və onları heç kəs xidmətə cəlb eləməmişdi, onlara pul verilmirdi”.

O, 2020-ci ildə 44 günlük müharibə zamanı Şuşakənddə hərbi hücumun planlaşdırılmasında iştirak etməsi barədə ittiham tərəfinin dediklərini də inkar edib, ümumiyyətlə 2020-ci və 2023-cü ildə heç bir hərbi əməliyyatda iştirak etmədiyini söyləyib. Təqsirləndirilən şəxs deyib: “Bəli, mən həqiqətən orada (Şuşakənddə müşavirə keçirilən məktəbdə - red.) olmuşam. Lakin mən çox gec, müşavirə başladıqdan sonra gəlmişəm. Müşavirəyə mənim aidiyyətim yox idi. Mən ora dəvət olunmamışdım. Həmin məktəbdəki kabinetdə mən ətraf kəndlərin mülki müdafiə qərargahlarının rəhbərləri ilə mülki müdafiə ilə bağlı məsələləri müzakirə edirdim. Əhalinin oradan təxliyə olunmasını danışırdıq.





Şuşaya hücum hazırlayan silahlı qüvvələrin məsul şəxsi Samvel Babayan idi. Onlar bütün məsələləri müzakirə etdilər. Həmin əməliyyatın vaxtını müəyyən etdilər və çıxıb getdilər. Vaxtı ertəsi gün saat 5-ə təyin etmişdilər. Təşkilatçılar getdikdən sonra iştirakçılar öz narazılıqlarını bildirməyə başladılar ki, hazırlıq işləri tam həyata keçirilməyib, tam hazır deyillər. Onlara vaxt verilməyib ki, bu əməliyyata normal şəkildə hazırlaşa bilsinlər, bu səbəbdən də iştirakdan imtina edirlər. Mən soruşdum ki, nəyə görə onlar bunu indi deyirlər, müşavirə keçirilən vaxt niyə deməyiblər? Onlardan bir cavab ala bilmədim və onların işinə də qarışmadım. Fikirləşdim ki, bu, onların öz işləridir”.

Təqsirləndirilən şəxs 2016-cı ildə baş vermiş Aprel döyüşləri barədə danışarkən həmin vaxt “ordu komandanı” (Ermənistan silahlı qüvvələrinin ən böyük birləşməsinin komandiri – red.) olduğunu deyib. O, Aprel döyüşləri ilə bağlı ittiham tərəfinin dəlillərini və zərərçəkmişlərin dediklərini inkar edib, Azərbaycan hərbçilərinin mövqelərinə hücum etmədiklərini deyib.

Məhkəmə prosesi dekabrın 23-də davam etdiriləcək.

***XQ***

*"Konstitusiya və Suverenlik İli" – 2025*

# Müstəqilliyimiz, Konstitusiyamız və suverenliyimiz

**2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik ili" elan edilməsi – milli dövlətçilik dəyərlərimizə, siyasi tariximizə ali ehtiramın təcəssümüdür.**

**Müstəqilliyimiz, Konstitusiyamız və Suverenliyimiz** – bu üç anlayış bəşəriyyətin müxtəlif formasiyadan keçərək əldə etdiyi ən ali hüquqi nemətdir. Biz də dünya xalqları içərisində bu nemətləri əldə edib onu qoruyub saxlamağı bacarmışıq. Müstəqillik bizə asan başa gəlməyib, müqəddəs üçrəngli bayrağımızı qanımızla suvarıb bunlara layiq olmuşuq.

Azərbaycan xanlıqları müxtəlif səbəblərdən 1804-cü ildən başlayaraq bölünərək Çar Rusiyası tərəfindən işğal olunub və işğalın sonu 1828-ci ildə Azərbaycanın iki yerə bölünməsi ilə başa çatmışdır. Şimalımız Rusiyanın, cənubumuz Qacarların hakimiyyəti altına keçmiş və böyük ayrılığımız beləcə başlamışdır. Çar Rusiyası dünyanın müxtəlif yerlərindən yığıb gətirdiyi erməniləri Vətənimizin dilbər guşəsi olan Qarabağımızda ən münbit torpaq sahələrinə yerləşdirib və bundan uzun zaman istifadə etmişdir.

Müstəqillik isə bir millətin və ya dövlətin öz vətəndaşları, əhalisi tərəfindən idarə edilməsi, başqa xalqların, dövlətlərin nəzarətindən azad olmaq hüququdur. Bu bir mənəvi duyğu, həm də quruluşun əsas təməlidir. Bunu demokratik yolla və ya silahlı mübarizə ilə əldə etmək olar. 1991-ci ildə respublikamız müstəqillik əldə etsə də, ölkədə hakimiyyət böhranı, daxili-siyasi çəkişmələr, seperatizm yenidən baş qaldırdı. Həm daxildən, həm də xaricdən təhlükənin miqyası sürətlə böyüməyə başladı. Bir tərəfdən Qarabağ təhdidi, digər tərəfdən vətəndaş müharibəsi ölkəni yenidən parçalanmaq həddinə gətirib çıxardı. Nəhayət, 1993-cü ilin iyununda Heydər Əliyevin hakimiyyətə qayıdışı tariximizdə dönüş nöqtəsi yaradaraq Ümummilli liderimizin rəhbərliyi ilə biz müstəqilliyimizi bu bəlalardan qoruya bildik.

1995-ci ildə Heydər Əliyevin rəhbərliyi ilə xalqımız dövlətin ali hüquqi qüvvəyə malik olan Əsas Qanununu, dövlətin siyasi, hüquqi və iqtisadi sisteminin əsaslarını müəyyən edən Konstitusiyasını qəbul etdi. Bu çox böyük bir uğur oldu, biz müstəqil bir dövlət kimi dövlətlər sırasında öz yerimizi müəyyən etdik. Ulu öndər Heydər Əliyev demişdir: "Bizim Konstitusiyamız Azərbaycan Respublikasının tarixi ənənələrini, xüsusiyyətlərini əks etdirir. O, Azərbaycan Respublikasında demokratik–hüquqi dövlətin qurulmasını, ölkəmizdə olan bütün vətəndaşların hüquq və azadlıqlarını təmin edəcəkdir. Bu bizim özümüzün Konstitusiyamızdır, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır".

Müstəqil Azərbaycan Respublikasının dövlətçilik tarixində Konstitusiyanın qəbulu strateji siyasi transformasiyanın və milli hüquq sisteminin yenidən qurulmasının başlanğıc nöqtəsi kimi çıxış etmişdir. 1995-ci il Konstitusiyası yalnız hüquqi sənəd deyil, həm də Azərbaycan xalqının suverenlik ideyalarını, milli dövlətçilik ənənələrini və demokratik inkişaf iradəsini ifadə edən fundamental siyasi aktdır. Onun hazırlanması və qəbul edilməsi prosesi ulu öndər Heydər Əliyevin dərin dövlətçilik fəlsəfəsinə, hüquqi təfəkkürünə və siyasi iradəsinə əsaslanaraq həyata keçirilmişdir. Dahi liderin Konstitusiya layihəsi üzərində işləyən komissiyanın yekun iclasında dediyi "Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam" fikri bu sənədin konseptual dəqiqliyini və siyasi-hüquqi məsuliyyətlə hazırlanmasını göstərən mühüm nümunədir.




Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquq və azadlıqlarının ali dəyər kimi təsbit edilməsi, hakimiyyət bölgüsü prinsipinin tətbiqi, dövlətin və cəmiyyətin qarşılıqlı məsuliyyətinin müəyyənləşdirilməsi ölkənin siyasi sisteminin modernləşdirilməsi istiqamətində dönüş nöqtəsi olmuşdur. Konstitusiyanın ideya əsasları sovet hüquq sisteminin totalitar idarəçilik modeli ilə kəskin ziddiyyət təşkil edir. Sovet siyasi sistemində dövlətin cəmiyyətdə fövqəladə dominant mövqeyi, fərdin hüquqlarının ikinci plana keçirilməsi, mərkəzləşmiş idarəçiliyin üstünlüyü azadlıq ideyalarının məhdudlaşdırılmasına səbəb olurdu. Azərbaycan Respublikasının yeni Konstitusiyası bu modeldən tam imtina edərək liberal-demokratik hüquq məkanının qurulmasını təmin etmişdir.

Konstitusiyanın preambulası Azərbaycan xalqının siyasi iradəsini, milli dövlətçilik fəlsəfəsini və strateji inkişaf prioritetlərini ifadə edən siyasi-bərqərarlaşdırıcı bəyannamə xarakteri daşıyır. Burada göstərilən prinsiplər – dövlət müstəqilliyinin qorunması, suverenliyin təmin edilməsi, ərazi bütövlüyü, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin bərqərar edilməsi – Azərbaycan Respublikasının inkişaf strategiyasının elmi-siyasi konsepsiyasını formalaşdırır.

Konstitusiyanın 147-ci maddəsi hüquqi dövlətin normativ strukturunun əsas prinsipini, Konstitusiyanın ən yüksək hüquqi qüvvəyə malik olmasını müəyyən edir. Bu, Azərbaycan hüquq sistemində konstitusionalizm ənənələrinin formalaşması baxımından fundamental əhəmiyyət daşıyır. Konstitusiya hüquqi iyerarxiyanın zirvəsində dayanaraq qanunvericilik sisteminin ideoloji və normativ təməlini təşkil edir.

Konstitusiya Azərbaycanda dövlət hakimiyyəti orqanlarının təşkili, onların səlahiyyət bölgüsü, qarşılıqlı tarazlıq və nəzarət mexanizmlərini təsbit etməklə demokratik idarəetmə modelini formalaşdırır. Prezident institutunun konstitusion səlahiyyətləri, Milli Məclisin qanunvericilik funksiyaları, məhkəmə hakimiyyətinin müstəqilliyi, yerli özünüidarəetmə institutlarının təsbit edilməsi – bütün bunlar demokratik siyasi sistemin struktur dayaqlarını formalaşdırır. Eyni zamanda, Konstitusiya cəmiyyətin inkişaf dinamikasını tənzimləyən əsas mexanizmlərdən biri kimi vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə hüquqi zəmin yaradır. Qeyri-hökumət təşkilatlarının fəaliyyəti, mülkiyyət münasibətlərinin qorunması, söz və ifadə azadlığı, sərbəst toplaşma hüququ kimi fundamental prinsiplər demokratik məkanda vətəndaş təşəbbüslərinin genişlənməsinə şərait yaradır.

Suverenlik anlayışı isə siyasi elm və hüquq nəzəriyyəsinin əsas kateqoriyalarından biri kimi dövlətçilik konsepsiyasının mahiyyətini müəyyən edən fundamental prinsipdir. Elmi ədəbiyyatda suverenlik adətən iki əsas istiqamətdə təhlil edilir: xalq suverenliyi və dövlət suverenliyi. Bu iki anlayış həm nəzəri, həm də praktik baxımdan sıx bağlı olmaqla bir-birini tamamlayır. Azərbaycan Respublikasında suverenliyin bu dual xarakteri Konstitusiyada və dövlət idarəçiliyinin müasir praktikası çərçivəsində özünün parlaq ifadəsini tapmışdır. Xüsusilə 2020-ci ilin 44 günlük Vətən müharibəsi xalq və dövlət suverenliyinin real gücünü nümayiş etdirən tarixi-siyasi hadisə olmuşdur. Konstitusion hüquqda xalq suverenliyi prinsipi dövlət hakimiyyətinin yeganə mənbəyinin məhz xalq olduğunu təsbit edir. Azərbaycan Respublikası Konstitusiyasının 2-ci maddəsində bu prinsip normativ şəkildə ifadə olunmuşdur. Belə ki, xalq suverenliyi xalqın öz taleyini müəyyən etməsi, dövlətin idarə olunmasında iştirak etməsi, siyasi hakimiyyətin formalaşdırılmasında həlledici rol oynaması, dövlət qurumlarının fəaliyyətinə nəzarət etmək hüququnu həyata keçirməsi kimi fundamental demokratik dəyərləri ifadə edir.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və düşünülmüş siyasəti, Azərbaycanın professional ordusunun gücü və xalqın sarsılmaz birliyi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi və beynəlxalq hüquqa uyğun olaraq suverenliyini tam təmin edə bildi. Bu tarixi qələbə suverenlik prinsipinin yalnız nəzəri deyil, həm də praktik gücünü nümayiş etdirdi. 10 noyabr 2020-ci il tarixində Ermənistan tərəfi kapitulyasiya aktını imzalayaraq məğlubiyyətini qəbul etdi. Bu sənəd Azərbaycanın öz qanuni suveren hüquqlarını bərpa etdiyi faktını beynəlxalq səviyyədə rəsmiləşdirdi. 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilmiş Zəfər paradı Azərbaycan xalqının və dövlətinin əldə etdiyi tarixi uğurun simvolik təsdiqi oldu. Azərbaycanın XXI əsrdə ilk Zəfər paradını keçirən dövlət kimi dünya tarixində yer alması suveren dövlətin milli gücünü və siyasi iradəsini nümayiş etdirən beynəlxalq əhəmiyyətli hadisə idi. Zəfər paradı milli birliyin təntənəsini, dövlət suverenliyinin reallığını, xalq suverenliyinin siyasi təzahürünü, Azərbaycan Ordusunun güclü hərbi-siyasi potensialını bütün dünyaya göstərdi. Müzəffər Ali Baş Komandanın 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Bayrağını qaldırarkən dediyi sözlər yüzilliklər boyu azərbaycanlı qanı daşıyan hər kəsin dillər əzbəri olacaq: "Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

2020-ci ildə ərazi bütövlüyünün böyük hissəsinin bərpa edilməsi suverenlik hüququnun praktiki təsdiqi kimi dövlətin beynəlxalq hüquq çərçivəsində mövqeyini gücləndirmiş və Konstitusiyanın ərazi bütövlüyü ilə bağlı müddəalarının real həyata keçirilməsinə zəmin yaratmışdır. Suverenlik hakimiyyətin formalaşması və legitimliyi ilə də sıx bağlıdır, çünki dövlətin müstəqilliyi yalnız coğrafi ərazi ilə deyil, həm də xalqın iradəsinə əsaslanan siyasi sistemlə ölçülür.

Azərbaycan Konstitusiyasına görə, hakimiyyətin yeganə sahibi xalqdır və qanunvericilik, icra və məhkəmə hakimiyyəti bu iradənin müxtəlif formalar üzrə həyata keçirilməsini təmin edən mexanizmlər kimi fəaliyyət göstərir, beləliklə, suverenlik hüquqi baxımdan bölünməz, siyasi baxımdan isə demokratik legitimliklə möhkəmlənmiş olur. Suverenliyin mühüm tərkib hissələrindən biri də iqtisadi müstəqillikdir və Azərbaycan öz təbii sərvətlərinə, enerji resurslarına və iqtisadi qərarvermə mexanizmlərinə tam nəzarət etməklə iqtisadi suverenliyini təmin edir, bu da ölkənin regional və qlobal miqyasda müstəqil iqtisadi tərəf kimi çıxış etməsinə imkan verir.

Azərbaycanın beynəlxalq hüquq sistemindəki mövqeyi də suverenlik prinsipinə əsaslanır və ölkə beynəlxalq münasibətlərdə bərabərhüquqlu subyekt kimi çıxış etməklə daxili işlərinə hər hansı müdaxiləni qəbul etmir, dövlətlərin bərabərliyi, sərhədlərin toxunulmazlığı, əməkdaşlıq və qarşılıqlı hörmət prinsiplərini öz xarici siyasətinin əsas xəttinə çevirir. Azərbaycan həm BMT, Avropa Şurası, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq qurumlarda fəal iştirak etməklə suverenlik prinsipini qlobal səviyyədə müdafiə edir, həm də regional təhlükəsizlik proseslərində iştirak etməklə suveren dövlət kimi öz mövqeyini möhkəmləndirir.

Suverenlik, eyni zamanda, vətəndaşların fundamental hüquq və azadlıqlarının təminatı ilə tamamlanır, çünki xalqın iradəsinə əsaslanan dövlət insan hüquqlarının təminatına əsaslanmalıdır və Konstitusiyanın ikinci bölməsi insan hüquqlarını suveren dövlətin təməl funksiyası kimi müəyyən etməklə dövlət–vətəndaş münasibətlərinə demokratik xarakter verir. Bütün bu amillərin fonunda Azərbaycan Respublikasında suverenlik yalnız hüquqi norma deyil, həm də milli kimlik, dövlətçilik iradəsi, siyasi qərarvermə səlahiyyəti və iqtisadi müstəqillik prinsipləri üzərində formalaşan kompleks dövlət konsepsiyasıdır və bu konsepsiya müasir dövrdə ölkənin uzunmüddətli inkişafını təmin edən əsas strateji dayaqlardan biri kimi çıxış edir. Müstəqillikdən sonrakı dövrdə qəbul edilən strateji qərarlar, həyata keçirilən institusional islahatlar və Konstitusiyanın inkişaf dinamikası suveren dövlətçiliyin uzunmüddətli davamlılığını təmin edən əsas sütunlara çevrilmişdir. Bu gün Azərbaycan xalqı milli-mənəvi dəyərlərinə, həmrəyliyinə, humanizmə, ədalətə və qanunun aliliyi prinsiplərinə əsaslanan müstəqil və suveren dövlətə sahibdir.

*Könül ƏLƏSGƏROVA,*
*Samux rayon prokuroru,*
*kiçik ədliyyə müşaviri*

*Amnistiya aktı icra edilir*

# Dövlət humanizmi və vətəndaş məmnunluğu

**Amnistiya dövlətin humanizm siyasətinin əsas təzahürlərindən biridir. Bu institut müəyyən dövrlərdə sosial ədalətin bərpasına, cəza siyasətinin yumşaldılmasına, məhkumların islah olunaraq yenidən cəmiyyətə qaytarılmasına xidmət edir. Amnistiya hüquqi akt olmaqla geniş dairəyə şamil olunur və cinayət hüququ sahəsində xüsusi əhəmiyyət daşıyır.**



Prezident İlham Əliyev tərəfindən "Konstitusiya və Suverenlik İli" çərçivəsində elan olunan növbəti amnistiya aktı humanizm dəyərlərinin ən ali səviyyədə daim diqqətdə saxlanıldığının bariz göstəricisidir. Bu addım böyük humanist təşəbbüs olmaqla yanaşı, ölkənin ictimai-siyasi həyatı üçün də mühüm hadisədir. Belə təşəbbüslər Azərbaycan insanına verilən dəyərin, cəmiyyətdəki birlik və həmrəyliyin qorunmasına göstərilən diqqətin nümunəsidir. Milli həmrəyliyin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl siyasətin davamı kimi qiymətləndirilir. Eyni zamanda, amnistiya aktı dövlətin bağışlamaq iradəsini də ortaya qoyur. Törətdiyi əməldən nəticə çıxaran, peşmançılıq hissi keçirən şəxslər üçün yeni imkan, yeni ümid yaradır, cəmiyyətdə hökm sürən həmrəyliyi, milli birliyi və vahidliyi daha da gücləndirir.

Qeyd edək ki, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində elan olunan bu amnistiya aktı Prezident İlham Əliyevin prezidentlik fəaliyyəti dövründə elan edilmiş analoji təşəbbüslər arasında əhatə dairəsinə görə ən böyüyüdür. Belə bir təşəbbüsün məhz "Konstitusiya və Suverenlik İli"ndə irəli sürülməsi Azərbaycan cəmiyyətinin qarşısında yeni səhifənin açılması deməkdir. Dövlət humanizm nümayiş etdirərək amnistiya layihəsinin əhatə edəcəyi 20 minə yaxın məhkuma bağışlanmaq imkanı yaradır. Bu cür imkanların yaradılması Prezident İlham Əliyevin siyasətində daim prioritet istiqamətlərdən biri olub. Dünəndən etibarən cəzaçəkmə müəssisələrindən məhkumların azad edilməsinə start verilib. Bu, ölkə tarixində ən böyük amnistiya aktı hesab olunur.

Media nümayəndələrinin iştirakı ilə dünən səhər saatlarında 4 saylı cəzaçəkmə müəssisəsində keçirilən tədbirdə çıxış edən **Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin rəis müavini Orxan Qasımov** bildirdi ki, Prezident İlham Əliyevin bu təşəbbüsü onun humanizm və sosial ədalət prinsiplərinə sadiqliyinin növbəti nümunəsidir. Sayca 13-cü olan amnistiya aktı 20 mindən çox şəxsə şamil ediləcək. O vurğuladı ki, humanizm prinsiplərinə sadiqliyin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli liderin rəhbərliyi ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası müasir dövlətçiliyimizin hüquqi təməlini formalaşdırıb. Möhkəm təməl üzərində qurulan dövlət siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla və qətiyyətlə davam etdirilir.

Daha sonra çıxış edən **Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva** qeyd



etdi ki, amnistiya əsasən az ağır və böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş şəxslərə şamil edilir. Bundan əlavə, qadınlar, yetkinlik yaşına çatmayanlar, ahıllar, əlillər və sosial cəhətdən həssas qruplar amnistiya aktlarında xüsusi diqqət mərkəzində saxlanılır. Onun sözlərinə görə, amnistiyanın cəmiyyət üçün müsbət təsirləri çoxdur: bu hüquqi mexanizm penitensiar müəssisələrdə məhkum sayının azalmasına, dövlət xərclərinin optimallaşdırılmasına, məhkumların ailə və cəmiyyətlə əlaqələrinin bərpasına töhfə verir. Eyni zamanda, amnistiya insanlara səhvlərini düzəltmək və yeni həyata başlamaq üçün real fürsət yaradır.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq müdafiəçisi Çingiz Qənizadə** çıxışında Azərbaycan dövlətinin və onun başçısının daim humanizm prinsiplərinə sadiqliyini vurğulayaraq, ötən müddət ərzində 12 amnistiya və 71 əfv təşəbbüsünün həyata keçirildiyini xatırlatdı. O qeyd etdi ki, 1995-ci ildən etibarən qəbul edilən 12 amnistiya aktı 130 mindən artıq şəxsə şamil olunub. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ildə 8 Noyabr – Zəfər Günü münasibətilə elan edilən amnistiya aktı isə 17 mindən artıq şəxsə tətbiq edilib. Ümummilli lider Heydər Əliyev tərəfindən 1995–2003-cü illərdə 32 əfv fərmanı imzalanıb, həmin dövrdə 7 amnistiya aktı qəbul edilib. Prezident İlham Əliyev tərəfindən isə 2003–2025-ci illər ərzində 39 əfv sərəncamı imzalanıb, bu dövrdə 5 amnistiya aktı qəbul edilib. Ümumilikdə, 71 əfv fərmanı və sərəncamla 10 162 məhkum əfv olunub, Prezident İlham Əliyev tərəfindən imzalanmış sərəncamlar isə 7 060 nəfərə şamil edilib. O da vurğulandı ki, Milli Məclisin deputatı olarkən Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2007, 2009, 2013 və 2016-cı illərdə amnistiya aktları qəbul edilib. Bu amnistiya aktı da Prezident İlham Əliyevin ümumbəşəri humanizm dəyərlərinə sadiqliyini əks etdirən mühüm təşəbbüsdür.

Daha sonra amnistiya aktına uyğun olaraq azadlığa qovuşan şəxslərə buraxılış vərəqələri təqdim edildi. Binəqədi Rayon Məhkəməsinin hökmü ilə həbs edilmiş müğənni **Dəniz Əsədova** Prezident, Ali Baş Komandan cənab İlham Əliyevə dərin təşəkkürünü bildirərək qeyd etdi ki, bu humanist



addım sayəsində ailəsinə qovuşub. O vurğuladı ki, Prezident onun cəzasının çəkilməmiş 22 gününü bağışlayıb və digər məhbus qadınların da tezliklə azadlığa qovuşmasını arzuladı.

Üç il müddətinə azadlıqdan məhrum edilərək dəmir barmaqlıqlar arxasında cəza çəkən **Əfsanə Cəfərova** da cəzasının çəkil-



məmiş 10 ayından azad edilib. Onun sevincinin həddi-hüdudu yox idi. Əfsanə bu hadisəni özü üçün ikiqat bayram adlandıraraq sevinc göz yaşları ilə hisslərini ifadə etdi. Bildirdi ki, bağışlanmaq gələcəkdə eyni səhvləri təkrarlamamağa ciddi motivasiya yaradır. O, dövlət başçısına, onun xanımına və ailəsinə dərin minnətdarlığını ifadə etdi. Xüsusilə qadın, ana və bacı üçün məhbus həyatının çox ağır olduğunu vurğulayan Əfsanə Cəfərova qeyd etdi ki, bu cür hallar Azərbaycan qadınına yaraşmır. İnsanların çalışmalı olduqlarını, sonradan peşman olacaqları səhvlərə yol verməmələrini tövsiyə etdi. Təəssüf hissi ilə bildirdi ki, Azərbaycan qadınına məhbəs ömrü yaraşmır və valideynlər övladlarını bu yoldan qorumağa xüsusi diqqət yetirməlidirlər.

Növbəti icra prosesi Bakı İstintaq Təcridxanasında həyata keçirilib. Təcridxanada cəza çəkən 12 məhkum, yetkinlik yaşına çatmayanlar üçün penitensiar müəssisədə isə 3 məhkum azadlığa buraxılıb.

7 saylı Məntəqə Tipli Cəzaçəkmə Müəssisəsinin qarşısında isə əsl izdiham yaşanırdı. Bu müəssisədən 20 nəfər azadlığa çıxıb. Azadlığına qovuşan **Habil Tağıyev** sevincini belə ifadə etdi: "Cənab Prezident bizə ən şi-



rin neməti bəxş etdi, ailəmizi sevindirdi. Yeni il bayramını ailəm və qohumlarımla birlikdə keçirmək imkanı yaratdı. Çalışacağıq ki, bundan sonra heç bir səhvə yol verməyək. Burada cəza çəkənlərin hamısı peşman olduqlarını bildirirlər. Allah bu taleyi heç kimə yaşatmasın". O, cəza çəkdiyi bir il ərzində çoxlu dost və qardaş qazandığını, buradakı məhbus yoldaşlarının ona olan münasibətini heç vaxt unutmayacağını kövrələrək dilə gətirdi və bir daha bu mühitə qayıtmaq istəmədiyini qeyd etdi.

İcrası davam edəcək amnistiya aktı minlərlə ailəyə sevinc, səadət və xoşbəxtlik bəxş edəcək. Şübhəsiz ki, bundan böyük hədiyyə, insan ömrünə veriləbiləcək daha dəyərli sovqat ola bilməz.

*Müşfiq MİRZƏ*
*XQ*

# Siyasi anlaşmanın hüquqi təsdiqi

(əvvəli 1-ci səhifədə)

İmzalanan Anlaşma Memorandumu, mahiyyət etibarilə, iki dövlət arasında vətəndaşların hüquqlarının qorunması, hüquqi yardımın göstərilməsi və konsulluq xidmətlərinin səmərəliliyinin artırılması kimi vacib məsələləri əhatə etsə də, onun siyasi yükü daha ağırdır. Konsulluq əlaqələri, dövlətlərarası münasibətlərin ən praqmatik və insan mərkəzli sahəsidir. Bu sahədə əməkdaşlığın dərinləşdirilməsi tərəflər arasındakı qarşılıqlı etimadın yüksək səviyyədə olduğuna dəlalət edir. Xarici işlər naziri Ceyhun Bayramovun qeyd etdiyi kimi, hazırda iki ölkə arasında müxtəlif sahələri əhatə edən iyirmi iki saziş mövcuddur. Bu hüquqi baza münasibətlərin təsadüfi xarakter daşımadığını, əksinə, illər ərzində formalaşmış möhkəm təmələ əsaslandığını sübut edir. Mövcud sənədlər toplusu siyasi dialoqun davamlılığını və tərəflərin bir-birinə olan strateji marağını əks etdirir.

Monteneqro Balkan regionunun kiçik, lakin strateji əhəmiyyətə malik dövləti olaraq, Azərbaycan üçün Avropanın cənub-şərq cinahında etibarlı tərəfdaş rolunu oynayır. Rəsmi Podqoritsanın xarici siyasətində Azərbaycanla əlaqələrin xüsusi yer tutması Ervin İbrahimoviçin Bakıya səfəri və keçirilən yüksəksəviyyəli görüşlərlə bir daha təsdiqini tapdı. İmzalanmış memorandumun gələcək əməkdaşlıq üçün geniş imkanlar yaratdığını vurğulayan yüksək qonaq sənədin, sadəcə, konsulluq məsələləri ilə məhdudlaşmadığını, həm də siyasi yaxınlaşma üçün yeni platforma rolunu oynayacağını diqqətə çatdırdı. Siyasi dialoqun intensivləşməsi iki ölkə arasındakı münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinə zəmin yaradır.



Görüş zamanı diqqətçəkən mühüm məqamlardan biri, şübhəsiz ki, Monteneqronun Şimali Atlantika Müqaviləsi Təşkilatına (NATO) üzvlüyü amili və bu kontekstdə aparılan müzakirələr oldu. Ceyhun Bayramovun bu məqamı xüsusi vurğulaması Azərbaycanın xarici siyasətində Avro-Atlantik məkana inteqrasiya və təhlükəsizlik əməkdaşlığı məsələlərinin aktuallığını qoruduğunu göstərir. Monteneqro NATO üzvü olaraq, Alyansın qərarlarının qəbulunda iştirak edir və Balkan regionunda Qərbin təhlükəsizlik arxitekturasının mühüm elementidir. Azərbaycanın Monteneqro ilə sıx siyasi dialoqu, dolayısı ilə rəsmi Bakının NATO ilə tərəfdaşlıq əlaqələrinin dərinləşməsinə və Alyansın cənub qanadında mövqelərinin möhkəmlənməsinə xidmət edir. Təhlükəsizlik sahəsində fikir mübadiləsi müasir dövrün çağırışlarına, o cümlədən hibrid təhdidlərə, terrorizmə və regional münaqişələrə qarşı birgə mübarizə imkanlarının nəzərdən keçirilməsini ehtiva edir. Azərbaycanın Qoşulmama Hərəkatının fəal üzvü olmasına baxmayaraq, NATO ölkələri ilə ikitərəfli formatda qurduğu strateji əlaqələr ölkənin balanslaşdırılmış və milli maraqlara söykənən xarici siyasətinin uğurudur.

Konsulluq sahəsində imzalanan sənəd, həm də "yumşaq güc" diplomatiyasının tərkib hissəsidir. Vətəndaşların sərbəst hərəkətinin asanlaşdırılması, hüquqi prosedurların sadələşdirilməsi və fövqəladə hallarda operativ yardımın göstərilməsi xalqlararası təmasların artmasına gətirib çıxarır. İnsan amilinin ön plana çəkilməsi dövlətlərarası münasibətlərin sosial bazasını gücləndirir. Siyasi elitalar arasındakı anlaşma cəmiyyətlər arasındakı əlaqələrlə dəstəkləndikdə daha dayanıqlı və uzunömürlü olur. Azərbaycan və Monteneqro arasında vizasız gediş-gəliş rejiminin tətbiqi və ya sadələşdirilməsi istiqamətində atılan addımlar, turizm və mədəniyyət sahəsindəki əlaqələrdən daha çox, siyasi etimadın göstəricisidir.

Şərqi Avropa və Balkan istiqaməti Azərbaycanın xarici siyasətində prioritet vektorlardan biri kimi getdikcə daha çox aktuallaşır. Rəsmi Bakı Avropa İttifaqının və NATO-nun genişlənmə strategiyasında mühüm yer tutan Balkan regionu ilə əlaqələri gücləndirməklə qitənin siyasi həyatında daha fəal rol oynamağı hədəfləyir. Monteneqro ilə yanaşı, Serbiya, Bosniya və Herseqovina, Albaniya və Xorvatiya ilə inkişaf edən münasibətlər Azərbaycanın Balkanlarda formalaşdırdığı "dostluq kəməri"nin halqalarıdır. Bu strategiya Azərbaycanın Avropa məkanında siyasi tərəfdaş və təhlükəsizlik donoru kimi qəbul edilməsinə şərait yaradır.

Azərbaycanın Şərqi Avropa siyasətində Monteneqronun rolu, həm də bu ölkənin Avropa İttifaqına namizəd statusu ilə bağlıdır. Aİ-yə inteqrasiya yolunda irəliləyən Monteneqro gələcəkdə Azərbaycanın Brüssel ilə münasibətlərində əlavə dəstək nöqtəsi ola bilər. Eyni zamanda, Azərbaycanın Balkanlardakı təcrübəsi və diplomatik resursları Monteneqronun regiondakı problemlərinin həllində və sabitliyin təmin olunmasında faydalı olan amillərdəndir. Tərəflər arasındakı siyasi məsləhətləşmələr, regional təhlükəsizlik, münaqişələrin həlli və sülh quruculuğu sahəsində təcrübə mübadiləsini də ehtiva edə bilər.

Azərbaycan-Monteneqro münasibətlərinin inkişafı, Cənubi Qafqaz və Balkan regionları arasındakı geosiyasi körpünün möhkəmlənməsi deməkdir. Hər iki region böyük güclərin maraqlarının kəsişdiyi, etnik və siyasi mürəkkəbliyin yüksək olduğu məkanlardır. Həmin regionların dövlətləri arasında birbaşa dialoqun və əməkdaşlığın qurulması, xarici müdaxilələrin təsirini azaltmaq və regional sahiblik prinsipini gücləndirmək baxımından həyati əhəmiyyət kəsb edir. Bakı və Podqoritsa məhz belə müstəqil və suveren siyasət kursunun tərəfdarları kimi çıxış edirlər.

Bakıda imzalanan Anlaşma Memorandumu və nazirlər arasında keçirilən görüş Azərbaycan və Monteneqro arasındakı münasibətlərin institusional və strateji məzmun kəsb etdiyini göstərir. Sənəd siyasi iradənin hüquqi müstəvidə təsbit olunması və gələcək nəsillər üçün möhkəm əməkdaşlıq bazasının yaradılmasıdır. Azərbaycanın Şərqi Avropa istiqamətindəki perspektivləri, Monteneqro kimi etibarlı tərəfdaşlarla qurulan əlaqələr sayəsində daha da genişlənir və ölkəmizin beynəlxalq nüfuzunu artırır. Bu proses, Azərbaycan diplomatiyasının uğuru və Prezident İlham Əliyevin uzaqgörən xarici siyasət strategiyasının növbəti təntənəsidir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Azərbaycan – ABŞ strateji tərəfdaşlığına start verilir

**Dekabrın 19-da Azərbaycan və ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə işçi qrupunun ilk görüşü regionda geosiyasi oyun qaydalarını müəyyənləşdirə biləcək yeni mərhələ sayıla bilər.**



Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması Azərbaycan–ABŞ münasibətlərində praktik icra mexanizmlərinə yönəlmiş yeni mərhələni təsdiqləyir. Tarixi perspektivə baxdıqda, iki ölkə arasındakı diplomatik əlaqələr 1992-ci ildən mövcuddur və bu illər ərzində əməkdaşlıq əsasən ikitərəfli, konkret layihələr üzərində qurulub. Lakin Strateji Xartiya münasibətləri uzunmüddətli strateji çərçivəyə oturtmaqla onların proaktiv xarakter almasını təmin edir.

Xartiyanın iqtisadi və enerji komponentləri, xüsusilə Azərbaycanın Avropaya neft və qaz ixrac imkanlarını artırmaq və enerji tranzit marşrutlarını diversifikasiya etmək səyləri ABŞ-ın Avropanın enerji təhlükəsizliyi strategiyası ilə üst-üstə düşür. Belə bir sinerji iqtisadi və geosiyasi əhəmiyyət daşıyır: Azərbaycan regionda etibarlı tərəfdaş və enerji təhlükəsizliyinin təminatçısı kimi mövqeyini gücləndirir, ABŞ isə strateji maraqlarını qoruyaraq Cənubi Qafqazda uzunmüddətli sabitlik üçün platforma yaradır.

Müdafiə və təhlükəsizlik sahəsində isə Xartiyanın rolu daha stratejidir. Terrora qarşı mübarizə, birgə təlimlər və kəşfiyyat məlumatlarının paylaşılması, regionda balansı qorumaqla yanaşı, Azərbaycanın beynəlxalq təhlükəsizlik gündəliyində aktiv iştirakına imkan yaradır.

*

Bəs Strateji İşçi Qrupunun fəaliyyəti hansı sahələrdə konkret nəticələrə yol aça bilər? Dekabrın 19-da keçirilən Strateji İşçi Qrupunun iclasında Azərbaycan tərəfdən xarici işlər nazirinin müavini Elnur Məmmədov, ABŞ tərəfdən isə Dövlət katibi köməkçisinin müavini Sonata Koulter rəhbərlik etmişdir. İclas çərçivəsində Avqustun 8-də Vaşinqton Sülh Sammiti zamanı imzalanmış Anlaşma Memorandumunda müəyyən edilmiş prioritet sahələr – enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılar, süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayə, eləcə də müdafiə, təhlükəsizlik və terrorla mübarizə – diqqət mərkəzində olub.

Siyasi analiz baxımından, İşçi Qrupunun fəaliyyəti bir neçə əsas istiqamətdə konkret və ölçüləbilən nəticələrə yol açır. Enerji və tranzit sahəsində aparılan müzakirələr Azərbaycanın regional geosiyasi rolunu gücləndirməklə yanaşı, Avropanın enerji təhlükəsizliyi və ABŞ-ın strateji maraqlarına töhfə verir. Azərbaycan üçün bu amil enerji ixracının diversifikasiyası və tranzit marşrutlarının genişləndirilməsi ilə regional nüfuzun artırılması deməkdirsə, ABŞ üçün strateji tərəfdaşlıq platformasının möhkəmlənməsi və Cənubi Qafqazda sabitliyin təminatı anlamına gəlir. İqtisadi sərmayə və rəqəmsal infrastruktur sahəsində əməkdaşlıq isə Azərbaycanın innovasiya potensialını artırmaqla yanaşı, ABŞ üçün də etibarlı və dayanıqlı tərəfdaş modelini təsdiqləyir. Süni intellekt texnologiyalarının tətbiqi, rəqəmsal iqtisadiyyatın inkişafı və dövlət idarəçiliyinin modernləşdirilməsi baxımından strateji əhəmiyyət kəsb edir, eyni zamanda, regionda yeni texnoloji ekosistemin formalaşmasına imkan yaradır. Belə bir əməkdaşlıq forması hər iki tərəf üçün, təbii ki, həm iqtisadi, həm də geosiyasi dividendlər yaradır, tərəflərin qarşılıqlı maraqlarını konkret layihələr üzərində realizə edir.

Müdafiə və təhlükəsizlik sahəsində İşçi Qrupunun rolu strateji və praktiki xarakter daşıyır. Birgə təlimlər, kəşfiyyat məlumatlarının paylaşılması və terrora qarşı koordinasiya regionda daha dayanıqlı təhlükəsizlik mühitinin yaradılmasına xidmət edir. İkitərəfli əməkdaşlıq Azərbaycanın beynəlxalq təhlükəsizlik gündəliyində aktiv iştirakını gücləndirməklə, potensial gərginliklərin idarə edilməsinə və geosiyasi balansın qorunmasına töhfə verir.

Bütün bunlar göstərir ki, Strateji İşçi Qrupunun iclasları Strateji Tərəfdaşlıq Xartiyasının praktik icra mexanizmlərini formalaşdırmaq və tərəflərin qarşılıqlı faydalı əməkdaşlığı operativ və davamlı şəkildə həyata keçirmək üçün vacib platformadır.

Azərbaycan–ABŞ strateji tərəfdaşlığı Cənubi Qafqaz və qlobal geosiyasi səhnədə dərin təsirə malik əməkdaşlıq modelidir. Region baxımından, bu tərəfdaşlıq Cənubi Qafqazın sabitliyinə və təhlükəsizliyinə birbaşa töhfə verir. Azərbaycanın strateji mövqeyi həm enerji tranziti, həm də regional təhlükəsizlik kontekstində mühüm rol oynayır. Azərbaycanın Avropaya enerji ixracı, xüsusilə TANAP (Trans-Anadolu Təbii Qaz Boru Kəməri) və TAP (Trans-Adriatik Boru Kəməri) layihələri vasitəsilə ABŞ-ın Avropanın enerji diversifikasiyası strategiyası ilə üst-üstə düşür. ABŞ-la qurulan əməkdaşlıq isə bu mövqeyin daha etibarlı və uzunmüddətli olmasını təmin edir.

Müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq da eyni dərəcədə əhəmiyyətlidir. Birgə təlimlər, kəşfiyyat məlumatlarının paylaşılması və terrora qarşı koordinasiya Cənubi Qafqazda potensial gərginliklərin qarşısını almağa xidmət edir. Məsələn, regionda həm Rusiya, həm İran, həm də Türkiyə kimi güclü aktorların mövcudluğu Azərbaycanın çevik və balanslaşdırılmış strategiyasını tələb edir; ABŞ-la tərəfdaşlıq isə bu balansın qorunmasını təmin edən etibarlı



mexanizm rolunu oynayır.

Eyni zamanda, strateji tərəfdaşlıq Azərbaycanın qlobal səhnədə siyasi çəkisini artırır və beynəlxalq proseslərdə aktiv iştirakını təmin edir. ABŞ-la əməkdaşlıq Azərbaycanın diplomatik imkanlarını gücləndirir, texnoloji və müdafiə sahələrində qlobal standartlara inteqrasiyasını sürətləndirir və ölkənin beynəlxalq forumlarda səsi və nüfuzunu daha güclü şəkildə ifadə etməsinə şərait yaradır. Qeyd etməliyik ki, ABŞ beynəlxalq sistemdə çoxqütblülüyün əsas aktorlarından biri olaraq, Qərb blokunda həlledici statusa malikdir. ABŞ-ın BMT, NATO, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və digər qlobal qurumlarda təsir imkanları Azərbaycan üçün strateji üstünlüklər yaradır, tərəfdaşlığın həm diplomatik, həm də iqtisadi və təhlükəsizlik baxımından səmərəliliyini artırır.

Regional geosiyasi balans baxımından, Azərbaycan–ABŞ strateji tərəfdaşlığı Cənubi Qafqazdakı digər aparıcı aktorların davranışlarına birbaşa təsir göstərir. Rusiya üçün bu əməkdaşlıq, bölgədə ABŞ-ın mövqeyinin güclənməsi deməkdir və Moskvanın hərbi və siyasi strategiyasını buna uyğunlaşdırmasını tələb edir. Təbii ki, bu amil Azərbaycan üçün Rusiya ilə balanslı münasibətləri qoruyaraq tərəfdaşlıqdan gələn strateji dəstəyi effektiv şəkildə istifadə etmək imkanı yaradır.

Türkiyə kontekstində tərəfdaşlıq isə rəsmi Ankara üçün Azərbaycanın ABŞ-la yaxınlaşmasını nəzərə almağa səbəb olur. Azərbaycan Türkiyə ilə ortaq layihələr və diplomatik platformalarda balanslı münasibət quraraq həm tərəfdaşlıqdan, həm də regional həmrəylikdən fayda götürə bilir. İran üçün isə Azərbaycan–ABŞ tərəfdaşlığı regionda ABŞ təsirinin artması anlamına gəlir və Tehranın geosiyasi qərarlarını buna uyğun formalaşdırmasına səbəb olur. Mövcud dinamika Azərbaycanın sərhəd təhlükəsizliyi və diplomatik müstəqilliyini qoruyarkən, eyni zamanda, İrana qarşı mümkün təzyiq və təsirlərin idarə olunmasına imkan yaradır.

Ümumilikdə, Azərbaycan–ABŞ strateji tərəfdaşlığı regionda sabitlik və təhlükəsizlik mexanizmini gücləndirir, Azərbaycanın geosiyasi və iqtisadi rolunu yüksəldir. Tərəfdaşlıq enerji, ticarət və texnologiya sahələrində real nəticələr yaradır və ölkənin uzunmüddətli strateji maraqlarını qoruyur. Eyni zamanda, bu əməkdaşlıq regional oyunçular üçün geosiyasi balans amili kimi çıxış edir və Azərbaycanın beynəlxalq arenada nüfuzunu artırır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Vaşinqtonun Avropa siyasəti Brüsseli niyə qane etmir?



(əvvəli 1-ci səhifədə)

Azərbaycan uzun illər Qərb və Şərq arasında geosiyasi körpü rolunu oynasa da, bu gün artıq körpü olmaqdan əlavə, strukturlaşdırıcı regional güc kimi çıxış edir. Transatlantik gərginliklərin artdığı bir vaxtda rəsmi Bakı həm Vaşinqton, həm Brüssellə münasibətlərini qoruyur, eyni zamanda, milli maraqlarına əsaslanan çoxşaxəli xarici siyasət yürüdür. Bunu anlamaq üçün yaranmış geosiyasi fazanı daha dərin analiz etmək lazımdır. İlk növbədə, qeyd edək ki, Transatlantik münasibətlərdə gərginlik uzun illər mövcud olsa da, son beş il bu uçurumu kəskin şəkildə dərinləşdirdi. ABŞ üçün qlobal texnoloji üstünlüyü qorumaq, müdafiə xərclərini optimallaşdırmaq, enerji bazarlarında təsir dairəsini artırmaq əsas prioritetə çevrilib. Avropa üçün isə ən vacib məsələ yaxın qonşuluqdakı təhlükəsizlik boşluqlarını doldurmaqdır. Daha dəqiq desək, Ukrayna müharibəsi, Balkanlarda gərginlik, Qafqazda dəyişən geosiyasi nizam, miqrasiya dalğaları və iqtisadi durğunluq.

Əvvəllər bu problemlər ABŞ–Avropa münasibətlərində bölüşdürülmüş məsuliyyət prinsipini gücləndirirdisə, indi əksinə, tərəflər arasında qütbləşmə yaradır. Rəsmi Vaşinqton Avropanı kifayət qədər sürətli hərəkət etməməkdə günahlandırır, Brüssel isə ABŞ-ın qlobal liderlik iddiasının Avropa təhlükəsizliyindən kənara çıxdığını düşünür. NATO alyansında son dövrlər müşahidə edilən fikir ayrılıqları da bunun real təsdiqidir. Əgər ilk vaxtlarda NATO-nun missiyası daha çox kollektiv müdafiə idisə, indi hər bir ölkə öz milli təhlükəsizlik doktrinasını alyansın ortaq xəttindən üstün tutur.

Transatlantik münasibətlərin dərinləşən gərginliyi qlobal siyasətin konturlarını yenidən çəkdiyi bir mərhələdə hər bir ölkə üçün həm risk, həm də imkan yaradır. Lakin bu mürəkkəblik içində özünə strategiya qura bilən aktorlar azdır. Rəsmi Bakı prosesdə ideoloji yönləndirmələr əvəzinə, soyuqqanlı rasionalizmə söykənən qiymətləndirmələrə əsaslanır. Ona görə də Avropada baş verən ziddiyyətlərə müdaxilə etmir, qlobal qarşıdurma bloklarından birinə bağlanmağa can atmır və öz milli maraqlarını prioritet edən unikal fəaliyyət trayektoriyası qurur.

ABŞ-la münasibətlərdə bunun ən bariz ifadəsi enerji təhlükəsizliyi və regional sabitlik boyu uzanan praqmatik siyasi xəttdir. Vaşinqton Cənubi Qafqazda rəsmi Bakını sabitliyin mərkəzi kimi qəbul edir. Çünki regionda güc balansının pozulması və ya kommunikasiya xəritəsinin dəyişməsi ABŞ-ın qlobal strategiyasında arzuolunmaz nəticələr doğura bilər. Bu səbəbdən tərəflər arasında yaradılmış qarşılıqlı etimad kanalları, dəyişən geosiyasi vəziyyətə baxmayaraq, açıq qalır və əməkdaşlıq müstəvisini qoruyur. Avropa ilə münasibətlər isə başqa bir strateji qat yaradır. Azərbaycan bu rəqabətli məkanla enerji mübadiləsi ilə yanaşı, nəqliyyat marşrutlarının yenidən xəritələndirilməsi, rəqəmsal transformasiya təşəbbüsləri, "yaşıl enerji" layihələri və təhlükəsizlik arxitekturasının modernləşdirilməsi kimi geniş sahələri əhatə edən əməkdaşlıq qurur. Adını çəkdiyimiz sahələrin hər biri Azərbaycan üçün Avropanın gələcək geosiyasi planlaşdırmasının ayrılmaz elementinə çevrilmək imkanı yaradır. Xüsusən də qitənin Rusiya enerji asılılığından çıxmaq üçün axtardığı dayanıqlı alternativlərin siyahısında Azərbaycan qazı, elektrik enerjisi və logistika infrastrukturu real, praktik həll kimi ön plana çıxır.

Beləliklə, qlobal nizamın yenidən formalaşdığı bir dövrdə Qərb daxilində artan parçalanma, ABŞ və Avropa arasında strateji xəttin müxtəlif istiqamətlərə çəkilməsi bir çox ölkələri çaşqın vəziyyətə salsa da, Azərbaycan bu xaosa məhəl qoymadan balansı qoruya bilən azsaylı dövlətlərdəndir. Enerji, nəqliyyat, regional təhlükəsizlik və diplomatik nüfuz kimi sahələrdə ardıcıllıqla atılan uğurlu addımlar Bakı üçün yeni qlobal rolun əsasını qoyur. Bu rol heç bir güc mərkəzinə birtərəfli bağlı olmayan, əksinə, həmin mərkəzlərin hər biri ilə paralel işləyərək öz maraqlarını təmin edən müstəqil siyasi məkandır. Transatlantik gərginliyin dərinləşdiyi bir zamanda Azərbaycan nə Qərbdən uzaqlaşır, nə də Avropadan. Ölkəmiz öz orbitini qurur. Bu gün dünya yeni bir nizamın başlanğıcında dayanır və bu nizamda ən çox qazananlar real siyasətə üstünlük verən, diplomatiyanın incə mexanizmlərini anlayan, ağıllı balans quran dövlətlər olacaq. Azərbaycan da məhz bu kateqoriyanın bariz nümunələrindən biridir.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Fərhad MƏMMƏDOV,**
**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru**

**Hazırkı beynəlxalq mərhələ onilliklər ərzində formalaşmış hərbi-siyasi blokların ciddi böhran yaşaması ilə səciyyələnir. Uzun müddət qlobal nizamın əsas dayaqları hesab olunan strukturlar artıq əvvəlki funksionallığını və təsir gücünü itirməkdədir. Mövcud tendensiyalar onu göstərir ki, proseslər yaxın illərdə də davam edəcək və qlobal sistemdə qeyri-müəyyənlik daha da artacaq.**

Belə mürəkkəb və dəyişkən şəraitdə Azərbaycan kimi dövlətlər üçün əsas prioritet, ilk növbədə, öz coğrafiyasında sabitliyin təmin olunmasıdır. Bu, həm region daxilində, həm də regiondan kənarda etibarlı mövqe formalaşdırmağın əsas şərtidir. Eyni zamanda, irili-xırdalı bütün qonşu dövlətlərlə konstruktiv, qarşılıqlı hörmətə əsaslanan münasibətlərin qurulması xüsusi əhəmiyyət daşıyır. Paralel olaraq, qlobal güc mərkəzləri ilə münasibətlərin ikitərəfli formatda, praqmatik və balanslaşdırılmış əsasda inkişaf etdirilməsi zəruridir.

Məhz bu yanaşma dövlətlərə dəyişən beynəlxalq mühitdə manevr imkanlarını qorumağa imkan verir. Həmin istiqamətdə Azərbaycan, faktiki olaraq, nümunəvi xarici siyasət modeli formalaşdırıb. Azərbaycan modeli göstərir ki, qütbləşən dünyada balanslaşdırılmış iştirak daha dayanıqlı nəticə verir. Bu baxımdan, Azərbaycanın xarici siyasəti dəyişən beynəlxalq sistemdə diqqətlə izlənən bir presedentə çevrilib.

# Türkiyə ilə qardaşlığın müdafiə sipəri

## *Hərbi təhlükəsizlik sahəsində Anlaşma Memorandumu hüquqi status aldı*

**"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu"nun ötən həftə Milli Məclisdə təsdiqlənməsi mahiyyət etibarilə iki dövlətin təhlükəsizlik doktrinalarının daha sıx uzlaşdırılması, risklərin birgə idarə olunması və müdafiə siyasətinin hüquqi mexanizmlər vasitəsilə möhkəmləndirilməsi deməkdir. Sənədin ratifikasiyası onu göstərir ki, Bakı–Ankara xəttində hərbi-strateji tərəfdaşlıq artıq emosional şüarlar müstəvisindən çıxaraq konkret öhdəliklərə, icra mexanizmlərinə və institusional çərçivəyə əsaslanan mərhələyə qədəm qoyur.**



Xatırladaq ki, Anlaşma Memorandumu bu il iyulun 22-də İstanbulda iki qardaş ölkənin müdafiə nazirləri tərəfindən imzalanıb. Memorandumun siyasi-fəlsəfi xətti Şuşa Bəyannaməsində təsbit olunmuş müttəfiqlik konsepsiyasının praktik müstəviyə daşınmasına hesablanıb. Sənəd Azərbaycan–Türkiyə münasibətlərini ən yüksək siyasi səviyyədə müttəfiqlik formatında rəsmiləşdirən strateji sənəd kimi çıxış edir və müdafiə-təhlükəsizlik sahəsində koordinasiyanın dərinləşdirilməsini dövlətlərarası kursa çevirir. Bu kontekstdə yeni Anlaşma Memorandumu bəyannamə məntiqinin icra alətlərindən biri kimi qiymətləndirilə bilər. Bəyannamə siyasi çərçivəni müəyyən edir, memorandum isə həmin çərçivə daxilində konkret fəaliyyət mexanizmlərini işə salır.

Memorandumda dolayısı ilə 1921-ci ildə imzalanmış Qars Müqaviləsinə istinad edilməsi təsadüfi deyil. Bu müqavilə bir əsr əvvəl bölgədə siyasi sərhədləri və ümumi təhlükəsizlik konturlarını müəyyənləşdirsə də, Qarabağ məsələsi həmin mərhələdə ayrıca hüquqi müstəviyə çıxarılmamışdı. 2020-ci ildən sonra yaranmış yeni regional reallıq bu mövzunu artıq mübahisə predmeti yox, fakt kimi gündəmə gətirdi. Şuşa Bəyannaməsi Azərbaycan–Türkiyə münasibətlərində tarixi ardıcıllığı bərpa edərək, əvvəlki dövrdə açıq qalmış təhlükəsizlik məsələlərini müasir geosiyasi çərçivədə sistemləşdirdi. Anlaşma Memorandumu isə bu xəttin praktiki davamı kimi çıxış edərək, tarixi-siyasi irsi konkret mexanizmlərlə tamamlayır.

Sənədin ən mühüm hüquqi mesajı BMT Nizamnaməsinin 51-ci maddəsinə istinad üzərindən formalaşdırılıb. Tərəflərdən birinin silahlı təcavüzə məruz qalması halında digər tərəf fərdi və kollektiv özünümüdafiə hüququnun reallaşdırılması məqsədilə qarşılıqlı yardım öhdəliyi götürür. Bu, regional təhlükəsizlik memarlığında deklarativ əməkdaşlıq modelindən hüquqi öhdəliklərə əsaslanan mərhələyə keçidi ifadə edir. Məsələn, bölgədə hər hansı üçüncü tərəfin təxribatı nəticəsində sərhəd boyunca hərbi gərginliyin yaranması və ya strateji infrastrukturun hədəfə alınması ssenarisində tərəflər artıq situasiyanı ayrıca qiymətləndirməyəcək. Memorandum bu cür hallarda təhlükənin miqyasına uyğun olaraq birgə reaksiyanın mexanizmini öncədən müəyyənləşdirir və vaxt itkisini minimuma endirir.

Bununla yanaşı, yardım mexanizmi avtomatik xarakter daşımır. Hərbi dəstəyin göstərilməsi tərəflərdən birinin rəsmi müraciəti əsasında və milli qanunvericiliyin prosedur tələblərinə uyğun şəkildə icra olunur. Bu cür balanslaşdırılmış formul suveren qərarvermə səlahiyyətlərini qoruyur, eyni zamanda, müttəfiqlik münasibətlərinə real məzmun və hüquqi çəki qazandırır.

* * *

Sənəd 8 maddədən ibarətdir və məhz hərbi əməkdaşlıqla hərbi təhlükəsizlik məsələlərini əhatə edir. Memorandumun daha incə və strateji əhəmiyyət daşıyan məqamlarından biri məlumat mübadiləsi və hərbi kəşfiyyat əməkdaşlığına dair müddəalardır. Sənəddə təqdim olunan məzmuna əsasən, tərəflər məxfi, tam məxfi və xüsusi əhəmiyyətli kateqoriyaya aid informasiyanın qarşılıqlı paylaşılmasını mümkün sayır, bu məlumatlardan birgə əməliyyatlar zamanı istifadə imkanını açıq şəkildə nəzərdə tutur. Gün kimi aydındır ki, hazırki dörvrdə aparılan müharibələrin "sinir sistemi" məhz kəşfiyyat məlumatlarıdır. Risklərin erkən aşkarlanması, hədəflərin dəqiq identifikasiyası, qərargah səviyyəsində operativ qərarvermə, hava komponentləri və PUA imkanlarının koordinasiyası məhz informasiya üstünlüyü üzərindən formalaşır.

Azərbaycanla Türkiyə arasında ticarət əlaqələrinin miqyası artıq klassik ixrac–idxal balansı çərçivəsindən çıxaraq strateji sahələri də əhatə edən iqtisadi platformaya çevrilib. Ticarət dövriyyəsinin yüksək dinamikası (bu ilin yanvar-oktyabr ayrlarında 4,77 milyard ABŞ dolları təşkil edib) və Türkiyə mənşəli məhsulların Azərbaycan bazarında sabit mövqeyi göstərir ki, tərəflər arasında formalaşan istehsal, logistika və maliyyə zənciri uzunmüddətli planlamaya əsaslanır. Bu isə müdafiə sənayesi kimi yüksək kapital, texnologiya və koordinasiya tələb edən sahələrdə birgə istehsalın və sənaye kooperasiyasının reallaşması üçün əlverişli institusional və iqtisadi zəmin yaradır.

Müdafiə xəttinin institusional dayanıqlığı büdcə göstəricilərində də özünü açıq şəkildə göstərir. 2026-cı il dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik istiqamətləri üzrə 8,7 milyard manatlıq vəsaitin nəzərdə tutulması hərbi siyasətin prioritetliyini təsdiqləyir. Bu rəqəm silahlı qüvvələrin modernləşdirilməsi, birgə təlimlərin davamlılığı, silahlanma proqramlarının ardıcıl icrası və müdafiə sənayesi layihələrinin maliyyə təminatı baxımından açıq siyasi mesaj daşıyır. Nəticə etibarilə, Anlaşma Memorandumu üçün tələb olunan resurs bazası praktik səviyyədə formalaşdırılır və sənədin formal xarakter daşımasının qarşısı sistemli şəkildə alınır.

Nəticə etibarilə, "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu" iki qardaş ölkə arasında hərbi münasibətləri davamlı hüquqi çərçivəyə salır. Sənəd koordinasiyanı dərinləşdirən, qarşılıqlı öhdəlikləri aydınlaşdıran və müttəfiqlik münasibətlərini beynəlxalq hüququn qəbul etdiyi mexanizmlər üzərindən möhkəmləndirən yeni mərhələnin əsasını qoyur. Memorandum bir tərəfdən Şuşa Bəyannaməsində ifadə olunan müdafiə iradəsini konkret icra alətlərinə çevirir, digər tərəfdən isə təlimlərin planlaşdırılması, kəşfiyyat mübadiləsi, müdafiə sənayesi üzrə əməkdaşlıq və birgə fəaliyyət qabiliyyəti üzrə aydın və ardıcıl təhlükəsizlik məntiqi formalaşdırır.

***Tacir SADIQOV***
***XQ***

# Azərbaycan sülh şərtlərində israrlıdır

## *Ölkəmizin Ermənistana tranzit yolu verməsi Paşinyana siyasi dividend qazandırır*

**Ermənistan daxilində, siyasi cameədə qarşıdurma səngiməyib, parlament seçkiləri öncəsi hakimiyyətə iddialı qüvvələrin fəallaşması müşahidə olunmaqdadır. Bundan başqa, Qarabağı könüllü tərk etmiş ermənilərdən "kart-blanş" yaratmaqla, bunun üzərində manipulyasiya cəhdləri, TRIPP marşrutu ətrafında spekulyativ bəyanat və şərhlər Paşinyan komandasını qarşıda gərgin siyasi mübarizənin və çətin sınaqların gözlədiyindən xəbər verir. Oxucuları maraqlandıran bu və digər məsələlər barədə suallarımızı Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev cavablandırır.**

***– Sizcə, gözlənilən tarixi müqavilə nə zaman imzalana bilər?***

– Sülh sazişinin nə vaxt və harada imzalanacağı barədə heç nə deyə bilmərəm. Çünki hazırda məndə belə bir məlumat yoxdur.

Hesab edirəm ki, bu məsələlər də Ermənistanda gələn ilin iyununda keçiriləcək parlament seçkilərindən sonra öz həllini tapacaq. Yəni 2026-cı ilin iyunundan sonra. Həmin məsələlərin ilk sırasında Ermənistan konstitusiyasında qonşularına qarşı ərazi iddialarını ehtiva edən müddəaların aradan qaldırılması gəlir.

***– Rusiya Xarici İşlər Nazirliyinin rəsmisi Mixail Kaluqin Moskvanın iştirakı olmadan TRIPP layihəsinin reallaşmasının mümkün olmadığını deyib. Bunu Kremlin sülhə mane olmaq cəhdi kimi qiymətləndirmək olarmı?***

– Rusiya Xarici İşlər Nazirliyi rəsmisinin Moskvanın iştirakı olmadan TRIPP layihəsinin reallaşmayacağını deməsi reallığı nəzərə almamaq deməkdir. Hamıya məlumdur ki, artıq TRIPP layihəsinin həyata keçirilməsi prosesi başlayıb. Bu layihədə Rusiyanın iştirak edib-etməyəcəyi onun özünə bağlı məsələdir. Fakt ondan ibarətdir ki, bu marşrutun reallaşması artıq Birləşmiş Ştatlar və Ermənistan arasında olan məsələdir. Bununla yanaşı, Ermənistanla Azərbaycan arasında davam edən sülh prosesinin vacib elementi sayılır.






***– Ermənistan parlamentinin vitse-spikeri Ruben Rubinyanın "İranla maraqlarımız üst-üstə düşür" açıqlamasının altında nə gizlənir: İrəvanın siyasi-diplomatik balansı qoruyub saxlamaq niyyəti, yoxsa müəyyən məqsədlə sülh prosesini uzatmaq istəyi?***

– İranın bu marşruta münasibəti məsələsinə gəldikdə, onu görürük ki, Tehran vaxtaşırı özünün narahatlığını bildirir. Doğrudur, rəsmi İrəvanın buna cavab olaraq bildirib ki, TRIPP layihəsi Ermənistan və ABŞ arasındakı məsələlər kateqoriyasına daxildir. Amma o da sirr deyil ki, İran və Ermənistan arasında uzun illər dostluq münasibətləri mövcud olub. Elə indi də bu müasibətlərdə hər hansı dəyişiklik müşahidə olunmur. Bunun nə zaman və hansı mərhələdə baş verəcəyini söyləmək də çətindir.

***– Ermənistanda gələn ilin iyun ayına planlaşdırılan parlament seçkiləri yekun sülh sazişinin bağlanmasına hansı formada və necə təsir göstərə bilər?***

– Parlament seçkilərinə qədər sülh müqaviləsinin imzalanması ağlabatan görünmür. Biz hazırda sülh prosesinin ətrafında cərəyan edən hadisələri də görürük. Azərbaycan artıq Ermənistana tranzit xətti verib, müxtəlif təyinatlı yüklərin daşınması həyata keçirilir. Yəni kommunikasiyaların qarşılıqlı açılması istiqamətində real addımlar atılır. Bu qərarlar sülh prosesinə həm siyasi, həm də iqtisadi cəhətdən dəstəyin verilməsi deməkdir. Həm də Paşinyanın əlini möhkənləndirir, ona müəyyən dərəcədə siyasi dividend qazandırır. Amma yekun sülh sazişinin imzalanması Azərbaycanın konkret tələblərinin yerinə yetirilməsindən sonra mümkündür.

***– Fərid müəllim, sülhə aparan yolda süni şəkildə qarşıya çıxarılan maneələri dəf etmək üçün Bakı diplomatik arsenalına daha nələri daxil etməlidir?***

– Bakı qarşıya çıxan və ehtimal edilən bütün məsələləri diplomatik yolla həll etməyə çalışacaq. Bu baxımdan qeyd etmək yerinə düşər ki, Ermənistanla Brüssel arasında imzalanmış məlum sənəd Azərbaycanı ciddi narahat edir. Bununla bağlı rəsmi Bakı Avropa İttifaqına öz etirazını çatdırıb.

Yeri gəlmişkən, onu da qeyd etməyi vacib sayıram ki, 8 avqust Vaşinqton görüşü Cənubi Qafqazda vahid sülh, əməkdaşlıq, təhlükəsizlik platformasının yaranmasına töhfə verir. Ermənistan – Azərbaycan münasibətlərinin normallaşması istiqamətində addımlar atılır, sülh sazişi layihəsi paraflanıb. Birinci sualınıza qayıdaraq deyim ki, biz Ermənistanda konstitusiya dəyişikliyindən sonra sülh sazişinin imzalanacağına ümid edirik.

Artıq məlumdur ki, ATƏT-in Minsk qrupu ləğv edilib. 8 avqust görüşü həm də Azərbaycan-ABŞ əməkdaşlığı üçün yeni imkanlar açır. ABŞ Konqresinin "Azadlığa dəstək aktı"na 907 saylı düzəliş artıq ləğv edilib. Tərəflər Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması haqqında razılığa gəliblər. Bu günlərdə ikitərəfli işçi qrupunun onlayn ilk iclası da keçirildi. Son 30 il ərzində bizim əməkdaşlığımız əsasən enerji sahəsində olub. İndi isə digər sahələrdə də tərəfdaşlıq perspektivləri var.

***Hazırladı:***
***İmran BƏDİRXANLI***
***XQ***

# Sülhə etimad qapısı açılır

## *Bakı–İrəvan enerji əməkdaşlığı gələcəyin iqtisadi təməlini qoyur*

**Son 35 ildə ilk dəfə olaraq Azərbaycandan Ermənistana neft məhsullarının tədarük edilməsi regionda, eləcə də bölgədən kənarda diqqətlə izlənilən və təsadüfi sayılması mümkün olmayan bir hadisədir. Dekabrın 18-də 22 yanacaq çəninə yüklənmiş 1220 ton Aİ-95 markalı benzinin Ermənistana çatdırılması uzun müddət bağlı qalmış bir qapının ehtiyatla, amma şüurlu şəkildə açıldığını göstərdi. Bu addım təkcə iqtisadi mahiyyət daşımır, eyni zamanda siyasi və psixoloji baxımdan da mühüm mesajdır.**



Xatırlatmaq yerinə düşər ki, bu, Azərbaycan üzərindən həyata keçirilən ilk tədarük əməliyyatı deyil. Bundan əvvəl Qazaxıstan və Rusiyaya məxsus buğda yükləri də ölkəmizin dəmir yolları vasitəsilə Ermənistana çatdırılmışdı. Həmin daşımalar tranzit mexanizmlərinin texniki və təhlükəsiz şəkildə işlək olduğunu nümayiş etdirdi. Proses heç bir insident olmadan başa çatdı və tərəflər arasında praktik əməkdaşlıq imkanlarının mövcudluğunu göstərdi. Bu fakt bir daha sübut etdi ki, regional nəqliyyat və logistika xətləri siyasi iradə olduqda effektiv şəkildə istifadə oluna bilər. Taxıl tədarükünün həyata keçirilməsi ilk addım olmaqla, tərəflər arasında praktiki əməkdaşlığın mümkünlüyü təsdiqlədi. Sözügedən təcrübə sonradan digər yük növlərinin daşınması üçün də zəmin formalaşdırdı. Məhz bu ardıcıllıq bugünkü neft məhsulları tədarükünü əvvəlki addımların məntiqi davamı kimi dəyərləndirməyə imkan verir.

Əlbəttə, uzun illər Azərbaycan torpaqlarını işğal altında saxlamış, müharibədən sonra da bir-birinə etimadsızlıq fonunda yaşayan iki ölkə üçün yanacaq kimi strateji materialın tədarükünün başlaması asan qərar deyil. Müharibələr, itkilər, bunun nəticəsində formalaşmış ağrılı yaddaş fonunda atılan hər addım cəmiyyətlərin diqqət mərkəzinə düşür. Bakının sülh qapısını açmağa yönəlik bu addımı real irəliləyişin mümkünlüyünü göstərir. Azərbaycanın atdığı bu addım da regionda sabitlik və qarşılıqlı fayda prinsipinə söykənən yanaşmanın üstün tutulduğunu nümayiş etdirir.

Neft məhsullarının Ermənistana göndərilməsi ilk baxışda sırf ticarət əməliyyatı kimi görünə bilər. Ancaq məsələyə bir qədər geniş baxdıqda bu qərarın daha dərin məna daşıdığı aydın olur. Enerji təhlükəsizliyi istənilən ölkə üçün həyati əhəmiyyət daşıyır. Bu baxımdan atılan addım regionda qarşılıqlı etimadın formalaşmasına xidmət edən mühüm mesajdır. Enerji sahəsində əməkdaşlıq siyasi münasibətlərdən asılı olmayaraq uzunmüddətli sabitlik üçün əsas yaradan amillərdən sayılır. Ermənistanın enerji təminatında yaranan boşluqların məhz regional imkanlar hesabına doldurulması daha rasional yanaşma kimi qiymətləndirilir. Bu, eyni zamanda, kənar təsirlərin azalması və bölgədaxili resursların önə çıxması deməkdir. Beləliklə, enerji üzərindən qurulan əlaqələr sülh prosesinin praktiki dayaqlarını gücləndirir. Ermənistanın bu ehtiyacının Azərbaycan tərəfindən qarşılanması uzun illər davam edən qarşıdurmadan sonra yeni reallığın formalaşdığını göstərir. Bu, ölkələrin düşmənçilikdən uzaqlaşıb, rasional maraqların ön plana keçdiyinin daha bir əlamətidir.

***

Dekabrın 21-də Sankt-Peterburqda keçirilən Ali Avrasiya İqtisadi Şurasının iclasında Ermənistanın Baş naziri Nikol Paşinyanın Azərbaycan Prezidentinə minnətdarlıq ifadə etməsi də bu kontekstdə xüsusi diqqət çəkir. Tranzit imkanlarının açılması və ikitərəfli ticarət üçün şərait yaradılması barədə səsləndirilən fikirlər regionun gələcəyinə dair fərqli yanaşmanın formalaşdığını göstərir. Uzun illər sərt ritorika ilə yadda qalan münasibətlərdə bu cür açıq təşəkkür ifadəsi nadir hadisədir. Prosesin daha bir önəmli tərəfi ondan ibarətdir ki, iqtisadi əlaqələr siyasi dialoqun möhkəmlənməsi üçün real zəmin yaradır. Tarix dəfələrlə göstərib ki, ticarət və qarşılıqlı asılılıq münaqişə risklərini azaldır. Çünki tərəflər artıq yalnız siyasi mövqelərlə deyil, konkret iqtisadi maraqlarla da hesablaşmalı olurlar. Bu baxımdan yanacaq tədarükü gələcəkdə daha geniş əməkdaşlıq üçün bir növ sınaq mərhələsi sayıla bilər.

Onu da bildirək ki, Azərbaycan bu addımı atmaqla regional liderliyə xas davranış sərgiləyir. Güc nümayişindən daha çox məsuliyyətli yanaşma seçilir. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, sülh sazişi kağız üzərində qalan sənəd olmamalı, real həyatla, gündəlik münasibətlərlə möhkəmlənməlidir. Məhz bu cür iqtisadi və humanitar addımlar sülhü mücərrəd anlayışdan konkret prosesə çevirir.

Digər tərəfdən, Ermənistan üçün də bu proses özündə mühüm dərsləri ehtiva edir. Uzun illər regiondakı nəqliyyat kommunikasiya xətlərindən kənarda qalmaq ölkə iqtisadiyyatına ciddi zərbə vurub. Alternativlərin məhdudluğu, enerji və nəqliyyat sahəsində asılılıq vəziyyəti İrəvanı yeni yanaşmalara məcbur edir. Azərbaycanla normal münasi bətlərin qurulması Ermənistan üçün təkcə siyasi deyil, həm də sosial-iqtisadi baxımdan çıxış yolu ola bilər.



Cəmiyyətlərin reaksiyası da bu mərhələdə xüsusi əhəmiyyət daşıyır. Müharibə yaddaşı hələ təzədir və emosional yanaşmalar qaçılmazdır. Lakin gündəlik həyatın tələbləri, rifah gözləntiləri zamanla daha rasional mövqelərin formalaşmasına şərait yarada bilər. Yanacağın, ticarətin, tranzitin sülh dili ilə danışması bəzən ən sərt bəyanatlardan daha təsirli olur.

Əlbəttə, bir tədarüklə bütün məsələlərin həll olunacağını düşünmək doğru olmazdı. Qarşıda hələ çox çətin danışıqlar, həssas mövzular, qarşılıqlı etimadın tam bərpası kimi mürəkkəb mərhələlər var. Amma reallıq ondan ibarətdir ki, sülh məhz belə kiçik, amma konkret addımlarla başlayır. Bu gün yanacaq, sabah ticarət, daha sonra isə sərhədlərin açılması və regionda təhlükəsiz birgəyaşayış qaçılmazdır. Hər halda, rəsmi Bakının gələcəyə baxışı bu cürdür. Bu baxımdan Azərbaycanın Ermənistana neft məhsulları göndərməsi bölgədə yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər.

Mövzu ilə bağlı XQ-yə açıqlama verən **politoloq İlyas Hüseynov** hesab edir ki, Azərbaycandan Ermənistana neft məhsullarının göndərilməsi praqmatik zərurətlə izah olunmalıdır. Onun fikrincə, bu addım sülhə aparan yolun bir hissəsi olsa da, prosesi romantikləşdirmək də düzgün deyil.

Ekspert bildirdi ki, iqtisadi əlaqələrin qurulması tərəflər arasında müəyyən qarşılıqlı öhdəlik yaradır və bu, regionda eskalasiya riskini əhəmiyyətli dərəcədə azalda bilər: "Siyasi proseslərlə iqtisadi addımlar arasında uyğunluq təmin olunarsa, ticarət münasibətləri uzunmüddətli və dayanıqlı xarakter ala bilər. Əsas məsələ atılan addımların ardıcıl şəkildə davam etdirilməsi və etimada əsaslanan mexanizmlərlə möhkəmləndirilməsidir. Bu yanaşma formalaşarsa, regionda sabitlik kağız üzərində qalan niyyət deyil, real gündəlik praktikaya çevrilə bilər. Belə bir mühit yeni əməkdaşlıq imkanlarını genişləndirər və qarşılıqlı asılılığı artırar. Nəticə etibarilə, bu proses Cənubi Qafqaz üçün daha təhlükəsiz və proqnozlaşdırılan gələcəyin əsasını qoya bilər".

***Səxavət HƏMİD***
***XQ***

# TRIPP-ə qlobal maraq artır

## *ABŞ-da regionun önəmli ölkələri ilə müzakirə*

**TRIPP (Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu) Azərbaycan, Ermənistan və ABŞ liderlərinin 2025-ci ildə əldə etdiyi tarixi razılaşma nəticəsində yaranmış yeni nəqliyyat və kommunikasiya dəhlizidir. Bu layihə Cənubi Qafqazı qlobal ticarət şəbəkələrinə birləşdirərək Orta Asiya ilə Qərbi Avropanı birləşdirən alternativ bir marşrut yaratmağı hədəfləyir. TRIPP çərçivəsində Azərbaycanın əsas hissəsi Ermənistan üzərindən Naxçıvanla, oradan isə Türkiyə ilə birləşir və nəticədə Avrasiya boyunca fasiləsiz bir ticarət bağlantısı formalaşır.**



Yeri gəlmişkən, Amerika-Azərbaycan Ticarət Palatasında "TRIPP – ABŞ-ın yeni strateji landşaftında Avrasiya kommunikasiyası" mövzusunda dəyirmi masa keçirilib. Məlumata görə, səfir Xəzər İbrahim "TRIPP layihəsi"nin həyata keçirilməsi çərçivəsində hazırkı impulsdan istifadənin vacibliyini vurğulayıb. Müzakirələrdə Ermənistan, Qırğızıstan səfirləri, Türkiyə, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Tacikistan və Türkmənistan diplomatik missiyalarının nümayəndələri çıxış ediblər. ABŞ Dövlət Departamenti və Ticarət Nazirliyinin nümayəndələri də müzakirələrə qatılıblar.

Azərbaycan TRIPP marşrutundan mühüm iqtisadi faydalar əldə edəcək. İlk növbədə, tranzit yüklərin həcmi əhəmiyyətli dərəcədə artaraq ölkəyə əlavə gəlirlər gətirəcək. Tranzit həcminin illik 8 milyondan 15 milyon tona yüksələ biləcəyi proqnozlaşdırılır ki, bu da Bakı limanı və dəmir yolları kimi infrastrukturun modernləşdirilməsini sürətləndirərək Azərbaycanın Orta Dəhlizdə əsas ticarət qovşağına çevrilməsinə imkan verəcək. Məsələn, Çin və Orta Asiyadan Avropaya yüklər Xəzər üzərindən Azərbaycana gəlib TRIPP marşrutu ilə cəmi ~12-14 gün ərzində Avropaya çata bilər ki, bu da ənənəvi Rusiya üzərindən daşınma müddətinin təxminən yarısı qədərdir. Bu cür sürətli və etibarlı tranzit Azərbaycanın logistika və xidmət sektorunda (yük emalı, anbarlama, sığorta və s.) yeni imkanlar açır və ölkənin Şərq-Qərb ticarətindəki strateji rolunu əhəmiyyətli dərəcədə artırır.

Bundan əlavə, TRIPP Azərbaycana xarici investisiyaların cəlbini sürətləndirəcək və rəqəmsal ticarətin inkişafına təkan verəcək. Sülh və sabitlik şəraitində Qərb sərmayədarları bu dəhliz boyunca logistika mərkəzləri və anbarlar yaratmaqda maraq göstərirlər. Layihə, həmçinin “ağıllı” texnologiyaların inteqrasiyasını nəzərdə tutur. Rəqəmsal gömrük sistemi, avtomatik sərhəd keçidləri və Xəzərdən Avropaya qədər uzanan fiber-optik rabitə şəbəkəsi ticarət prosedurlarını sadələşdirəcək.

TRIPP marşrutu mövcud nəqliyyat yolları ilə müqayisədə sürət və təhlükəsizlik baxımından üstünlüklər təqdim edir. Orta Dəhlizin bir hissəsi kimi bu yol Şərqdən Qərbə yüklərin təxminən 2 həftəyə daşınmasına imkan verir ki, bu da Rusiya üzərindən quru və ya Süveyş kanalı ilə dəniz marşrutundan xeyli sürətlidir. Marşrutun siyasi riskləri minimuma endirən trayektoriyası da diqqətəlayiqdir. TRIPP nə münaqişə ocaqlarından, nə də sanksiyalı ərazilərdən keçmir, bu da yüklərin gecikmədən və təhlükəsiz çatmasını təmin edir.

TRIPP texnologiya və davamlılıq baxımından da müasir həllər üzərində qurulur. Sərhəd-keçid məntəqələrində rəqəmsal “bir pəncərə” gömrük sistemləri qurularaq yoxlamalar sürətləndiriləcək və ləngimələr minimuma endiriləcək. Dəmir yollarının elektrikləşdirilməsi və bərpaolunan enerji inteqrasiyası da planlaşdırılır. Eyni zamanda, yüksəktutumlu fiber-optik kabel xətti çəkilərək TRIPP həm də rəqəmsal kommunikasiya dəhlizinə çevriləcək. Bu yeniliklər TRIPP-i XXI əsrin tələblərinə cavab verən dayanıqlı bir alternativə çevirir.

Avropa üçün TRIPP Rusiya üzərindən asılılığı azaldan ticarət aparmaq deməkdir. Avropa bazarları Mərkəzi Asiya məhsullarını daha ucuz və təhlükəsiz şəkildə tədarük edə biləcək – hesablamalara görə, yeni dəhlizin səmərəliliyi Avropa idxalçılarının logistika xərclərini nəzərəçarpacaq dərəcədə azalda bilər. Çin tərəfdən baxdıqda isə, TRIPP ABŞ-ın təşəbbüsü olsa da, Pekinin “Bir kəmər, bir yol” proqramının Orta Dəhliz qolunu gücləndirən əlverişli bir vasitə rolunu oynayır. Bu da Çin mallarının Avropaya çatdırılmasında alternativ və sürətli bir kanal təqdim edərək Çin şirkətlərinin logistika risklərini azaltmasına kömək edir.

Türkiyə TRIPP-dən ciddi iqtisadi dividendlər əldə edəcək əsas tərəfdaşdır. Yeni dəhliz sayəsində Azərbaycan-Ermənistan sülhü fonunda on illərdir bağlı qalan Türkiyə-Ermənistan sərhədi açılır və Türkiyə Cənubi Qafqaz və Orta Asiya ilə birbaşa quru əlaqəsinə malik olur. Bu, Türkiyənin regional tranzit mərkəzi kimi mövqeyini daha da möhkəmləndirir. Prezident Rəcəb Tayyib Ərdoğan Zəngəzur dəhlizini “geoiqtisadi inqilabın bir parçası” adlandıraraq vurğulamışdır ki, türk malları Orta Asiya və Çinə daha sürətlə çatacaq, Avropa-Çin yükləri isə Türkiyə üzərindən keçməklə Orta Dəhlizə strateji üstünlük qazandıracaq.

***Ekspert rəyi***



**Eyyub KƏRİMLİ,**
**İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri**

Hesab edirəm ki, TRIPP bu gün ABŞ-ın yeni dünya düzəni çərçivəsində Avrasiyada formalaşdırdığı yeni kommunikasiya arxitekturası və mexanizmidir. Bu təşəbbüs, böyük ehtimalla, üç əsas məqsədə xidmət edəcək. Birincisi, Şərq istiqamətində Orta Dəhlizin gücləndirilməsi, ikincisi, Şimal–Cənub nəqliyyat dəhlizində iştirakçılığın artırılması, üçüncüsü isə Xəzər və Qara dəniz oxları üzrə mövcud marşrutların institusional çərçivəyə salınmasıdır.

Eyni zamanda, TRIPP-in əsas hədəflərindən biri logistika proseslərində daha şəffaf, daha rəqabətli və daha proqnozlaşdırılan bir nəqliyyat kanalının formalaşdırılmasıdır.

Hesab edirəm ki, ilk növbədə, bu təşəbbüs Azərbaycanın regional gücünü daha da artırır. TRIPP yalnız yüklərin ötürüldüyü bir dəhliz deyil, eyni zamanda, logistika, sığorta, ticarət və maliyyə xidmətlərinin regional mərkəzinə çevrilmək potensialına malik bir platformadır. Bu isə ölkədə əlavə dəyər zəncirlərinin formalaşması üçün geniş imkanlar açır.

Bununla yanaşı, TRIPP ABŞ-ın regionda iqtisadi mövcudluğunu və investisiya fəallığını artırması üçün də əlavə imkanlar yaradır. Layihə Azərbaycanın logistika və nəqliyyat infrastrukturunun genişlənməsinə, beynəlxalq standartlara uyğunlaşdırılmasına ciddi töhfə verə bilər. Xüsusilə, liman və dəmir yolu xətlərinin keyfiyyətinin yüksəldilməsi, rəqəmsal ticarət platformalarının təkmilləşdirilməsi, texnoloji proseslərin daha geniş tətbiqi, “yaşıl enerji” ilə bağlı tranzit infrastrukturunun formalaşdırılması bu çərçivədə mühüm rol oynayır. Eyni zamanda, ölkənin anbarlama və regional paylama mərkəzi kimi inkişafına da əhəmiyyətli təsir göstərəcək.

Digər tərəfdən, TRIPP Azərbaycanın ticarət strukturunun genişlənməsinə, xüsusilə xarici ticarət əlaqələrinin diversifikasiyasına mühüm töhfə verə bilər. Bu proses ölkədə siyasi sabitliyin möhkəmlənməsi, qeyri-neft sektorunun inkişafı və ticarət əlaqələrinin dərinləşməsi baxımından da müsbət nəticələr vəd edir.

“Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu” təşəbbüsü Avrasiyada ticarət dinamikasını yenidən formalaşdırmağa qadirdir. Bu marşrut Azərbaycana daha yüksək tranzit gəlirləri və strateji tranzit qovşağı statusu qazandırır, ABŞ-a isə Rusiya və Çin marşrutlarına alternativ yaradan kritik dəhlizə təsir imkanları verir. Ən əsası, TRIPP Avropa, Çin, Türkiyə və Orta Asiya üçün ticarət axınlarının şaxələnməsi və regional iqtisadi inteqrasiyanın dərinləşməsi baxımından qarşılıqlı faydalar yaradır. Layihə uğurla gerçəkləşərsə, Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri qlobal iqtisadiyyata sabit sülh və rifah əsasında bağlanacaq və TRIPP həqiqi mənada “sülh və rifah marşrutu” kimi tarixə düşəcək.

***Nurlan ABDALOV***
***XQ***

**Azərbaycan–Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında qarşılıqlı etimad üzərində formalaşmış iqtisadi əməkdaşlıq uzun illərdir ki, uğurla davam edir. Enerji sahəsində başlanan bu tərəfdaşlıq getdikcə daha geniş dairəni əhatə edərək ticarət, maliyyə, nəqliyyat, “yaşıl enerji” və innovasiya kimi istiqamətlərdə dərinləşib. Bu gün Böyük Britaniya Azərbaycanın əsas iqtisadi tərəfdaşlarından biri olmaqla yanaşı, ölkəmizin beynəlxalq iqtisadi sistemə inteqrasiyasında mühüm rol oynayan aktor kimi də çıxış edir.**

# Britaniya ilə iqtisadi əməkdaşlıq sürətlə genişlənir

## *Bu il ticarət dövriyyəsi 1,7 dəfə yüksəlib*



Məlum olduğu kimi, Azərbaycan–Böyük Britaniya iqtisadi münasibətlərinin əsasını enerji sektoru təşkil edir. Böyük Britaniyanın aparıcı enerji şirkətlərindən biri olan BP artıq 30 ildir ki, Azərbaycanın neft-qaz strategiyasının əsas iştirakçılarındandır. “Əsrin müqaviləsi”ndən başlayaraq “Azəri–Çıraq–Günəşli”, “Şahdəniz”, Bakı–Tbilisi–Ceyhan və Cənub Qaz Dəhlizi kimi qlobal əhəmiyyətli layihələrdə BP-nin iştirakı bu əməkdaşlığın strateji xarakterini açıq şəkildə nümayiş etdirir.

Azərbaycanla Böyük Britaniya arasında ticarət əlaqələri də yüksələn xətt üzrə inkişaf edir. Cari ilin yanvar–oktyabr aylarında iki ölkə arasında ticarət dövriyyəsi 1 milyard 23 milyon ABŞ dolları təşkil edib. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 409,4 milyon ABŞ dolları və ya 1,7 dəfə çoxdur. 2025-ci ilin ilk 10 ayında Böyük Britaniya ilə ticarət dövriyyəsi Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin 2,5 faizi həcmində olub. Bununla da Böyük Britaniya Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı ölkələr sırasında 7-ci pillədə qərarlaşıb.

Qeyd edək ki, Böyük Britaniya Azərbaycan iqtisadiyyatına ən böyük həcmdə sərmayə qoyan ölkə kimi ilk sırada qərarlaşıb. 2023-cü ilin sonunadək bu ölkə Azərbaycanın iqtisadiyyatına, ümumilikdə, 80 milyard ABŞ dollarından artıq investisiya yönəldib.

Yeri gəlmişkən, iki ölkə arasında iqtisadi münasibətlər təkcə Britaniya sərmayələrinin Azərbaycana axını ilə formalaşmır. Azərbaycan da Böyük Britaniya iqtisadiyyatında fəal investor kimi çıxış edir. Rəsmi statistik göstəricilər və beynəlxalq mənbələr Azərbaycanın Britaniyada əsasən strateji və uzunmüddətli gəlir gətirən sahələrə üstünlük verdiyini göstərir. Rəsmi statistik göstəricilər Bakı–London iqtisadi xəttinin dayanıqlı və qarşılıqlı maraqlara əsaslanan xarakter daşıdığını açıq şəkildə nümayiş etdirir.

Azərbaycan Mərkəzi Bankının məlumatlarına əsasən, Azərbaycan Böyük Britaniya iqtisadiyyatına birbaşa investisiya qoyuluşunu əhəmiyyətli dərəcədə artırıb. Bu ilin yanvar–sentyabr aylarında Azərbaycan Böyük Britaniya iqtisadiyyatına 176 milyon 350 min ABŞ dolları həcmində birbaşa investisiya yatırıb. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfə çoxdur.

Hesabat dövründə Azərbaycanın Böyük Britaniya iqtisadiyyatına yönəltdiyi investisiyaların ümumi xarici investisiyalarda payı 6,3 faizdən 8,7 faizə yüksəlib. Bu fakt Azərbaycanın artıq təkcə investisiya qəbul edən deyil, eyni zamanda, kapital ixrac edən ölkə kimi mövqeyini gücləndirdiyini göstərir.

Eyni zamanda, Böyük Britaniya da Azərbaycan iqtisadiyyatının əsas investorlarından biri olaraq qalır. 9 ay ərzində Böyük Britaniya Azərbaycana 1 milyard 243 milyon 118 min ABŞ dolları həcmində birbaşa investisiya yatırıb. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 4,7 faiz azalsa da, ölkənin ümumi investisiya portfelində Böyük Britaniyanın payı hələ də yüksəkdir. Belə ki, 2025-ci ilin yanvar–sentyabr aylarında Böyük Britaniyanın Azərbaycanın iqtisadiyyatına yatırdığı investisiyaların payı 26,2 faiz təşkil edib.

Ümumilikdə isə, hesabat dövründə Azərbaycandan xaricə yönəldilmiş birbaşa investisiyaların həcmi 2 milyard 38 milyon 685 min ABŞ dolları olub ki, bu da illik müqayisədə 47,6 faiz artım deməkdir. Ölkəyə cəlb edilən xarici birbaşa investisiyalar isə 4 milyard 522 milyon 578 min ABŞ dolları təşkil edərək 4,7 faiz artıb. Bu dinamika Azərbaycanın beynəlxalq investisiya bazarlarında etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmləndiyini göstərir.

Qeyd edək ki, Azərbaycanın Böyük Britaniya iqtisadiyyatına birbaşa investisiyalarından biri infrastruktur sektoruna yönəlib. “Reuters”in məlumatına görə, Azərbaycan Dövlət Neft Fondu (ARDNF) Londonda yerləşən və Böyük Britaniyanın ikinci ən böyük hava limanlarından biri olan “Gatwick” aeroportuna təxminən 67 milyon ABŞ dolları məbləğində sərmayə yatırıb. Bu investisiya hava nəqliyyatı, logistika və xidmət infrastrukturu sahəsini əhatə edir və uzunmüddətli sabit gəlir məqsədi daşıyır. “Gatwick” hava limanı hər il 40 milyondan çox sərnişinə xidmət göstərir. Məlumata görə, ARDNF bu investisiya sazişini ABŞ-ın “Global Infrastructure Partners” (GIP) şirkəti ilə birgə həyata keçirib. Qeyd edək ki, GIP hazırda dünyanın ən böyük investisiya şirkətlərindən biri olan “BlackRock”un tərkibinə daxildir.

***Musa BAĞIRLI***
***XQ***

# “Qarabağ” yatağında seysmik kəşfiyyat aparılır

**Böyük Britaniyanın BP şirkəti Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Qarabağ” yatağında seysmik kəşfiyyat işlərinə başlayıb. Bu barədə şirkətin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə geologiya və işlənmə üzrə vitse-prezidenti Den Sparks məlumat verib.**



Ötən həftə dənizdibi sensor qovşaqlardan istifadə etməklə üçölçülü seysmik tədqiqata başlandığını bildirən vitse-prezidentin sözlərinə görə, seysmik kəşfiyyat işlərinin məqsədi resursların qiymətləndirilməsində qeyri-müəyyənliyi azaltmaq, tədqiqetməni planlaşdırmaq və investisiya ilə bağlı son qərara gəlməkdir. O deyib ki, tədqiqat Xəzərdə dənizdibi sensor qovşaqlardan istifadə texnologiyasını tətbiq edən “Caspian Geo” komandaları tərəfindən həyata keçiriləcək: “Bu texnologiyanın inkişafı BP tarixində ən böyük beşillik 4D seysmik kəşfiyyat proqramı çərçivəsində “Azəri-Çıraq-Günəşli” yatağında təmin edilib”.

Seysmik tədqiqat proqramına dənizdibi sensor qovşaqlarla seysmik tədqiqat və yüksək dəqiqlikli (HR)/ultra yüksək dəqiqlikli seysmik tədqiqat daxildir. Dekabrda başlayacaq birinci seysmik proqram çərçivəsində tədqiqat işləri dənizin 140-200 metr dərinliyində aparılacaq və 3 ay yarım davam edəcək. (HR)/ultra yüksək dəqiqlikli seysmik tədqiqatın isə gələn ilin mart-aprel aylarında həyata keçiriləcəyi və 45 günədək davam edəcəyi nəzərdə tutulur.

Xatırladaq ki, 2025-ci il iyunun 3-də Bakı Enerji Həftəsi çərçivəsində BP Azərbaycan Dövlət Neft Şirkəti ilə “Qarabağ” layihəsi üzrə iştirak payının alınmasına dair müqavilə imzalayıb. Sözügedən yataq Bakıdan 120 kilometr şərqdə, “Günəşli” yatağından 20-25 kilometr aralıda, 150-200 metr dərinlikdə yerləşir. Layihədə BP SOCAR-dan 35 faiz pay alıb, qalan 65 faiz isə Azərbaycan şirkətində qalıb. Layihənin operatoru kimi BP çıxış edəcək. İlkin hesablamalara görə, “Qarabağ” yatağında geoloji neft ehtiyatları 60 milyon tondan artıqdır ki, bunun da 21 milyon ton nefti və 13 milyard kubmetr qazı çıxarılabilən hesab olunur.

***XQ***

# AİB ölkəmizin davamlı inkişafına dəstəyi artırır

**Asiya İnkişaf Bankı “Azərbaycanda dayanıqlı inkişaf məqsədləri naminə strateji qarşılıqlı fəaliyyətin gücləndirilməsi” layihəsinin həyata keçirilməsi üçün Xüsusi Texniki Yardım Fondundan 225 min ABŞ dolları məbləğində vəsaitin ayrılması imkanını nəzərdən keçirir.**




Qurumdan verilən məlumata əsasən, təklif olunan texniki yardım Azərbaycanın daha strateji, məlumatlara əsaslanan və gələcəyə yönəlmiş proqramlar hazırlamasına dəstək göstərilməsinə, habelə hökumətin inkişaf sahəsində yaranan çağırışlara cavab vermək potensialının gücləndirilməsinə yönəlib. Təşəbbüsün təsdiqlənəcəyi təqdirdə, onun vaxtında və yüksəkkeyfiyyətli analitik və məsləhət xarakterli dəstək təmin edəcəyi, bununla da dövlət siyasətinin planlaşdırılması və icrası proseslərinin təkmilləşdirilməsinə töhfə verəcəyi gözlənilir. Layihə analitik məhsulların hazırlanmasını və texniki məsləhətlərin təqdim olunmasını, eləcə də yüksəksəviyyəli siyasi dialoqun və maraqlı tərəflər arasında qarşılıqlı fəaliyyətin genişləndirilməsini nəzərdə tutur.

Bu arada, Asiya İnkişaf Bankı Bakı Metropoliteninin siqnalizasiya sistemlərinin modernləşdirilməsi və əməliyyatların rəqəmsallaşdırılması layihəsini dəstəkləmək üçün 150,2 milyon ABŞ dolları məbləğində kredit ayırmağı nəzərdən keçirir. Metropolitenin əməliyyat sistemlərinin rəqəmsallaşdırılmasına yönəldilmiş layihə çərçivəsində qatarların hərəkətinin idarə edilməsi və sərnişinlərin daha çox məlumatlandırılması nəzərdə tutulur. Bank sözügedən layihənin Bakı Metropoliteninin həm əməliyyat, həm də maliyyə göstəricilərini yaxşılaşdıracağına mühüm töhfələr verəcəyini proqnozlaşdırır. Eyni zamanda, bu təşəbbüs ictimai nəqliyyata yönəlmiş şəhər mobilliyi sisteminin yaradılmasına töhfə verəcək, bu da əhalinin artımı və şəxsi avtomobillərin çoxalması səbəbindən yaranan nəqliyyat sıxlığını azaltmağa imkan verəcək.

Xatırladaq ki, 2024-cü il dekabrın 31-dək AİB Azərbaycan üçün dövlət sektorunda kreditlər, qrantlar, zəmanətlər və texniki yardım daxil olmaqla, ümumilikdə, 4,4 milyard ABŞ dolları məbləğində 71 layihəni təsdiqləyib. Bankın Azərbaycandakı mövcud suveren portfelinin ümumi məbləği 613,68 milyon ABŞ dolları olan iki kredit və bir suveren zəmanətdən ibarətdir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

*Prezident sərəncam verib*

# Azərbaycan yüksələn sosial rifah ölkəsidir

## *Aztəminatlı ailələrə dövlət qayğısı isə davamlıdır*

**Yeni il ərəfəsində cəmiyyətdə o qədər də yüksək faiz təşkil etməyən aztəminatlı ailələr Prezident İlham Əliyevdən növbəti dəstək hədiyyəsi aldılar. Dövlət başçısının "Aztəminatlı ailələrə birdəfəlik maddi yardım verilməsi haqqında" 22 dekabr 2025-ci il tarixli Sərəncamı belə ailələrin sosial müdafiəsinin gücləndirilməsinə ölkəmizdə davamlı diqqət və qayğının növbəti təzahürü oldu.**

Sərəncamda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə 2025-ci il 30 dekabrında ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə 200 manat məbləğində pul verilməsi nəzərdə tutulur. Sənədə əsasən, bu məqsədlə 15,3 milyon manat vəsait ayrılıb. Sərəncam ünvanlı sosial yardım alan, 335 mindən çox üzvü olan 76 min ailəni əhatə edəcək. Birdəfəlik maddi yardım onların bayram süfrəsinə əlavə zənginlik və xoş əhval gətirəcək. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik yardımları nəzərdə tutulan gün ünvanlı sosial yardım alan ailələrin hesablarına köçürəcək.

Ünvanlı sosial yardım proqramı aztəminatlı ailələrin sosial müdafiəsində mühüm önəm kəsb edir. Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ödənilən ünvanlı yardımların məbləği davamlı olaraq artır. 2018-2025-ci illər ərzində bu yardımın hər ailəyə düşən orta aylıq məbləği 2,4 dəfə artıb və hazırda 425 manat təşkil edir. Ünvanlı sosial yardımın təyin edilməsi üçün ehtiyac meyarının həddi isə qeyd edilən dövrdə 2,2 dəfə artırılaraq 285 manata çatdırılıb və növbəti ildə 300 manata çatdırılması nəzərdə tutulub.



Qeyd edək ki, ölkəmizdə ümumi rifahın yüksəldilməsini hədəfə almış ünvanlı sosial yardım aztəminatlı ailələrin ehtiyaclarını həssaslıqla cavablandıran Dövlət proqramıdır. Son illərdə ölkəmizdə həyata keçirilən sosial islahatlar çərçivəsində bu xüsusi dəstək layihəsi getdikcə əhatə dairəsini genişləndirir və icra şəffaflığı qazanır.

Verilən yardım ailənin gəlir səviyyəsi müəyyən edilmiş yaşayış minimumundan az olan hallarda verilir və dövlətin sosial siyasətinin əsas alətlərindən biri hesab olunur.

Aztəminatlı ailələrin sosial rifahının yaxşılaşdırılması, onların gündəlik ehtiyaclarının ödənilməsi və həyat səviyyəsinin yüksəldilməsi üçün hazırlanmış bu dəstək mexanizmi xüsusi proqram çərçivəsində həyata keçirilir. Layihənin əsas məqsədi sosial ədalətin təmin olunmasına və cəmiyyətdə bərabər imkanların yaradılmasına nail olmaqdır.

Aztəminatlı ailələrin maddi vəziyyətinin yaxşılaşdırılması üçün gerçəkləşdirilən layihə bu qrupun sosial inklüzivliyinin artırılmasında və yoxsulluq səviyyəsinin azaldılmasında təsirli rol oynayır. ÜDSY-nin əhəmiyyəti ondan ibarətdir ki, sosial cəhətdən həssas vətəndaşların gündəlik ehtiyaclarını qarşılamağa kömək edir, onların cəmiyyətə inteqrasiyasını dəstəkləyir və sosial bərabərliyin qorunmasına töhfə verir.

Ünvanlı yardım proqramına əlçatanlığın artırılması, yardımın təyinat şərtlərinin yumşaldılması üçün qanunvericilikdə bir sıra dəyişikliklər edilib. Ötən il isə "Ünvanlı yardım" e-sistemi yenidən qurulmaqla, yardım üçün müraciət proseduru xeyli sadələşdirilib.

Azərbaycanın öz mütəxəssislərinin gerçəkləşdirdiyi elektron sosial yardım sistemi bu proqramın icrasında ünvanlılığın təminatına, yardım alınması üçün müraciət və təyinat prosesinin məmur-vətəndaş kontaktları olmadan, tam şəffaf həyata keçirilməsinə imkan yaradıb. Digər tərəfdən, proqramın icrasının, bu sahədə xidmətlərin və idarəçiliyin operativliyi, sosial yardım sisteminin aztəminatlı ailələrə daha əlçatan olması təmin edilib. Hər hansı vətəndaş təmsil etdiyi ailənin sosial yardım almaq hüququna baxılması üçün yalnız e-qaydada müraciət edərək, ailəsinin tərkibi, gəlirləri, əmlakı və s. barədə məlumatları e-sistemə daxil edir və bu məlumatlar avtomatlaşdırılmış rejimdə yoxlanaraq qərar qəbul olunur.

Hazırda nazirlik ünvanlı dövlət sosial yardımı sisteminin, o cümlədən bu sahədə elektron infrastrukturun təkmilləşdirilməsi istiqamətində də işlər aparır. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Azərbaycanda sosial sahədə elektron texnologiyaların geniş tətbiqi nəticəsində əldə olunan nailiyyətlər beynəlxalq səviyyədə uğurlu təcrübə nümunələri kimi yüksək dəyərləndirilir. Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) 20 ölkədən 76 sosial layihənin iştirak etdiyi müsabiqənin nəticəsinə əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ünvanlı dövlət sosial yardımı üzrə elektron sistemini xüsusi mükafata layiq görməsi bu qiymətin növbəti təzahürüdür.

Azərbaycanda aparılan sosial islahatlar bir daha göstərir ki, vətəndaşın sosial rifahı ən ön plandadır. Vətəndaşların sosial rifahının yaxşılaşdırılması Azərbaycanda dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir. Bu siyasət sosial ədalət, iqtisadi bərabərlik, sosial xidmətlərin yaxşılaşdırılması kimi məqsədləri özündə ehtiva edir. Bütün bu məqsədlərin, ümumilikdə isə bu siyasətin mərkəzində insan amili dayanır. Bu da nəticədə ölkə vətəndaşlarının həyat şəraitinin yaxşılaşdırılmasına əhəmiyyətli təsir göstərir.

Prezident İlham Əliyevin son illərdə Ulu öndərin strategiyasından qaynaqlanan sosial-iqtisadi siyasəti keyfiyyətcə yeni prioritetləri müəyyənləşdirərək, innovasiya əsaslı inkişaf modelinə keçidi şərtləndirib, yüksək rəqabət qabiliyyətli və diversifikasiya olunan iqtisadiyyatın formalaşmasını sürətləndirib. Azərbaycanda yaradılan böyük iqtisadi potensial və aparılan məqsədyönlü islahatlar, iqtisadiyyatın şaxələndirilməsi, investisiyaların təşviqi, biznes mühitinin yaxşılaşdırılması, qeyri-neft ixracının stimullaşdırılması, iqtisadi idarəetmənin təkmilləşdirilməsi və digər tədbirlər iqtisadiyyatın davamlı inkişafını təmin edib.

"Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır", – deyən dövlət başçısının tapşırıqları əsasında xüsusilə son illər aparılan inqilabi sosial islahatlar ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm nailiyyətlərin əldə olunmasını təmin edib. Ölkə başçısının imzaladığı fərman və sərəncamlar respublikamızın sosial inkişafı istiqamətində mühüm irəliləyişləri təmin edib.

Sosialyönümlü siyasətin uğur formulu, ümumilikdə, xalqın rifahının yüksəldilməsi, sosial problemlərin həlli, minimum sosial təminatın gücləndirilməsi (pensiya, müavinət, mənzil, iş yerləri), iqtisadi artımın (məsələn, neft gəlirlərinin) sosial sahələrə yönəldilməsi və xalq-iqtidar birliyi əsasında doğru strategiya və ardıcıl islahatların aparılmasıdır. Bu, sosial müdafiəyə önəm verən, vətəndaşların həyat səviyyəsini yaxşılaşdıran modeldir.

Növbəti il üçün müəyyənləşdirilən dövlət büdcəsinin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial rifahının yüksəldilməsidir. Bu ilə nisbətən gələn il bu istiqamətdə daha çox vəsait ayrılacaq. Minimum əməkhaqqının, minimum pensiyanın, sosial müavinətlərin, təqaüdlərin məbləğinin artırılması nəzərdə tutulur.

Azərbaycanın dövlət büdcəsi 2026-cı ildə də sosialyönümlü olacaq. Belə ki, dövlət büdcəsi xərclərinin 41 faizi, cari xərclərin isə 68 faizi və yaxud 17,1 milyard manat sosialyönlü xərclərə yönəldiləcək. Bu, 2024-cü ilin icra göstəricisi ilə müqayisədə 2,5 milyard manat və ya 17 faiz çoxdur. Bu xərclərin 89,7 faizi, yəni 15,4 milyard manatı əməkhaqqı və sosial təminat ödənişlərinə ayrılacaq. 5 ildə bu istiqamətdəki xərclər 4,4 milyard manat və ya 39,6 faiz artıb.

Beləliklə, gələn ildə də sosialyönlü xərclər əsas prioritetlər sırasında olacaq. Ortamüddətli büdcə dövrü ilə, yəni 2022-ci illə müqayisədə sosialyönlü xərclər 5,6 milyard manat və ya 48 faiz çox olacaq. Əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən xərclər üçün gələn ilin dövlət büdcəsində 4,9 milyard manat vəsait nəzərdə tutulur. Bu, 2025-ci ilə nisbətən 121 milyon manat, 2024-ci ilin icra göstəricisinə nisbətən isə 722 milyon manat çoxdur.

Azərbaycanda iqtisadi inkişafla sosial rifahın əlaqələndirilməsi, ölkənin iqtisadi dividendlərinin vətəndaşın rifahına yönəldilməsi, cəmiyyətin tərəqqisində bütün fərdlərin sosial-iqtisadi mənafelərinin bərabər təminatına nail olunması prinsiplərinə istinad edən inkişaf strategiyasının mükəmməl əsaslara söykəndiyi bir daha öz təsdiqini tapır. Ümumilikdə, sosial müdafiə sisteminin bütün istiqamətləri üzrə inkişaf dinamikası mövcuddur. Bütün bunlar ölkəmizdə güclü sosial siyasəti, sosial inkişafın da davamlı xarakter aldığını göstərir.

***Mustafa KAMAL***
***XQ***

*İdman ilinin yekunları*

# Dəri əlcək ustalarımızın uğurları

**Həvəskarların rinq döyüşləri ölkəmizdə XX əsrin əvvəllərində təşəkkül tapıb və 1924-cü ildə Azərbaycan Boks Federasiyası təsis edilib. Ötən bir əsrdə qüvvət, sürət və dözümlülük rəmzi olan bu idman növü geniş yayılıb və güclü boksçular yetişdirilib. Elə sona yetməkdə olan 2025-ci il də onların parlaq qələbələri ilə zəngin olub.**









Dəri əlcək ustalarımızın əsas uğurları müstəqillik illərinə təsadüf edir. Boks Federasiyamız (ABF) Beynəlxalq Həvəskar Boks Assosiasiyasının (AİBA) tamhüquqlu üzvü olduqdan sonra idmançılarımız Olimpiya Oyunlarında, Dünya və Avropa çempionatlarına qatılaraq sevindirici nəticələr qazanıblar. 1993-cü ildə 17 yaşlı Rövşən Hüseynov Avropa çempionu tituluna yiyələnib. 2003-cü ildə isə Ağası Məmmədov Dünya çempionatından Azərbaycana ilk qızıl medalı gətirib. Ardınca M.Məcidov, C.Çələbiyev, E.Məmişzadə, A.Dominqes bu titulu qazanıblar. V.Ələkbərov, F.Aslanov, A.Məmmədov, Ş.İmranov, M.Məcidov və T.Məmmədov olimpiada mükafatçılarıdır.

Bir vaxtlar bu sətirlərin müəllifi də boksa könül verib. Sumqayıtda, "Neftçi" cəmiyyətində idman ustası Bəbiş Nuruşov məşqçim olub. Tanınmış boksçular Niftalı Quliyev, Məmməd və Əsgər Eyvazov qardaşları, Nəsib Abışov, Əli Dadaşov və başqaları ilə eyni rinqi bölüşmüşük. Yeniyetmə çağlarımda və orduda xidmət zamanı Uzaq Şərq Hərbi Dairəsi üzrə yarışlarda aldığım mükafatları arxivimdə qoruyub saxlayıram. Üstündən onillər keçsə də, boksa sevgim azalmayıb.

Azərbaycan boks üzrə mötəbər yarışlara üzağardan ev sahibliyi edib. AİBA 2011-ci ildə böyüklər arasında Bakıda keçirilən Dünya çempionatını yüksək qiymətləndirib. Təmsilçilərimizin müxtəlif ölkələrdəki boks yarışlarında uğurlu çıxışları da fərəh doğurur. Məsələn, 2013-cü ildə Avropa yarışlarında Azərbaycan boksçuları 1 qızıl, 1 gümüş və 2 bürünc medal qazanıblar. Həmin il Qazaxıstanın Almatı şəhərində keçirilən Dünya çempionatında isə komandamız 2 qızıl və 1 bürünc medala layiq görülüb.

Xatırlayırıq ki, 2015-ci ildə Bakıda ABF-nin yeni inzibati binasının açılışını edən Prezident İlham Əliyev idmançılardan böyük uğurlar gözlədiyini söyləmişdi: "Sizdən medallar gözləyirik. Əminəm ki, belə də olacaq. İndi buna gözəl şərait yaradılıb. Əlbəttə, bundan sonra nəticələr daha da yaxşı olmalıdır. Onsuz da boksçularımız son vaxtlar bizi sevindirir, çox gözəl nəticələr göstərirlər". İdmana böyük qayğı göstərən dövlət başçımızı ümidləri özünü doğrultduqca, hər birimiz sevindik. İndi isə, budur, 19 yaşlı Sübhan Məmmədov 2025-ci ili böyüklər arasında (!) dünya çempionu kimi başa vurdu.

**Azərbaycan Boks Federasiyası prezidentinin müşaviri Samir Hüseynov:**

– Millimizin Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində 120 ölkənin qatıldığı Dünya çempionatına həm fiziki, həm də taktiki hazırlığı qənaətbəxş idi. Ondan əvvəl komandamız Liverpulda təşkil olunan çempionatda uğurla iştirak etmişdi. Bu mundialda isə mübarizə daha gərgin keçdi. Gənc boksçumuz Sübhan Məmmədov (48 kq) qələbəsi ilə adını nəinki Azərbaycanın, eləcə də dünyanın boks tarixinə qızıl hərflərlə yazdırdı. O, AİBA-nın tarixində 19 yaşında böyüklər arasında mundialın "qızıl"ını qazanan yeganə boksçu oldu.

Sübhan cəmi 10 gün öncə Budapeştdə U-23 Avropa çempionatında da qalib gəlmişdi. Bildiyimiz kimi, boksda hər yarışdan sonra müəyyən fasilə olur ki, güc bərpa edilsin. Amma bu dəfə ara qısa çəkdi və Sübhan əzmkarlığı, qətiyyəti ilə "zirvə"ni fəth edə bildi. Digər idmançılarımız üçün bunun çox böyük motivasiya olacağına inanırıq. Əminik ki, yanvar ayından xüsusi proqramla hazırlıqlarına start verəcəyimiz Los-Anceles-2028 olimpiadasında da Sübhan və dostları bizi sevindirəcəklər.

**Dünya çempionu Sübhan Məmmədov:**

– Bu yarışlarda 5 döyüşüm oldu və hamısını qələbə ilə başa vurdum. Finalda erməni əsilli Rusiya boksçusu Edmond Xudoyanı məğlub etdim. Qələbəmdə zəhməti olan məşqçi Mehman Quliyevə, həmçinin milli komandanın baş məşqçisi Ravşan Xocayevə, Nəriman müəllimə, xüsusilə də federasiya rəhbərliyinə təşəkkürümü bildirirəm. Məqsədim Los-Anceles Olimpiya Oyunlarında üçrəngli bayrağımızı ucaltmaqdır.

Builki mundialda təmsilçilərimiz Alfonso Dominqes (92 kq) və Məhəmməd Abdullayev (+92 kq) 3-cü yeri tutublar. Dünya çempionatından az sonra 17 yaşlılardan ibarət milli komandamız Almaniyanın Keinbaum şəhərində Avropa birinciliyində uğur qazanıb: Yarışda boksçularımız 2 qızıl və 2 gümüş əldə ediblər. Gülər Hüseynova (48 kq) və Qardaş Rəhimovun (46 kq) şərəfinə Almaniyada Azərbaycan himni səsləndirilib. Şahin Aslanov (60 kq) və Şükar Əliyev (75 kq) isə həmin yarışların gümüş medalına yiyələniblər.

**MDB və Avropa qalibi Gülər Hüseynova:**

– Qızıl medal əladır. Şükür ki, mən 17 yaşımda həm III MDB Oyunlarında, həm də Avropada qızıl medal qazandım. İnanıram ki, bundan sonra da beynəlxalq arenalarda Azərbaycan himnini səsləndirəcək və qadın boksumuzun inkişafına töhfələr verəcəyəm.

Xatırlandığı kimi, daha öncə Yevlax Olimpiya İdman Kompleksində 13 ölkənin dəri əlcək ustalarının iştirak etdiyi III MDB Oyunlarının boks yarışı uğurla yekunlaşıb. Qarşılaşmalar idmanseverlərə gərgin və həyəcanlı anlar bəxş edib. Təmsilçilərimiz mübarizəni müxtəlif yaş kateqoriyaları üzrə 24 medalla başa vurublar. Vaqif Kazımovun baş məşqçisi olduğu oğlanlardan ibarət millimizdən Qardaş Rəhimov, Əli Əliyev, Əli Abaslı, Şahin Aslanov və Səfdər Məmmədzadə qızıl pilləyə yüksəliblər. İlkin Ağayevin rəhbərlik etdiyi qızlardan ibarət yığmadan isə Gülər Hüseynova qızıl, daha 8 "zərif" döyüşçümüz gümüş və bürünc medallara sahiblənib.

Boksçularımız VI İslam Həmrəyliyi Oyunlarında 1 qızıl, 3 gümüş və 2 bürünc medala yiyələnib, ümumi hesabda 3-cü olublar. Daha öncə keçirilmiş U-15 və U-19-la bərabər, U-23 Avropa çempionatı da həmçinin. Dekabrın əvvəllərində Rusiyanın Yuqorsk şəhərində neft ölkələri arasında boks üzrə Dünya kuboku yarışında isə Azərbaycan millisi 4 medal qazanıb: 1 qızıl, 1 gümüş və 2 bürünc. Beynəlxalq dərəcəli hakim Emil Qurbanəliyev Çinin Milli Oyunlarına neytral referi kimi iştirak edib. Oktyabrda "World Boxing"in açıqladığı dünya reytinqində təmsilçimiz Alfonso Dominqes öz çəki dərəcəsində 2-ci, Səidcəmşid Cəfərov 3-cü yerdə qərarlaşıblar. Məktəbli boksçularımız isə ardıcıl 3 Avropa birinciliyində medal qazanmaları ilə öyünə bilərlər.

İlin digər yarışları da məhsuldar olub. Serbiyada keçirilmiş Gimnaziada, Bakıdakı ənənəvi İpək yolu beynəlxalq turniri, ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş yeniyetmələr arasında beynəlxalq yarış və s. bu qəbildəndir. May ayında ABF "World Boxing"ə üzv qəbul olunub.

Boks ilinin son akkordu Bakı Şəhər Gənclər və İdman İdarəsinin və Azərbaycan Boks Federasiyasının birgə təşkilatçılığı ilə 85 yaşlı Əməkdar bədən tərbiyəsi və idman xadimi, Əməkdar elm xadimi, "Şöhrət", "Şərəf" və I dərəcəli "Vətənə xidmətə görə" ordenli, professor Ağacan Abiyevin şərəfinə keçirilən turnirlə vurulub. Ağacan Abiyevin rəmzi olaraq "qonq"u vurması ilə mübarizəyə start verilib. Turnir çərçivəsində 17 çəki dərəcəsi üzrə döyüşlər izlənilib. Dekabrın 19-də final döyüşləri olub. Qalib və mükafatçılara diplom, medal və hədiyyələr, ən çox fərqlənən komandalara kuboklar təqdim olunub. Turnir Azərbaycan boksunun inkişafına, gənc idmançıların idman təcrübəsinin artırılmasına və sağlam rəqabət mühitinin formalaşmasına xidmət edib.

Dəri əlcək ustalarımızın uğurlarında dövlətimizin diqqət və qayğısı ilə bərabər, Azərbaycan Boks Federasiyasının rəsmi tərəfdaşlarının da dəstəyi xüsusi qeyd edilməlidir.

***Əli DOSTƏLİ***
***XQ***

# Azərbaycan şahmatının yüksəlişi davam edir



**Dekabrın 22-də Azərbaycan Şahmat Federasiyasının 2025-ci il idman mövsümünün yekunlarına həsr olunmuş mərasim keçirilib.**

"Alov Qülləri, Fairmont Baku Hotel"də keçirilən məclisdə Azərbaycan Şahmat Federasiyasının prezidenti, Beynəlxalq Şahmat Federasiyasının (FIDE) vitse-prezidenti Mahir Məmmədov çıxış edərək federasiyanın 2025-ci ildə əldə etdiyi uğurlardan danışıb.

O bildirib ki, 2025-ci il şahmatçılarımız üçün zəngin və məhsuldar il olub, mühüm nəticələr qazanılıb. İl Azərbaycan çempionatı ilə başlayıb ki, bu yarış idmançıların hazırlığında və milli komandanın formalaşmasında vacib rol oynayır. Qadınlar arasında Günay Məmmədzadə, kişilər arasında isə Rauf Məmmədov Azərbaycan çempionu adını qazanıblar.

Şahmatçıların yarış təcrübəsinin artırılması və daha keyfiyyətli hazırlığı üçün "Azerbaijan Chess Tour" layihəsinin yaradıldığını qeyd edən federasiya rəhbəri bu layihənin mərkəzində ənənəvi Baku Open turnirinin dayandığını vurğulayıb. Mahir Məmmədov şahmatçılarımızın il ərzində müxtəlif beynəlxalq yarışlarda əldə etdikləri uğurlardan danışaraq, onlara qarşıdakı ildə də nailiyyətlər arzulayıb.

Gənclər və idman naziri Fərid Qayıbov çıxışında şahmatçılarımızın il ərzində böyük uğurlara imza atdıqlarını bildirib: "Dövlətin şahmata və ümumilikdə idmana dəstəyi böyükdür. Bu qədər gözəl nəticələrə şahidlik edirik. İlk növbədə federasiya rəhbərliyinə təşəkkür edirəm. Bu idman növündə güclü ənənələrimiz var və onları qoruyub saxlamaq vacibdir. Qadınların Dünya çempionatında gümüş medal qazanması böyük nailiyyətdir. Kişilərin Avropa çempionatında gümüş medal əldə etməsini isə şahmatsevərlər bir qədər çətin qəbul etdilər, çünki qızıl medal gözləyirdilər. Bu da şahmatın ölkəmizdə nə qədər inkişaf etdiyini göstərir. Düşünürəm ki, növbəti illərdə Şahmat Olimpiadasında da medallar qazanacağıq".

Mərasimin sonunda beynəlxalq yarışlarda, Avropa və Dünya çempionatlarında uğurla çıxış etmiş Azərbaycan şahmatçılarına diplomlar və pul mükafatları təqdim olunub.

Gənclər və İdman Nazirliyi, Azərbaycan Şahmat Federasiyası və Respublika Şahmat Mərkəzi arasında Mərkəzdən birgə istifadəni nəzərdə tutan əməkdaşlıq müqaviləsi imzalanıb. Sənədi gənclər və idman naziri Fərid Qayıbov, AŞF-nin prezidenti Mahir Məmmədov və Respublika Şahmat Mərkəzinin direktoru Elşən Məmmədov imzalayıblar. Eyni zamanda, Azərbaycan Şahmat Federasiyası ilə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi arasında niyyət protokolu təsdiqlənib. Protokola AŞF prezidenti Mahir Məmmədov və Agentliyin direktoru Eşqi Bağırov imza atıblar.

Mərasimdən sonra milli komandanın məşqçiləri və üzvlərindən 2025-ci ildə komandanın çıxışları və qarşıdakı ildən gözləntiləri barədə "Xalq qəzeti"nə müsahibə vermələrini xahiş etdik.

**Qadın şahmatçılar üzrə Azərbaycan millisinin məşqçisi, qrossmeyster Qədir Hüseynov:**

– Mən və Nicat Abbasov qadın millisinin məşqçiləri kimi təxminən altı ay əvvəl hazırlıqlara başladıq. Dünya çempionatına hazırlaşmaq üçün, açıq desək, vaxtımız yetərli deyildi. Buna baxmayaraq, İspaniyanın Linares şəhərində keçirilən Dünya çempionatında qadın millimiz tarixində ilk dəfə gümüş medal qazandı. Yarımfinalda Qazaxıstanı məğlub edən komandamız finalda FIDE komandasına uduzaraq dünya ikincisi oldu. Etiraf edim ki, bu nəticəni əvvəlcədən gözləmirdik.

Birinci lövhədə çıxış edən Ülviyyə Fətəliyeva göstərdiyi yüksək nəticəyə görə fərdi hesabda qızıl medal qazanıb. O, 2024-cü ildə qadınlar arasında Avropa çempionu tituluna da layiq görülüb. Gələn il əsas hədəfimiz Səmərqənddə keçiriləcək Şahmat Olimpiadasına ciddi hazırlaşmaq və qadın millisinin bu nailiyyətini daha da yüksəltməkdir. Komandada istedadlı şahmatçılar var və onların potensialı Azərbaycan şahmatının dünyada tanıdılmasına ciddi töhfə verə bilər. Mən də qadın millisinin məşqçilərindən biri kimi fəaliyyətimi bu istiqamətdə davam etdirməyin ölkə şahmatının inkişafına daha faydalı olacağını düşünürəm.

**Azərbaycan milli komandasının üzvü, qrossmeyster Aydın Süleymanlı:**

– Avropa çempionatına komanda olaraq yaxşı hazırlaşmışdıq. Gürcüstana vaxtından əvvəl yollanaraq orada təlim-məşq toplanışı keçirdik. Komandanın kapitanı Teymur Rəcəbovun rəhbərliyi ilə intensiv məşqlər apardıq və hamımız yüksək nəticə göstərəcəyimizə inanırdıq. Məqsədimiz qızıl medal idi. Lakin son turda Serbiya millisinə məğlub olaraq çempionatı gümüş medallarla başa vurduq.

Qarşıdan gələn il üçün hədəflərimiz böyükdür. Əsas məqsədimiz 2026-cı il sentyabrın 15-dən 28-dək Özbəkistanın Səmərqənd şəhərində keçiriləcək 46-cı Şahmat Olimpiadasında uğurla çıxış etməkdir. Olimpiada şahmatda dünyanın ən mötəbər komanda yarışıdır və indiyədək Azərbaycan millisi bu yarışda medal qazanmayıb. Məqsədimiz Səmərqənddə ilk Olimpiya medalımızı əldə edərək azarkeşlərimizi sevindirməkdir.

Fərdi yarışlara gəlincə, 2026-cı il yanvarın 16-dan fevralın 1-dək Niderlandın Veyk-an-Zee şəhərində keçiriləcək Tata Steel Chess turnirində iştirak edəcəyəm. Cari ildə həmin turnirdə gümüş medal qazanmışdım. Növbəti yarışda isə daha yaxşı nəticə göstərərək qızıl medal əldə etmək niyyətindəyəm. Bundan başqa, Azərbaycan çempionatı və digər beynəlxalq turnirlərdə də çıxış etməyi planlaşdırıram.

**Qadınlardan ibarət Azərbaycan yığma komandasının üzvü, qrossmeyster Gülnar Məmmədova:**

– İlk növbədə Azərbaycan Şahmat Federasiyasının rəhbərliyinə təşəkkürümü bildirmək istəyirəm. Həm komanda, həm də fərdi yarışlarda bizə göstərilən dəstək, hazırlıq prosesində ən xırda detallara qədər diqqət yetirilməsi bizi çox sevindirir. Hər bir şahmatçı fərdi məşqçi ilə təmin olunub ki, bu da nəticələrimizin yüksəlməsində mühüm rol oynayır.

İspaniyada keçirilən son Dünya çempionatında komandamızın çıxışını yüksək qiymətləndirirəm. Doğrudur, turnirə hazırlıq üçün çox az vaxtımız var idi. Buna baxmayaraq, il ərzində keçdiyimiz fərdi hazırlıq və iştirak etdiyimiz yarışlar öz bəhrəsini verdi və Dünya çempionatını gümüş medallarla başa vurduq. Bu, komandamız tarixində ən böyük nailiyyətdir.

Məşqçilərimizin, komanda yoldaşlarımızın birgə səyi və federasiya rəhbərliyinin dəstəyi ilə inanıram ki, Azərbaycan şahmatçıları qarşıdakı illərdə daha böyük uğurlar əldə edəcəklər. Hazırda komandamız növbəti Şahmat Olimpiadasına hazırlaşır. 2025-ci il dekabrın 26-dan 30-dək Dohada (Qətər) sürətli şahmat (rapid) və blits üzrə Dünya çempionatı keçiriləcək və mən də bu yarışlarda Azərbaycanı təmsil edəcəyəm. Ümid edirəm ki, qazandığımız uğurlarla bayram ərəfəsində xalqımızı sevindirəcəyik.

***Qabil ƏLİYEV***
***XQ***

*"Şəhərsalma və Memarlıq İli" – 2026*

# Tərəqqi və yüksəlişin davamı – "Şəhərsalma və Memarlıq İli"

## *Təqvimdə bu təyinat quruculuq və abadlığın irimiqyaslı hədəfini ifadə edir*

**Prezident İlham Əliyevin 22 dekabr 2025-ci il tarixli Sərəncamı ilə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ölkəmizin sosial-iqtisadi, mədəni və strateji inkişaf xəttində mühüm mərhələ kimi böyük əhəmiyyət daşıyır. Bu qərar memarlıq sahəsinə diqqətin artırılması ilə bərabər, eyni zamanda, Azərbaycan dövlətinin tarixi irsin qorunması, müasir urbanizasiya çağırışlarına cavab verən şəhər mühitinin formalaşdırılması və dayanıqlı inkişaf məqsədlərinə sadiqliyinin ifadəsidir.**






Azərbaycan şəhərsalma və memarlıq mədəniyyəti minilliklər boyu formalaşmış zəngin tarixi irsə əsaslanır. İpək Yolu üzərində yerləşən şəhərlərimiz – Gəncə, Şamaxı, Naxçıvan, Bakı, Şəki və digər mərkəzlər tarixən ticarət, sənətkarlıq və mədəniyyət ocaqları kimi Şərq və Qərb sivilizasiyalarını birləşdirən mühüm məkanlar olub. Bu şəhərlərin planlaşdırma quruluşu və memarlıq siması milli mədəniyyətimizin dərin qatlarını bugünədək yaşadıb.

Ölkə ərazisində mühafizə olunan qalalar, karvansaralar, məscidlər, türbələr və körpülər Azərbaycan memarlıq məktəbinin kamil bədii-estetik səviyyəsini nümayiş etdirir. Möminə xatun türbəsi, Xudafərin körpüləri, Atəşgah kompleksi kimi abidələr təkcə milli deyil, həm də bəşəri mədəniyyətin ayrılmaz hissəsi kimi qəbul olunur. Azərbaycan şəhərsalma və memarlıq irsinin beynəlxalq səviyyədə tanınmasının ən parlaq göstəricilərindən biri UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş abidələrdir. İçərişəhər və Şirvanşahlar Sarayı Kompleksi, Qız qalası, Şəkinin tarixi mərkəzi və Xan Sarayı qədim və orta əsr şəhər mədəniyyətinin canlı nümunələri kimi dünya miqyasında böyük dəyərə malikdir.

2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı Sərəncamda vurğulandığı kimi, 900 illiyi UNESCO çərçivəsində qeyd olunan dahi memar Əcəmi Naxçıvaninin yaradıcılığı da Azərbaycan memarlığının təkcə regional deyil, həm də Yaxın Şərq memarlıq tarixində həlledici rol oynadığını təsdiqləyir. Onun formalaşdırdığı memarlıq məktəbi funksionallıqla estetik kamilliyi ustalıqla birləşdirən nadir sənət zirvəsidir. 900 illik yubileyləri UNESCO çərçivəsində keçirilən böyük şəxsiyyətlər siyahısına daxil olunan qüdrətli sənətkar Əcəmi Naxçıvaninin Azərbaycan və Yaxın Şərq ölkələrinin Orta əsrlər memarlığına güclü təsir göstərmiş yaradıcılığı dövrün memarlıq məktəbinin ən yüksək zirvəsidir.

Azərbaycan şəhərlərinin planlaşdırma quruluşunda və memarlıq tərzində artıq XIX əsrin ortalarına doğru müəyyən dəyişikliklər öz əksini tapıb. Sürətlə sənayeləşən Bakı şəhəri Şərq və Qərb memarlığının sintezində qədimliklə müasirliyin vəhdətindəki təkrarsız görkəmini məhz həmin vaxtlardan almağa başlayıb.

Onu da qeyd edək ki, XIX əsrin ortalarından etibarən Azərbaycanın şəhərsalma strukturunda mühüm dəyişikliklər baş verib. Sürətli sənayeləşmə Bakını regionun aparıcı şəhərinə çevirməklə yanaşı, onun memarlıq simasında da unikal sintez yaradıb. Neft bumu dövründə inşa edilən binalar Şərq ornamentləri ilə Avropa klassik üslubunu birləşdirərək paytaxt mühitinin problemlərini tədqiq edən, layihələndirən və həllər tapan innovativ bir mərkəzə çevirib. XX əsrdə isə milli memarlıq ənənələrinin yaradıcı şəkildə tətbiqi xüsusi əhəmiyyət kəsb edib, Mikayıl Hüseynov və Sadıq Dadaşov kimi görkəmli memarların fəaliyyəti nəticəsində milli üsluba əsaslanan müasir memarlıq formalaşıb.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə şəhərsalma və memarlıq sahəsində köklü dönüş baş verib. Tarixi şəhər mühitinin qorunması, memarlıq abidələrinin bərpası, şəhərsalma fəaliyyətinin hüquqi və institusional əsaslarının möhkəmləndirilməsi məhz həmin illərdə dövlət siyasətinin əsas istiqamətlərindən biri olub. Bu yanaşma müasir dövrdə həyata keçirilən genişmiqyaslı layihələr üçün möhkəm təməl yaradıb.

Sərəncamda qeyd edildiyi kimi, ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər Azərbaycan şəhərsalma və memarlığının inkişafında xüsusi mərhələ təşkil edir. Tarixən təşəkkül tapmış Azərbaycan şəhərlərinin və bütöv şəhərsalma sistemlərinin qorunması ilə bağlı bu illərdə dahi şəxsiyyətin təşəbbüsü əsasında vacib qərarlar qəbul olunub, tədbirlər həyata keçirilib, şəhərlərdə memarlıq abidələrinin bərpası üzrə planlı iş aparılıb, memarlıq və şəhərsalma fəaliyyətinin davamlılığını gerçəkləşdirən institusional təsisatlar qurulub.

Müstəqillik illərində isə Azərbaycan şəhərsalması keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Heydər Əliyev Mərkəzi, Alov Qüllələri, Bakı Ağ Şəhər layihələri kimi monumental komplekslər müasir memarlığın milli kimliklə vəhdətinin parlaq nümunələri kimi diqqət çəkib. Bu layihələr təkcə estetik deyil, eyni zamanda, sosial baxımdan şəhər mühitinin keyfiyyətini yüksəldib.

Bu dövrdə paytaxtla yanaşı, regionlarda da şəhər və qəsəbələrin siması əsaslı şəkildə dəyişib, tarazlı regional inkişaf konsepsiyası real nəticələrlə müşayiət olunub. 44 günlük Vətən müharibəsindən sonra düşməndən təmizlənən ərazilərdə həyata keçirilən bərpa layihələri isə Azərbaycan şəhərsalma tarixində unikal nümunələrə çevrilib. Qısa müddətdə onlarla şəhər və kənd üzrə planlaşdırma sənədlərinin hazırlanması, "yaşıl enerji" və "ağıllı" şəhər konsepsiyalarının tətbiq edilməsi ilə ölkəmizin innovativ şəhərsalma baxışı müəyyənləşib. Şuşa şəhərinin tarixi memarlıq simasının bərpası isə milli iradənin, tarixi ədalətin və mədəni yaddaşın təntənəsi kimi memarlıq tariximizə qızıl hərflərlə yazılıb.

Prezident İlham Əliyevin 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı Sərəncamında da bu məsələyə xüsusi toxunulub. Sənəddə bildirilir ki, Ermənistanın işğal etdiyi və 30 il ərzində viran qoyduğu ərazilərimizdə 44 günlük Vətən müharibəsindəki tarixi Zəfərin ardınca innovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı bərpa-quruculuq layihələri Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışının aydın nümayişinə çevrilib.

Böyük Qayıdışa dair I Dövlət Proqramına müvafiq qaydada "yaşıl enerji" zonası elan edilən bu ərazilərdə 2020–2025-ci illərdə – dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir müddətdə 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanıb və quruculuq işlərinə başlanılıb. Azərbaycanın mədəniyyət paytaxtı, xalqımızın qürur mənbəyi Şuşa şəhərinin əvvəlki memarlıq mühiti və əsl tarixi simasının bərpa edilməklə dirçəldilməsi isə beynəlxalq aləmdə milli iradənin təzahürü kimi yüksək dəyərləndirilib.

Azərbaycan bu gün iqlim dəyişmələri, urbanizasiya və dayanıqlı məskunlaşma kimi qlobal çağırışların həllində etibarlı tərəfdaş kimi çıxış edir. UN-Habitat ilə əməkdaşlıq, milli şəhərsalma forumları və 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) ölkəmizin beynəlxalq nüfuzunun və bu sahədə artan rolunun göstəricisidir.

Beləliklə, 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi Azərbaycan üçün keçmişlə gələcək arasında strateji körpü rolunu oynayacaq. "Şəhərsalma və Memarlıq İli" çərçivəsində həyata keçiriləcək təşəbbüslər tarixi irsin qorunması ilə yanaşı, müasir, dayanıqlı və insan mərkəzli şəhər modelinin formalaşmasına xidmət edəcək. Bununla da Azərbaycan şəhərləri yalnız yaşayış məkanı deyil, milli kimliyin, mədəniyyətin və innovasiyanın daşıyıcısı kimi inkişaf yolunu davam etdirəcək.

***V.BİNYATOĞLU***
***XQ***

*Araşdırma*

# Yeni ilin "şirin hədiyyə"ləri küçələrdə gəl-gəl deyir

## *AQTA isə bildirir ki, bu əlvan qutular keyfiyyətsiz mallarla doldurulub*

**Yeni il bayramı cəmiyyətin bütün təbəqələri üçün bol sevinc və yeni ümid məqamı sayılsa da, bu dövrdə uşaqlar üçün hazırlanan şirniyyat hədiyyələri ilə bağlı yaranan təhlükəyə kifayət qədər diqqət yetirilmir. Cəlbedici dizayn, aşağı qiymətlər, bayramın məişət qayğıları, həm də məlumatsızlıq bu bəlanı görməyə imkan vermir. Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əhaliyə son müraciəti də göstərir ki, Yeni il ərəfəsində qida təhlükəsizliyi məsələsi xüsusi nəzarət və ictimai diqqət tələb edir.**



Müraciətdə bildirilir ki, uşaqlar üçün nəzərdə tutulan Yeni il hədiyyə qutuları yalnız mağazalar, yarmarkalar və digər rəsmi satış yerlərindən alınmalıdır. Eyni zamanda, qeyd edilir ki, bəzi hallarda qutunun üzərində göstərilən tarix içərisindəki məhsulların deyil, qablaşdırmanın tarixini göstərir. Ona görə də istehlakçılara qutudakı məhsulların etiket məlumatlarına da ciddi diqqət yetirmələri tövsiyə olunur.

AQTA yuxarıda sadalananlarla yanaşı, hədiyyə qutularının qablaşdırılmasının deformasiyaya uğramamasına, əzilməməsinə və korlanmamasına önəm verilməsi zəruriliyini də diqqətə çatdırır. Eləcə də xüsusi saxlanma şəraiti tələb edən, müvafiq temperatur rejimi qorunmadıqda tez sıradan çıxan yoqurtlar, kremli qənnadı məhsulları və kəsmik içlikli məmulatların bu cür qutulara yerləşdirilməsinin məqsədəuyğun olmamasını da xatırladır.

**Qida təhlükəsizliyi üzrə ekspert Yunis Hüseynovun** sözlərinə görə, bayram ərəfəsində şirniyyat qutularına tələbat kəskin artır. Bu isə bazarda həm rəsmi, həm də qeyri-rəsmi satış kanallarının fəallaşmasına gətirib çıxarır. Buna görə də küçə ticarəti, müvəqqəti fəaliyyət göstərən köşklər və sosial şəbəkələr üzərindən aparılan nəzarətsiz satışlar qida təhlükəsizliyi baxımından ciddi risk mənbəyi olaraq narahatlıq doğurur. AQTA-nın "yalnız rəsmi satış yerlərindən alış" çağırışı da məhz bu boşluqların qarşısını almaq məqsədi daşıyır. Çünki rəsmi satış məntəqələrində məhsulların saxlanma şəraiti, mənşə sənədləri və uyğunluq göstəriciləri müəyyən qədər yoxlanılsa da, qeyri-rəsmi bazarda bu mexanizmlərin tətbiqi, demək olar ki, nəzərə çarpmır. Nəticədə istehlakçı bayram hədiyyəsi aldığını düşünərkən, əslində, riskli məhsulu evinə daşıyır.

### İstehlakçı hüquqları və ictimai məsuliyyət

**Ekspert Xəlil İmamverdiyev** bildirir ki, süd məhsulları və kremli qənnadı məmulatları risk qrupuna daxildir. Yoqurtlar, kəsmik içlikli şirniyyatlar və krem əsaslı məhsullar xüsusi saxlanma şəraiti tələb edir. Müvafiq temperatur rejimi qorunmadıqda bu məhsullar qısa müddətdə xarab olur. Belə məhsulların Yeni il hədiyyə qutularına yerləşdirilməsi, xüsusilə açıq şəkildə satışda olduqda, qida təhlükəsizliyi baxımından məqsədəuyğun sayılmır.

Bu məsələdə məsuliyyət təkcə nəzarət orqanlarının üzərinə düşmür. İstehlakçılar da daha diqqətli və tələbkar olmalıdırlar. Valideynlər üçün əsas prioritet uşaqların sevinci ilə yanaşı, onların sağlamlığının qorunmasıdır. Hər bir istehlakçı bilməlidir ki, şübhəli məhsulu almaqla öz ailəsinin həyatına təhlükə yaradır, eyni zamanda, bazarda keyfiyyətsiz məhsulların dövriyyəsinə dəstək verir. AQTA-nın müraciətində haqlı olaraq bəzi Yeni il hədiyyə qutularında göstərilən tarixlərin qutunun içindəki məhsullara deyil, təkcə qablaşdırmaya aid olduğu bildirilir. Bunun isə istehlakçı hüquqlarının pozulması ilə yanaşı, açıq şəkildə manipulyasiya elementi daşıdığı vurğulanır.

Xəlil İmamverdiyev qeyd edir ki, valideynlərin böyük əksəriyyəti qutunun üzərində yazılan tarixə güvənir və içəridəki məhsulların ayrıca etiketlərini yoxlamır. Halbuki hər bir məhsulun üzərində istehsal tarixi, yararlılıq müddəti, məhsulun tam adı, əmtəə nişanı, xalis çəkisi, qida dəyərliyi, istehsalçı müəssisənin adı və ünvanı aydın, silinməz və oxunaqlı şəkildə göstərilməlidir. Bu məlumatların yazılmaması isə məhsulun təhlükəsizliyinə dair ciddi şübhələr yaradır və istehlakçı üçün açıq risk siqnalıdır.

Qida təhlükəsizliyi təkcə son istifadə tarixi ilə ölçülmür. Eyni zamanda, hədiyyə qutularının deformasiyaya uğraması, əzilməsi və ya qismən açıq vəziyyətdə olması da mikrobioloji çirklənmə riskini artırır. Xüsusilə uzun müddət açıq şəraitdə saxlanılan qutuların yeri bayramdan əvvəl bir neçə dəfə dəyişdirilir, daşınır və uyğun olmayan temperaturda qalır. Bu isə xüsusilə uşaqlar üçün təhlükəlidir. Çünki uşaq orqanizmi zərərli bakteriyalara və toksinlərə qarşı daha həssasdır və yüngül qida zəhərlənməsi belə ciddi fəsadlara səbəb olur.

AQTA-nın müraciətində xüsusi saxlanma şəraiti tələb edən məhsullara diqqət çəkilməsi təsadüfi deyil. Belə ki, yoqurtlar, kremli qənnadı məmulatları və kəsmik içlikli şirniyyatlar "soyuq zəncir" adlanan temperatur rejimi qorunmadıqda çox qısa müddətdə xarab olur. Bu cür məhsulların Yeni il hədiyyə qutularına yerləşdirilməsi qida təhlükəsizliyi baxımından ciddi nöqsan hesab edilir. Eyni zamanda, belə məhsulların hədiyyə qutularında yer alması daha çox kommersiya maraqlarından irəli gəlir. Halbuki bu cür yanaşma ilə uşaqların sağlamlığı risk vəziyyətilə üz-üzə qalır və sosial məsuliyyət prinsiplərinə uyğun gəlmir.

### Etiket pozuntuları və hüquqi məsuliyyət

Bəs bu barədə qanunvericilik nə deyir? Azərbaycan Respublikasında qida təhlükəsizliyi sahəsində əsas normativ baza bir neçə fundamental sənədə söykənir. İlk növbədə, "Qida təhlükəsizliyi haqqında" Qanun bu sahədə əsas çərçivəni müəyyən edir. Qanuna əsasən, dövriyyəyə buraxılan bütün qida məhsulları insan sağlamlığı üçün təhlükəsiz olmalıdır. Məhsulun mənşəyi, tərkibi, istehsal tarixi və yararlılıq müddəti barədə istehlakçıya dəqiq və doğru məlumat verilməsi məcburidir. Qida məhsullarının saxlanma və daşınma şəraiti normativ tələblərə uyğun gəlməlidir. Bu tələblərin pozulması isə, sadəcə, etik məsələ deyil, həm də qanun pozuntusu sayılır.

"İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanun da istehlakçının təhlükəsiz məhsul almaq hüququnu təsbit edir. Bu sənədə görə, istehlakçı sağlamlığı üçün təhlükə yaradan məhsuldan qorunmaq, məhsul haqqında düzgün və dolğun məlumat almaq və aldadılmadan alış etmək hüququna malikdir. Hədiyyə qutularında qablaşdırma tarixinin məhsul tarixi kimi təqdim olunması isə istehlakçının açıq şəkildə çaşdırılması deməkdir və bu qanunun tələblərinə ziddir. Qanunvericiliyə əsasən, qida məhsulunun üzərində məhsulun adı, istehsal və son istifadə tarixi, xalis çəkisi, qida dəyərliliyi, istehsalçı müəssisənin adı və ünvanı, saxlanma şərtləri kimi məlumatlar mütləq göstərilməlidir. Bu məlumatların olmaması, oxunmaması və ya istehlakçını çaşdıracaq formada təqdim edilməsi etiketləmə qaydalarının pozulması kimi qiymətləndirilməlidir. Belə hallar aşkarlanarkən AQTA tərəfindən məhsulların satışdan dərhal yığışdırılması, istehsalçı və ya satıcıya inzibati protokol tərtib olunması, təkrar hallarda daha ağır sanksiyaların tətbiqi nəzərdə tutulur.

Son illərin hadisələri göstərir ki, bayram ərəfəsində aparılan yoxlamalar zamanı onlarla obyektə qarşı inzibati tədbirlər görülür. Etiketlənməyən, son istifadə tarixi keçmiş və ya düzgün saxlanmayan şirniyyat məhsulları dövriyyədən çıxarılır. Bu fakt bir daha sübut edir ki, bayram mövsümü nəzarətin zəiflədiyi dövr deyil, əksinə, risklərin artdığı mərhələdir. Qanunvericilik isə sahibkara seçim imkanı vermir: ya tələblərə əməl etməli, ya da cərimə və reputasiya itkisi ilə üzləşməlidir.

### Valideyn ayıqlığı – satıcı məsuliyyəti

Bu problemin həlli yalnız nəzarət orqanlarının fəaliyyəti ilə məhdudlaşmır. Burada üç əsas tərəfin – dövlət, sahibkar və istehlakçının məsuliyyəti paralel şəkildə ön plana çıxır. Başqa sözlə, dövlət nəzarət mexanizmlərini gücləndirməli, mövsümi yoxlamaları artırmalı və qanun pozuntularına qarşı prinsipial mövqe sərgiləməlidir. Sahibkar qısamüddətli qazanc naminə riskli məhsulları dövriyyəyə buraxmaqdan çəkinməli, uşaqlar üçün nəzərdə tutulan qidalarda keyfiyyəti prioritet saymalıdır. Valideyn isə qiymət və görünüşdən daha çox təhlükəsizlik meyarlarını əsas götürməli, şübhəli məhsullardan imtina etməlidir.

Beləliklə, Yeni il hədiyyə qutuları uşaqlar üçün sağlamlıq problemi yox, sevinc mənbəyi olmalıdır. Bu baxımdan, AQTA-nın müraciəti cəmiyyət üçün açıq xəbərdarlıq xarakteri daşıyır: bayram ab-havası ayıqlığı itirməyə əsas verməməlidir. Sağlamlıqla bağlı risklər gözə görünməsə də, nəticələri çox vaxt ağır olur. Əgər Yeni il sevincinin uzunömürlü olmasını istəyiriksə, bunun əsasında təhlükəsiz qida, məsuliyyətli ticarət və şüurlu istehlak dayanmalıdır. Yalnız bu halda bayram hədiyyələri uşaqlar üçün həqiqi sevinc, valideynlər üçün isə rahatlıq mənbəyinə çevrilə bilər.

***Vaqif BAYRAMOV***
***XQ***

*Ekspert rəyi*



**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**

**Yeni il hədiyyələri ilə bağlı bayramdan sonra rəhbərlik etdiyim quruma zəhərlənmələr, ürəkbulanmalar, mədə-bağırsaq xəstəlikləri və s. hallarla bağlı şikayətlər daxil olur. Təəssüf ki, ildən-ilə vəziyyət nisbətən yaxşılaşsa da, problem köklü şəkildə aradan qalxmır.**

Bir vaxtlar geniş yayılmış hallardan biri vaxtı keçmiş məhsulların istehlakçılara Yeni il hədiyyəsi adı altında satılması idi. Bu, hazırda da davam edir. Valideynlər bu cür hədiyyələri alarkən daha çox şənliyə baxır, uşaqlar isə həmin məhsulları istehlak edirlər və nəticədə problemlər yaranır.

İstehlakçının məhsul alarkən onun istehsal və son istifadə tarixinə diqqət yetirməsi hüququ var. Qutunun içərisindəki məhsulların üzərində buraxılış tarixi və son istifadə müddəti göstərilmirsə, həmin malların geri qaytarılması məqsədəuyğundur. Lakin bəzi konfetlərin üzərində bu məlumatlar, ümumiyyətlə, olmur. Etiketlərin ölçüsü kiçik olduğu üçün istehlakçılar onları yoxlamaqda çətinlik çəkirlər.

Bu problem illərdir ki, davam edir. Buna görə də valideynlər belə məhsulları alarkən xüsusilə diqqətli olmalıdırlar. Hər hansı problemlə üzləşdikdə isə 1003 qaynar xətti vasitəsilə Qida Təhlükəsizliyi Agentliyinə məlumat vermələri tövsiyə edilir.

# Döyüş dostluğunun öyünclü ünvanı

## *Milli qəhrəmanların unuda bilmədiyi şəhid kəşfiyyatçı*



**Həyat sübut edib ki, ağır günün dostluğu daha etibarlı olur. Əslində, dost dar günündə səni tək qoymayan insandır. Qanlı savaş günlərinin dostluğu isə ən yüksəkdə dayanır.**

Gecə-gündüz, qar-yağış, dərə-təpə, meşə-düzən bilmədən, yastıqları daş, yorğanları ağac budaqları, döşəkləri torpaq olan, atəş səsinə oyanan igidlərimiz var ki, öz döyüş yollarından yox, daha çox şəhid olan komandirlərindən danışmağı özlərinə borc bilirlər. Həmsöhbətlərim XTQ mənsubları – Vətən Müharibəsi Qəhrəmanı Saleh Həsənov, polkovnik-leytenant Zahir Zeynalov və kapitan Əliağa Zeynalov kimi…

Şəhid kapitan Orucov Mühüd Qurban oğlu haqqında söhbətə başlamazdan öncə onu deyək ki, o, 1984-cü il iyul ayının 13-də Qazax rayonunun Fərəhli kəndində doğulub. Orta məktəbdə ilk müəllimi anası Sima Hacıyeva olub və "Ana", "Vətən" sözlərini yazmağı və sevməyi öyrədib. 1999-cu ildən 2002-ci ilədək C.Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. 2002-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub və 2006-cı ildə təhsilini qoşun kəşfiyyatı ixtisası üzrə bitirib. 2006–2007-ci illərdə Silahlı Qüvvələrin Təlim–Tədris Mərkəzinin kurslarında zabit ixtisasına yiyələnib.

2007-ci ildə gənc zabit Müdafiə Nazirliyinin qərarı ilə "N" saylı hərbi hissədə kəşfiyyat bölüyünün kəşfiyyat taqım komandiri vəzifəsinə təyin edilib. Elə həmin ildə öz arzusu ilə Xüsusi Təyinatlı Qüvvələr kursunu keçmək üçün ezam olunub və kursu müvəffəqiyyətlə bitirib. Qısa zamanda Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyat tabor komandiri vəzifəsinədək yüksəlib. 2014-cü ilin avqust ayında uğurlu əməliyyatdan sonra Prezident İlham Əliyev Mühüd Orucovla görüşdə ona qol saatı bağışlayıb.

Kapitan Mühüd Orucov 2016-cı il aprelin 2-dən 3-nə keçən gecə Talış yüksəkliyi uğrunda gedən qızğın döyüşlər zamanı düşmənin atdığı tank mərmisinin partlaması nəticəsində qəhrəmancasına şəhid olub. O, aprelin 9-da doğulduğu Qazax rayonunun Fərəhli kəndində yaylım atəşi altında torpağa tapşırılıb. Mühüd ailəli idi, Anar və Vüqar adlarında əkiz oğlanları yadigar qalıb. Haqqında bu rəsmi məlumatı verdikdən sonra onu şəhidliyə aparan şərəfli döyüş yolundan söz açaq.

Mühid Orucovun uşaqlığı güllə səsləri altında keçib. Onlarca günahsız insanın düşmən gülləsinə tuş gəldiyinə şahid olduğundan, böyüyəndə düşməndən qisas almağı arzu edir. Gün gəlir ki, Mühüd Orucovun istəyinə çatmaq, düşmənə zərbə vurmaq məqamı çatır. Bölüyün kəşfiyyat qrupunun üç zabiti iki gündən bəri hazırlanan xüsusi planı icra etmək üçün düşmən tərəfə keçir. Ancaq nə tabor komandiri kapitan M.Orucovla, nə də digər iki zabitlə əlaqə yaratmaq mümkün olur.

Bu vaxt gecənin zil qaranlığı bir andaca işıqlanır. Bölükdən çıxan alov qaranlığı yara-yara ərşə qalxır. Düşmənin 2-si silahla dolu 3 zirehli maşını partladılır. Tapşırıq yerinə yetirilir. Səhərə yaxın Mühüd və komandası yaxınlıqdakı çayda görünür. Onu qarşılamağa gedən zabit yoldaşları kəşfiyyatçıların boynunu qucaqlayır, onları təbrik edir. M.Orucov Vətənə layiqincə xidmət etməyin, tapşırığı uğurla başa vurmağın sevincini yaşayır.

Mühüd uşaqlıq illərində qonşularının təsərrüfat işlərini görərkən düşmən gülləsinə tuş gəlməsini unuda bilmir. Həmin günlərdə hərbçi olmaq qərarına gəlir. Atası Qurban kişi həmişə igid Azərbaycan əsgərlərinin onları qoruduğundan söz açır. Beləcə, onun ürəyində hərbi formaya sevgi yaranır. Hərbi təhsildən sonra fərdi bacarıqları hesabına tez bir zamanda kapitan rütbəsi alır, tabor komandiri vəzifəsinə yüksəlir. Dəfələrlə hərbi yarışlarda iştirak etmək üçün Türkiyəyə gedir, müxtəlif növ təlimlərdə iştirak edir. Onun bu xidmətləri dövlət tərəfindən də yüksək qiymətləndirilir, dəfələrlə mükafatlandırılır.

Uzun müddət davam edən nisbi sakitlikdən sonra 2014-cü ilin avqust ayında erməni ordusu yenidən təxribata əl atır. Azərbaycan hərb tarixində xüsusi yeri olan Avqust döyüşləri zamanı da Mühüd Orucov ön cəbhədə olur. O, səngərə döyüşlərin qızğın vaxtı çatır. Düşmənin Azərbaycan Ordusuna məxsus postu almaq üçün açdığı yaylım atəşlə postdakı bir neçə zabit yaralanır, əsgərlər şəhid olur. Mühüd Orucov yaylım atəşinə rəğmən posta girib, oradan yaralı zabitləri çıxarmağı bacarır.

Həmin gün Mühüd Orucova xəbər gəlir ki, Ali Baş Komandan İlham Əliyev döyüş bölgəsinə səfər edəcək. Mühüd Orucovun qəlbini sevinc qarışıq həyəcan bürüyür. Prezident İlham Əliyev onunla görüşür, döyüşdə göstərdiyi xüsusi şücaətinə görə, komandan kimi öz adından və Azərbaycan xalqı adından təşəkkür edir. Onun əlini sıxır və gələcək əməliyyatlarda uğurlar arzulayır, xatirə üçün qızıl saat hədiyyə edir.



Aprel döyüşləri yetişir. Erməni tərəfi dayanmadan Azərbaycan Ordusunun cəbhə bölgəsindəki postlarına hücum edir.

Tanklar hər iki tərəfdən strateji əhəmiyyətli postu – Lələtəpəni nişan alır, yaylım atəşi həyata keçirirlər. Hər atəşdə ətrafa bir uğultu çökür, istehkamlar zədələnir. Növbəti zərbədə ağır artilleriyadan atılan mərmilərin qəlpələri kapitanın bədəninə dolur. Mühüd Orucov arzusuna çatır, şəhid olur. O, son ana qədər bu Vətənin bütövlüyü uğrunda döyüşür, onun sayəsində postu qoruyub saxlamaq mümkün olur. Qısa vaxt ərzində döyüş uğurla nəticələnir, hərbi əhəmiyyətli Lələtəpə illər sonra erməni caynağından xilas edilir.

Mühüd Orucov ölümündən sonra Prezidentin fərmanı ilə "İgidliyə görə" medalı ilə təltif edilib. Bununla yanaşı, dövlətimiz şəhidin övladlarının təhsilini öz himayəsinə götürüb. Mühüdün ipoteka ilə aldığı, indi ailəsinin yaşadığı evin banka olan borcu dövlət tərəfindən ödənilib, şəhidin əkiz övladlarına yeni mənzil verilib.

Bu gün Mühüdlə birgə savaş yolu keçən əsl cəngavər olan XTQ üzvləri qonağımızdır. Onlar dostları haqqında yanğı ilə danışırlar. Çətin günün dostları Mühüddən sonra yenə təlimlərdə iştirak etdilər, hərb sənətinin incəliklərini daha dərindən mənimsədilər və Vətən müharibəsində öz döyüşləri ilə Qələbəyə imza atdılar. Bu yerdə 3 dostun, o ağır günlərin 3 alovlardan çıxmış şahidlərini dinləyək.

**Mühüdün döyüş yoldası, Vətən Müharibəsi Qəhrəmanı Saleh Həsənovun bir anı da unudulmayan ölüm-dirim günlərini belə xatırlayır:**



– Şəhid Mühüd Orucovla 2007-ci ildə Xüsusi Təyinatlı Qüvvələr kursunda tanış olmuşuq və o vaxtdan şəhid olana qədər birgə xidmət yolu keçmişik. Mühüd xidmətə başlayandan cəsurluğu, qorxmazlığı, mərdliyi, fiziki və taktiki hazırlığı ilə bütün zabit yoldaşlarına həmişə örnək–nümunə olub. Məhz bu səbəbdən də o, zabit yoldaşlarının arasından ilk olaraq xüsusi əməliyyat taborunun komandiri vəzifəsinə layiq görülmüşdü.

2012–2016-cı illərdə XTQ düşmənin taktiki dərinliklərində çoxlu sayda kəşfiyyat-diversiya əməliyyatları icra edərkən Mühüd ilk tapşırıq alan zabitlərdən oldu. Yetərincə hazırlıqlı olan zabit yoldaşımız həmin illərdə düşmən arxasında çoxlu sayda basqın, pusqu əməliyyatları icra etmişdi. 2015-ci ilin sentyabrında mənimlə birgə Kəlbəcər rayonu istiqamətində düşmənin təminat yolu üzərində minalama pusqusu əməliyyatının icrası zamanı Mühüd yüksək peşəkarlıq nümayiş etdirərək şəxsi heyətini çox çətin hava və relyefə malik olan Koroğlu yüksəkliyindən (3200 metr) keçirərək əməliyyatı uğurla yerinə yetirdi. Mühüdün döyüş ruhuna bələd olan şəxsi heyəti çətin əməliyyatları asanlıqla, mümkünsüzü isə vaxt aparsa belə, icra edirdi.

2016-cı il Aprel döyüşlərində Mühüdün taboru ən çox əməliyyat icra etmiş olduğu üçün hərbi hissənin komandiri şəhid Milli Qəhrəman Murad Mirzəyev onu taboru ilə birlikdə öz yanında ehtiyat kimi saxlamışdı. Biz döyüşərək düşmənin bir neçə postunu ələ keçirdikdən sonra Mühüd komandirə məruzə etdi ki, irəli getmək istəyir və elə də etdi. Mühüd öz heyəti ilə döyüş meydanına girəndə şəxsi heyətə yenidən savaş ruhu gəldi və Talış kəndinin bir neçə yüksəkliyi yenidən azad olundu.

Mühüdün olduğu posta düşmən tanklardan və artilleriyadan dəfələrlə əks-hücum etsə də, Mühüd postu tərk etməyərək döyüşü davam etdirdi. Sayca həddən artıq olan düşmənlə üzbəüz çıxaraq onlara ağır itkilər verdi. Onun bu qəhrəmanlıqlarını görən komandir Milli Qəhrəman Murad Mirzəyev və müavini şəhid Milli Qəhrəman Samid İmanov elə döyüş meydanında "Sən əsl milli qəhrəmansan", – deyə fikir bildirmişdilər. Düşmən Mühüdü yalnız döyüş sursatı bitdikdən sonra şəhid etməyə nail oldu.

Mühüd biz zabitlərin kumiri – millətimizin bitməyən bir sərvəti idi. İllər keçsə də, Mühüdün gözümüzün önündə göstərdiyi qəhrəmanlıqları dilimizdən düşməyəcək, gələcək zabitlərimizə bir dərs–örnək olacaqdır.

**Şəhidin digər döyüş yoldaşı, istefada olan polkovnik-leytenant Zahir Zeynalov isə deyir:**



– Mühid Orucovla tanışlığımız Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbindən başlayıb. Məndən bir kurs aşağı oxumasına baxmayaraq, vaxtaşırı görüşürdük. Məktəbi bitirib ordu sıralarında xidmətə başladıqdan sonra ilk dəfə Xüsusi Təyinatlı Qüvvələrdə (XTQ) qarşılaşdıq. Məlum oldu ki, o da XTQ kursunu müvəffəqiyyətlə bitirib və xidmətini burada davam etdirəcək. Biz fərqli qruplarda olsaq da, eyni bölmədə xidmət edirdik. Ümumiyyətlə, xidməti zərurətlə əlaqədar fərqli vaxtlarda qısa ayrılıqlar olsa da, xidmətimizin böyük hissəsi birlikdə keçib. Bu dövrdə onunla saysız-hesabsız yaddaqalan, xoş xatirələrimiz olub. Xidmət dövründə yaşanan xatirələrdən bəzilərini sizinlə bölüşmək istəyirəm.

Öncə onu deyim ki, 2008-ci il avqustun 31-dən noyabr ayının 15-dək Mühüdlə birlikdə Türkiyə Respublikasında "Komando" kursunda olmuşuq. Kurs müddətində Mühüd çox intizamlı, bacarıqlı, savadlı, yüksək fiziki hazırlığı olan bir zabit kimi tanınmışdı. Verilən tapşırıqların yerinə yetirilməsində yoldaşlarından seçilir və hər zaman təlimlərdə öndə olurdu. Bunun nəticəsidir ki, kursu da yüksək balla birinci olaraq bitirdi.

Yaxşı xatırlayıram ki, kurs müddətində noyabr ayında o dövrdə Türkiyə Respublikasının baş naziri olan Rəcəb Tayyib Ərdoğan kursda olduğumuz "Dağ Komando Okulu"na səfər etmişdi. Mühüdün hazırlığı və yerinə yetirdiyi çalışma onun diqqətini cəlb etmişdi. R.T.Ərdoğan Mühüdü yanına çağırdı, ona "Aslan komando" dedi. Mühidin Azərbaycandan olduğunu biləndən sonra isə əlini onun çiyninə qoyaraq "Azərbaycanlı Aslan" deyə müraciət etdi.

Mühüdlə uzun müddət birlikdə xidmət etməyimizə baxmayaraq, sadəcə, iki döyüş tapşırığında birlikdə olmuşuq. Birincisi, 2014-cü il yanvar ayının 19-dan 20-nə keçən gecə, mənim ilk, Mühüdün növbəti döyüş tapşırığı, ikincisi isə 2016-cı ilin Aprel döyüşlərində – Mühüdün sonuncu, mənim isə növbəti döyüş tapşırığım olub. Bu döyüş tapşırıqlarının ortaq cəhətləri var. Amma mənim üçün əsas iki cəhət unudulmaz və həyati əhəmiyyət kəsb edir. Belə ki, əgər bu tapşırıqlara Mühüdlə getməsəydim, mən indi bu xatirəni danışa bilməzdim.

Qətiyyətlə deyirəm ki, bəli, hər iki tapşırıqda da istər birbaşa, istərsə də dolayı yolla Mühüd mənim həyatımı xilas edib.

Birinci tapşırıqda Mühüd qrup komandiri, mən isə onun müavini idim. Planlamaya uyğun olaraq Mühüd düşmənin təxribatının qarşısını almaq üçün bir neçə nəfərlə düşmən postuna girib oradakı düşmənləri məhv etməli, mən isə yanımda olan bir nəfərlə onları postdan çıxarkən atəşimizlə dəstəkləməli idik.

Hər şey planlandığı kimi oldu, Mühüd düşmənləri məhv etdi, təxribatın qarşısı alındı və qarşı tərəf geri çəkilməyə başladı, biz də öz tapşırığımızın icrasına başladıq, Mühüd mənim çiynimə əlini qoyanda, elə bil, yuxudan ayılıb özümə gəldim. Bu mənim ilk tapşırığım olduğundan və düşmənlə üzüzə dayanıb döyüş aparmağın həyəcanından tərtiblədiyimiz mövqelərdən geri çıxmalı olduğumu unutmuş, eyni məkandan çox atəş açdığımız üçün də düşmən artıq yerimizi müəyyən etmişdi.

Əgər Mühüd gəlib bizi ordan çıxarmasaydı, artıq çox gec olacaqdı. Hətta düşmən atəşi altında geri qayıdarkən döyüş yoldaşlarımızdan biri, gizir Sahil Əbilov əlindəki istifadə olunmamış RPQ-26 qumbaraatanını Mühüdə uzadıb "bunu nə edək?", – dedi. Mühüd bir an belə tərəddüd etməyərək qumbaraatanı onun əlindən alıb, döyüş vəziyyətinə gətirdi, cəld yaxınlıqda olan təpənin üstünə çıxdı və üzərimizə atəş açan düşmən mövqeyinə tərəf atdı. Möhtəşəm bir partlayış oldu və artıq atəş səsləri kəsildi. Öz yüksək döyüş hazırlığı və peşəkarlığı ilə Mühüd nəinki mənim, bütün qrupun şəxsi heyətini xilas etdi.

2016-cı ilin Aprel döyüşlərində isə Mühüdün öz taboru ilə müdafiə etdiyi yüksəkliyə düşmən dəfələrlə hücum edərək ələ keçirmək istəsə də, müvəffəq ola bilmir, əksinə, çox böyük itkilər verərək geri çəkilirdi. Hakim yüksəklikləri ala bilməyəcəyini anlayan düşmən öz canlı qüvvəsi ilə Talış kəndi istiqamətindəki bizim azad etdiyimiz öz döyüş mövqelərinə iriçaplı silahlar, toplar və tanklarla atəş açmağa başladı. Döyüş mövqeyinə düşən birinci mərmidə mən yaralandım və Mühüdün göstərişi ilə təhlükəsiz yerə aparıldım. Mərmilərin ardı-arası kəsilmirdi, növbəti mərmidə Milli Qəhrəman gizir Pəncəli Teymurov şəhid oldu.

Bu qeyri-bərabər gedən döyüşün bizim üçün heç də yaxşı olmayacağını görən Mühüd mənim və Pəncəlinin öz mövqelərimizə təxliyə edilməyimiz üçün göstəriş verdi, özü isə sonu ölüm olacağını bilə-bilə yenə də şəxsi heyəti ilə birgə mövqeyini tərk etmədi. Son nəfəslərinə kimi düşmənlə qeyri-bərabər döyüşdə şəhidlik zirvəsinə ucaldılar.

**Xüsusi təyinatlı qoşunun ehtiyatda olan Qarabağ qazisi, kapitan Əliağa Zeynalov da dostunu dərin hüzn və sevgi ilə xatırlayır:**



– Şəhid Mühüd Orucovla 2001-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə tanış olmuşam. O, bizdən iki kurs yuxarı oxuyurdu, hər gün idman saatlarında Mühüd hamıdan tez gəlir, idman bitdikdən sonra da hamıdan gec gedərdi. Bu, təkcə məsuliyyət deyil, həm də bizə nümunə idi.

Mən və bizim kursun digər kursantları Mühüdü gördükcə, həvəsə gəlir, onun kimi olmaq istədiyimizi ozünə bildirirdik.

O hər məşqdə bizə iradə, nizam-intizam öyrədirdi. Mühüd bir komandir kimi bizim önümüzdə gedirdi. Biz gənc idik, ancaq irəlidəki illərə baxanda bilirdik ki, bir gün bu güc təkcə idman saatlarında, təlimlərdə, dərslərdə yox, Vətənin taleyində lazım olacaq. Mühüd hər zaman bizi başına toplayıb deyərdi: "Harada özün varsan, ora Vətəndir. Vətən ilk növbədə sənin içindən başlamalıdır". Məhz bu sözlərlə bizi formalaşdırırdı. 1 il müddə-



tində bizə öz bilik və bacarığından öyrətdi. 2002-ci ildə Mühüd də Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (AAHM) daxil oldu, aradan keçən 2 il müddətində bizim gözlərimiz daim Mühüdü axtarırdı.

2004-cü ildə mən də Heydər Əliyev adına ali hərbi məktəbə daxil oldum, dərs həftəsinin başladığı ilk gün yenidən Mühüdlə rastlaşdıq. Artıq o zaman Mühüd kəşfiyyatçı ixtisası üzrə təhsilini davam etdirirdi. Bir neçə il keçdikdən sonra Mühüd Ali Hərbi Məktəbi bitirərək ordu sıralarında, sonra XTQ-də xidmətini davam etdirməyə başladı. Mühüd hələ gənc yaşlarından Vətənə xidmət etməyi özünə borc bilmiş, məsuliyyət hissi ilə formalaşmış bir şəxsiyyət idi. XTQ-də xidmətə başladığı ilk günlərdən onun daxilindəki liderlik və soyuqqanlılıq hissi diqqətdən qaçmırdı.

Mən 2010-cu ildə XTQ-də xidmətə başlayanda Mühüd olan tabora göndərildim. Mühüd məni görən zaman zarafatla dedi: "Elə bil məni izləyirsən". İllər keçdikcə, o, bir zabitdən yüzlərlə döyüşçünün etibar etdiyi komandirə çevrildi. Lakin onu komandir edən yalnız rütbəsi deyildi, onu böyük edən qrupunda, taborunda olan şəxsi heyətə böyük qardaş, ata kimi yanaşması idi.

26 mart 2012-ci il sıradan bir gün deyildi, XTQ-ə ilk döyüş tapşırığı gəlmişdi, həmin tapşırığa getmək üçün yuxarı komandanlığa yaxınlaşaraq bu tapşırığı mən öz dəstəmlə etmək istədiyimi bildirdim. Amma yuxarı komandanlığın hansı reaksiya verəcəyini hamı səbirsizliklə gözləyirdi. XTQ-də Mühüdün göstərdiyi nizam-intizam, hərbi biliklərə yiyələnməsi, təlimlərdə yüksək nəticələrin əldə edilməsinin nəticəsi olaraq XTQ-nin ilk döyüş tapşırığı Mühüd Orucova həvalə edildi. Tapşırığı aldıqdan sonra Mühüd dəstəni seçərək təşkilatlandırdı. Mən də bu tapşırıqda öz heyətimlə iştirak etdim.

Tapşırığın XTQ tarixində ilk döyüş tapşırığı olmasına baxmayaraq, kapitan Mühüd Orucovun bilik və bacarığı, qorxmazlıq şücaəti sayəsində dəstənin qarşısına qoyulan tapşırıq çox uğurlu şəkildə yerinə yetirildi. Düşmənə Gədəbəy istiqamətində çoxlu sayda ağır itki verildi. Mühüd bu döyüş əməliyyatlarında ön sırada irəliləyirdi. O heç vaxt arxada getməzdi, heç vaxt özünü başqalarından üstün tutmazdı. Heyəti həmişə deyərdi: "Mühüd döyüşə girəndə elə bil qorxu da geri çəkilirdi". Onun rəhbərliyi ilə keçən əməliyyatlarda döyüşçülər özlərinə daha çox güvənirdilər, hər kəs bilirdi ki, Mühüd onların yanındadır.

Mühüd bir qəhrəman idi, təkcə o günün deyil, gələcək nəsillərin də qəhrəmanıdır. Onun göstərdiyi şücaətlər gənclərə bir örnəkdir. Vətənini sevmək, nəsillərə daşımaq, çətinlikdən qaçmamaq, haqqın yanında dayanmaq cəsarətin simvoluna çevrilib. Mühüd kimi qəhrəmanlar tarix yazmır, tarixin özüdürlər. Onlar göstərirlər ki, Vətəni sevmək yalnız sözlə deyil, fədakarlıqla, əməllə olur. Belə igidlərin varlığı bir xalqın gücüdür, onun sabahına ümiddir.

Mühüd bu gün də döyüş yoldaşlarının yaddaşında bir qoruyucu qəhrəman kimi yaşayır. Onun hekayəsi bitməyib, hər yeni nəsildə, hər vətənpərvər gəncdə yenidən doğulur. O yalnız zabit deyildi, o yalnız komandir deyildi. O yol açan, qaranlıqda işıq olan, döyüşdə qorxuya qalib gələn kəşfiyyat ruhu idi. Mən deyərdim ki, İkinci Qarabağ savaşında, əzəli torpaqlarımızın işğaldan azad edilməsində Mühüd şəxsən fiziki olaraq iştirak edə bilməsə də, birbaşa və danılmaz əməyi mövcuddur. Hətta Şuşaya daxil olan XTQ mənsublarının da əksəriyyətinin döyüşçü kimi yetişməsində, vətənpərvərlik hisslərinin aşılanmasında onun birbaşa rolu olmuşdur.

XTQ-nin ilk döyüş tapşırığından 2016-cı ilin şanlı Aprel döyüşlərinə kimi əfsanəvi komandir kapitan Mühüd Orucovun şəhadətə yüksəldiyi günə kimi bütün döyüş tapşırıqlarında şəxsən özü iştirak edirdi. Edə bilmədiyi döyüş tapşırıqlarında isə komandir və şəxsi heyətə öz bilik və bacarıqlarından paylaşardı ki, tapşırıq uğurlu və itkisiz olsun. Özü tabor komandiri olmağına baxmayaraq, daim kollektivin bütün sevincli və kədərli günlərində onlarla bərabər olardı. Mühüdün daim səsləndirdiyi bir fikri var idi: "Ya general olacağam, ya şəhid!".

Mühüd haqqında dostlarının söhbətlərindən öyrəndim ki, onun rəhbərliyi ilə uğurlu əməliyyatlar çox olub. Bütün hərbi hissələr bilirmiş ki, Mühüd getdiyi tapşırıqdan əliboş qayıtmayacaq... Buna görə ona "Kəşfiyyatın Mixaylosu" adı veriblərmiş. Hər zaman döyüşə və ya əməliyyata hamıdan birinci çıxıb, döyüş bitəndə hamıdan sonra qayıdan Mühüd bu son döyüşündən qayıda bilməyib. Toz dumanı çəkiləndən sonra, arxadakı əsgərlər onu görməyəndə biliblər ki, artıq komandirləri yoxdur... Amma Talış yüksəkliyi əldə edilib.

Mühüd Orucov, Milli qəhrəmanlar – Murad Mirzəyev, Samid İmanov, Pəncəli Teymurov – onların dördü də birlikdə Talış yüksəkliyinin alınması uğrunda ilk döyüş tapşırığını uğurla yerinə yetiriblər. Bu igidlər ilk həmlələrindən düşməndə olan bir neçə postu azad edərək, arxadan gələn heyəti irəli apara bilmişdilər.

***Zərifə HÜSEYNOVA***
***XQ***

*Zəlimxan Yaqub – 75*

# Xalq ruhunun poetik tərcümanı

***Zaman bu kəsiri bitirməliydi,***
***Vaqifi bu günə gətirməliydi,***
***Sazla şerimizi öpüşdürməyə***
***Bir şair Zəlimxan yetirməliydi.***

***Xəlil Rza Ulutürk***



2025-ci ilin son günlərini yaşayırıq. Bu il həm də onunla əlamətdar oldu ki, poeziya vurğunları, zəlimxansevərlər Xalq şairi Zəlimxan Yaqubun anadan olmasının 75 illik yubileyini təntənə ilə qeyd edir. Yubiley münasibətilə müxtəlif səviyyələrdə tədbirlər, BDU-da elmi konfrans keçirildi.

Zəlimxan Yaqub adı, Zəlimxan Yaqub imzası bu gün təkcə Azərbaycanda deyil, türkün ruhu dolaşan hər yerdə sevilir, onun bənzərsiz poeziya nümunələri könüllərə yol tapır. Ona bu sevgini qazandıran möhtəşəm poeziyası ilə yanaşı, həm də bənzərsiz və təkrarsız nitq qabiliyyəti, fenomenal yaddaşı olub. Təsadüfi deyildir ki, "Zəlimxan yeganə şairdir ki, Azərbaycanda heç bir təbliğata ehtiyacı yoxdur", – deyən istiqlal şairimiz Xəlil Rza hələ ötən əsrin 80-ci illərinin əvvəllərində onu sadəcə şair yox, poeziya hökmdarı adlandırır və deyirdi: "Mən Zəlimxanı şeirimizin, poeziyamızın, Azərbaycan xalqının başucalığı hesab edirəm".

AMEA-nın müxbir üzvü, görkəmli filosof Səlahəddin Xəlilov Zəlimxan yaradıcılığını "şeirlə yazılmış poeziya tarixi" adlandırır və deyir: "Bu gün çox az adam tapıla bilər ki, milli tarixi mənin çağdaş müstəviyə gətirilməsi sahəsində Zəlimxanla müqayisə oluna bilsin". Tanınmış media qurucusu, Əməkdar jurnalist Əflatun Amaşov isə bu böyük söz ustadını belə dəyərləndirib: "Zəlimxan Yaqub müasir Azərbaycan poeziyasında sütundur. O, ayrıca mənəvi dəyərdir. O dəyər özü ayrıca dünyadır".

Xalqımız üçün özü də mənəvi dəyər olan Zəlimxan Yaqubun yaradıcılığının ana xəttini də əsasən zaman-zaman ədəbiyyatın əbədi mövzusu olan mənəvi saflıq, təmizlik, daxili gözəllik, Vətənə məhəbbət, torpağa bağlılıq təşkil edir. Xalq yazıçısı İsa Muğanna təsadüfən demirdi ki, "Zəlimxan Yaqub ən kamil insanın ürəyini, vicdanını, təfəkkürünü təmsil edən SƏS-ÜNdür. Göylərdən gəlib, yerdə ən kamili də kamilləşdirməyə qabil olan ustaddır. Zəlimxan Yaqub Azərbaycana töhfə göndərilmiş Uca insandır.

Zəlimxan Yaqub Nəsiminin, Füzulinin, Alının, Ələsgərin varisidir, həm də adi, sadə varis yox, elə bir varisdir ki, onun yaratdığı vərəsə sələflərinin vərəsəsi qədər təkrarolunmazdır. Əbədiyyətdən gələn səs, yer üzünün əbədi səsidir". Dünyanın çirkabını şair sözünün təmizləyəcəyinə inanan Z.Yaqub insanları ülvi hisslərlə, təmiz adla yaşamağa, kindən, küdurətdən uzaq olmağa, mənəvi paklığa çağırır və deyirdi:

***Mən dünyanı durultmağa can atdım,***
***Dünya məni bulandıra bilmədi.***

Şair inanır və oxucusunu da inandırırdı ki, bu qoca dünyada öz əməllərinlə açdığın iz həmişə səndən nişan verəcək. Əgər qəlbini təmiz bir ada versən, xeyirxah əməllərlə yaşasan, unudulmayacaqsan, hər zaman hörmətlə xatırlanacaqsan. Buna görə də Tanrıdan yalnız təmizlik və təmiz ad istəməyi tövsiyə edirdi:

***Təmizlik içində Allahlıq yaşar,***
***Tanrıdan istəsən, təmiz ad istə.***

Daim kindən, küdurətdən, qeybətdən, dedi-qodudan uzaq idi. Hətta şeirlərinin birində özünün də dediyi kimi, ona kinlə, küdurətlə daş atanlara da öz sevgisiylə cavab verir, atılan daşı, nifrəti ayağının altına qoyub, sevgisini hər şeydən baş eləyirdi.

Gülü tikansız, tikanı ziyansız, yalanı ayaqsız, həyatı boyaqsız, ürəyi kədərsiz, sevinci qədərsiz, zamanı silahsız, insanı günahsız, dünyanı azarsız, torpağı məzarsız görmək istəyən Zəlimxan Yaqub insanları qeybətdən, paxıllıqdan uzaq olmağa, kin-küdurətdən, nifrətdən qaçmağa, sevgidən, sevincdən, toydan danışmağa, haram tanımayan əl, yalan danışmayan dil saxlamağa çağırıb hər zaman:

***Hər könül mülkündən bir sərvət gətir,***
***Ruzu, qismət gətir, hərəkət gətir.***
***Yerdən genişlik al, göydən ucalıq,***
***Dinəndə, dilinə təravət gətir,***
***Amandı, dilinə qeybət gətirmə.***

Yalanların, qeybətlərin, dedi-qoduların adamları boğduğunu, Haqqı dananları, xırdalananları, insanın qanını qaraldıb, səbrini daraldanları və çöllərdə gördüyü tülküləri indi şəhərin içində görəndə isə bir anlıq təəssüf hissi yaşayır və yazırdı. Yerin göyü, dağın dağı, daşın daşı sevdiyi, çəmənlərin torpağa xalı çəkdiyi, hər gün sevənlərin doğulduğu dünyada insanları bir-birilərini sevməyə, günahsız gəldiyimiz qoca dünyadan günahkar kimi köçməməyə çağırır:

***Ömür göz qırpımı, fürsət azdısa,***
***Könül son nəfəsdə sınan sazdısa,***
***Uçub əlimizdən gedən yazdısa,***
***Biz niyə sevməyək bir-birimizi.***

Hər kəlməsi bir ağsaqqal öyüd-nəsihəti, hər şeiri hikmət boğçası olan şairin istəyi və tövsiyəsi nə idi: qanqalların içində çiçək ömrü, iblislərin içində mələk ömrü yaşamaq, məkrin odu içində də hiylədən uzaq olmaq, dedi-qodu içində dili təmiz saxlamaq, tamah hərislərinin toruna düşməmək, huşsuzların içində iti yaddaş, "başsızların içində" salamat baş saxlamaq!

Özündənrazıları, başqalarını bəyənməyənləri, ağsaqqala, ağbirçəyə hörmət qoymayanları, təkəbbürü özündən qabaqda gedənləri qınayır və belələrini "adamların arasında sıyrılmış taxta" hesab edirdi.

İnsanları daim ucada görmək istəyir, insan ömrünün qocalığını da bir ucalıq sayır və deyirdi ki, əgər qocalıq Allahın verdiyi ömür payına bağlıdırsa, ucalığı insan gərək zərrə-zərrə, damla-damla hər kəsin özü qazansın. Şairin arzuladığı qocalığa – ucalığa çatmaq üçün isə gərək Vətəndən, torpaqdan, eldən-obadan güc alasan, "hər əsən küləklə yarışmayasan, alçaq əməllərlə barışmayasan".

İnsanları gədələrdən uzaq olub, dədələrin qədrini bilməyə, ağsaqqal öyüd-nəsihətinə qulaq asmağa çağırır, "dədələrdən dünya istəsən verər, amma gədələrdən borc eyləmə", – deyirdi. Çünki:

***Kim gədədi, gədəsindən danışar,***
***Kim dədədi, dədəsindən danışar.***
***Nə dünəni, nə sabahı görməyən***
***Öz vaxtından, vədəsindən danışar.***

İnsanları Haqdan gələn səslərə qulaq verib, "saflıqdan özünə maya" tutmağa, Allah deyən kəslərə qucaq açmağa, dinsizlərin nifrətindən, qəzəbindən, kinindən, dünyanın iblisindən, şeytanından, cinindən uzaq durmağa, çeşmə kimi duru olmağa, varlığını, hissini, duyğusunu tozdan-dumandan qorumağa, şaxta vurmuş barmaqları, buza dönmüş otaqları qızdırmağa çağırıb həmişə.

Yaxşılığın, yaxşıların dünyada əvəzinin olmadığı qənaətindəydi və bu inamla yaşayırdı ki, dünyada yaxşılar çoxdursa, deməli, bu dünyanın axırı deyil hələ. Elin yaddaşına köçə bilməyənlər, gərək eldən yox, özündən küssün, deyirdi. Çünki dünyada hər kəs öz əməllərinin bəhrəsini görür:

***Nəyi səpirsənsə, o verəcək dən,***
***Qanqalın yerində qanqaldır bitən.***
***Bu qoca dünyada heç görmədim mən,***
***Təhqirlər yağdıran təriflər dərə.***

Təəssüf ki, bu gün Zəlimxan Yaqub aramızda deyil. O, cəmi 66 il yaşadı. Sevənlərinin hamısı onun belə az yaşamasına təəssüflənir. Axı, o, daha çox yaşaya bilərdi. Ancaq onun yoxluğu sadəcə cismani yoxluqdur. O, milyonların qəlbindədir. Dünyasını dəyişməsindən keçən bu 10 ildə həm də onun şahidi olduq ki, şair bu qənaətə gəlməkdə nə qədər haqlıymış:

***El yadda saxlamaz evdən gedəni,***
***İnsan əzizlənər eldən gedəndə.***

Şeirlərinin birində özünün də dediyi kimi, o, sözünü zamana deməyə gəlmişdi, dedi də. Xalq ruhunun poetik tərcümanı mərtəbəsinə yüksəldi.

***Musa NƏBİOĞLU,***
***Əməkdar mədəniyyət işçisi***

*Qədir Rüstəmov – 90*

# Könülləri paklandıran nadir ifa

## *Qədirin ürəklərdə yaşayan qədir–qiyməti*




***Evləri köndələn yar, sona bülbüllər,***
***Bizə gül göndərən yar, saçı sünbüllər.***
***Gülün yarpıza dönsün, sona bülbüllər,***
***Bizdən üz döndərən yar, saçı sünbüllər.***

58 il əvvəl lentə alınmış "Sona bülbüllər" mahnısı xanəndə Qədir Rüstəmovun ecazkar səsi ilə bu gün də qəlbləri riqqətə gətirir. Xalq şairi Bəxtiyar Vahabzadə bu bənzərsiz ifa barədə belə demişdir: "Qədir Rüstəmov ifası ilə "Sona bülbüllər"ə, "Sona bülbüllər" isə ifaçıya heykəl ucaldıb". Unudulmaz Xalq artisti Qədir Rüstəmov, doğrudan da, ilahi, nadir bir səs sahibi idi.

Dekabrın 19-da Beynəlxalq Muğam Mərkəzində (BMM) sənətkarın anadan olmasının 90-cı ildönümünə həsr olunmuş xatirə gecəsi keçirildi. Qədirsevərlər bu günü böyük səbirsizliklə gözləyirdilər. Zalda boş yer yox idi.

Gecənin aparıcısı, Əməkdar mədəniyyət işçisi Mustafa Çəmənlinin ilk sözü bu oldu ki, Qədir Rüstəmovun böyük xanəndə kimi yetişməsində onun dünyaya göz açıb böyüdüyü Ağdamın, bütövlükdə, Qarabağın musiqi mühitinin böyük rolu olub. Qədir orta məktəbi bitirdikdən sonra əvvəlcə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbində ustad-xanəndə Hacıbaba Hüseynovdan muğam dərsləri alıb. Daha sonralar isə Üzeyir Hacıbəyov adına Ağdam Orta İxtisas Musiqi Məktəbində təhsilini davam etdirib.

Qədir Rüstəmov Azərbaycan ifaçılıq sənətinə sanballı töhfələr verib. Unudulmuş xalq mahnılarımızdan bir çoxu məhz onun ifası ilə yenidən həyata vəsiqə qazanıb. Sənətkarın illər uzunu böyük şövqlə oxuduğu "Qarabağın maralı" , "Apardı sellər Saranı", "Laçın" , "Qaragilə", "Neyçün gəlməz", "Olmaz-olmaz", "Sarı gəlin", "Reyhan", "Ay dili-dili", "Sona bülbüllər" və s. mahnı və təsniflər xalqımızın musiqi xəzinəsinin dəyərli incilərinə çevrilib.

Xalq musiqisinin dərin bilicisi və təbliğçisi Mustafa Çəmənli xanəndə Qədir Rüstəmovdan danışdıqca onun sənətkara olan sevgi və rəğbəti tamaşaçıları da duyğulandırır, salonda coşqu yaradırdı:

– Onun ifa etdiyi bütün mahnılar gözəldir. Amma "Sona bülbüllər" sənət möcüzəsidir! Qədir Rüstəmov bu mahnını elə kövrək və yanıqlı səslə oxuyub ki, onu bundan sonra heç kim bu qədər təsirli ifa edə bilməz! Bu mahnı səsin əbədi abidəsidir!

Aparıcı sonra dedi ki, "Sona bülbüllər" mahnısı lentə alınarkən xanəndəni tarda ustad tarzən Əhsən Dadaşov müşayiət edib. Bu iki böyük sənətkarın parlaq istedadı və fədakarlığı sayəsində belə bir mükəmməl əsər yaranıb".

Milli Məclisin deputatı, yazıçı-publisist Aqil Abbas çıxışında bildirdi ki, Qədir Rüstəmovun ifası onun yaradıcılıq yoluna da təsir göstərib. "Sona bülbüllər"i ilk dəfə dinləyəndən sonra 17 yaşlı yazar "Evləri köndələn yar" povestini qələmə alıb. Aqil müəllim sonra söylədi ki, Qədirin səsini dinləyəndə insan daxilən paklaşır, həyat eşqi artır.

Telejurnalist Fəxrəddin Hacıbəyli Ağdamın işğalından sonra ailəsi ilə birlikdə Oğuzda məskunlaşmış Qədir Rüstəmov barəsində ssenari müəllifi olduğu "Qeybdən gələn səs" telefilminin çəkilişi zamanı müğənninin şəxsiyyətinin də saf və bənzərsiz olmasını yəqin etdiyini söylədi.

Tanınmış yazıçı Seyran Səxavət isə çıxışında Qədir Rüstəmovun şöhrətinin zirvədə olduğu zaman ondan müsahibə almasından, bu yazının geniş əks-səda doğurmasından, Ağdamda sənətkarla görüşlərindən söz açdı.

Xatirə gecəsində səslənən çıxışların çoxunda belə bir incə məqam vurğulandı ki, məcburi köçkün həyatı yaşadığı illərdə həyat yoldaşı Fatma xanım və 3 övladının qeyri-adi fədakarlığı olmasaydı, həssas qəlb sahibi olan Qədir Rüstəmov yurd itkisinin ağır möhnətinə heç cür dözə bilməzdi.

Mərasimdə o da vurğulandı ki, Qədir Rüstəmovun milli musiqi mədəniyyəti sahəsindəki nailiyyətlərini dövlətimiz yüksək qiymətləndirib. O, "Xalq artisti" fəxri adına layiq görülüb. 1997-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olub, muğam sənətinin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeninə layiq görülüb. 1997-ci ildə ümummilli lider Heydər Əliyev yüksək mükafatı sənətkara şəxsən təqdim edib. Həmin mərasimdə dahi siyasətçi ilə xanəndə arasında səmimi dialoq uzun müddət yaddaşlara həkk olunub.

Yubiley məclisində Əməkdar artistlər – İlkin Əhmədov, Sevinc Sarıyeva, Elnur Zeynalov, muğam müsabiqəsinin qalibləri və iştirakçıları Güllü Muradova, Mustafa Mustafayev, Yusif Cəfərbəyli, Murad Laçın və başqaları xanəndənin repertuarında yer almış mahnıları və muğam parçalarını ifa etdilər. Əməkdar artist Azad Şükürov Qədir Rüstəmova həsr olunmuş şeiri səsləndirdi.

Muğam Mərkəzindən çıxanda istedadlı şair, "Ulduz" jurnalının baş redaktoru Qulu Ağsəslə müsahib olduq. Həmkarımız mərasimin böyük sənətkara layiq təşkil olunduğunu söylədi:

– Hər şey gözəl və mükəmməl idi! "Sona bülbüllər" əlçatmaz bir ucalıqda idi. Bircə cismani olaraq Qədir Rüstəmov burada yox idi! Böyük xanəndənin ruhu isə xatirəsinə olan xalq sevgisindən şaddır!

***Məsaim ABDULLAYEV***
***XQ***

*Dünəndən gələn sorağımız*

**Bu yurdun insanları çox zəhmətkeşdirlər. Ata-babadan məşğuliyyətləri əkinçilik və heyvandarlıqdır. Dəyərlərinə çox sadiqdirlər. Böyüyün böyük, kiçiyin kiçik yeri var. Bu yerlərdə qış hazırlığı məxsusi xarakter daşıyar: payızda qovurmalıqlar edilər, qonum-qonşu yığışıb əriştə kəsib qışa saxlayarlar. Eynilə bu gün Naxçıvanda olduğu kimi...**

# Türkiyədə Naxçıvan eli

## *Nuh yurdunun adamları 9 əsr əvvəl Dörtdivana necə gediblər?*

Onlarda qocalara, xəstələrə baş çəkmək ən savab işlərdən sayılar. Uşaqlar gizlənqaç, çəlik-çəlik oynamağı çox sevərlər. Ay yeni görünən zaman salavat çevirər, il quraq keçərsə, müsəllaya çıxıb yağışın yağması üçün Allaha dua edərlər. Yenə bugünkü naxçıvanlılar kimi.

Belə adət-ənənələr buradakı Seyidəlilər, Bayramlar, Göynük, Nuhören, Dülgər və adını sadalamadığım digər kəndlərdə, ayrı-ayrı məhəllələrdə bu günədək yaşadılır. Hə, bir də Naxçıvan məhəlləsi var axı burada. Yüz illərdir, naxçıvanlıların yaşadığı kiçik bir məhəllə. Türkiyənin Bolu vilayətinin Dörtdivan rayonuna bağlı Adaköy kəndindəki bu eli necə axtarıb tapmağımı isə Dörtdivanda görüşdüyüm hər kəs təəccüb və maraqla soruşurdu.




Dörtdivan 1990-cı ilədək Türkiyənin Bolu vilayətinin Gərədə rayonuna bağlı qəsəbə olub, sonra isə inzibati baxımdan rayona çevrilib. Əhalisi 7 minə yaxın olan bu rayon 24 kənd və 8 məhəlləni özündə birləşdirir. Deyilənlərə görə, əvvəllər bu cür divanların sayı yeddi olub, ancaq sonralar bunlardan dördü qalıb. Elə buna görə də bu yerlərə "Dörtdivan" deyiblər.

Bu məlumatları araşdırmalarımızda bizə yaxından kömək edən Fəxri Kayahalp və Mustafa Uludağla söhbətimizdən öyrənirik. Fəxri bəy Dörtdivanın tanınmış şairlərindəndir, bir neçə şeir kitabının müəllifidir. Mustafa Uludağ isə rayonun Adaköy kəndində uzun illər məscidin imamı olub, hazırda Boluda yaşayır. Hər ikisi Dörtdivanın tarixinə, mədəniyyətinə, milli dəyərlərinə bağlı insanlardır. Elə Dörtdivanda məni ilk qarşılayanlar da onlar idilər.

Hələ Naxçıvanda olarkən tanıdığım və telefonla tez-tez əlaqə saxladığım dil-ədəbiyyat müəllimi Yasin Şən həmin gün liseydə imtahanların olduğu səbəbi ilə bir az gecikəcəyini, mənimlə ilk görüşə onların gələcəyini söyləmişdi. Elə biz də dörtdivanlı bu dostlarımızla əvvəlcə rayon mərkəzində çay süfrəsi arxasında bir xeyli söhbət etmiş, sonra isə Adaköyə getməyi qərarlaşdırmışdıq. Çünki bir azdan Yasin müəllim də bizə qoşularaq axtardığımız məhəlləni birlikdə gəzəcəkdik.









Əslində, Dörtdivanın kəndləri rayon mərkəzinə yaxın yerlərdə yerləşir. Adaköylə Dörtdivan arasında məsafə də 3 kilometrdən çox olmaz. Yolboyu müsahiblərimin hər ikisi buradakı kəndlər, məhəllələr haqqında məni məlumatlandırır. Qısa söhbətimizin ardından dostlarımız maşını saxlayıb, "bax, indi Naxçıvan məhəlləsinə tərəf gedirik, istəyirsən buraların fotoşəklini çək", – deyə mənə tərəf dönürlər. Əlbəttə, deyib ilk olaraq məhəlləyə gedən yolu göstərən "Nahçıvan" yazılı lövhəni kameranın yaddaşına köçürürəm.

Mustafa bəy deyir ki, Naxçıvan Adaköyün məhəlləsi sayılsa da, ondan bir az aralıda yerləşir. Hətta kənardan baxdıqda hər ikisinin qonşu kənd olduğunu zənn edərsən. Bu məhəllədə üst-üstə 15-20 ev ola, ya olmaya. Söhbət edə-edə məhəllədəki "Naxçıvan" məscidinin yanına gəlib çatırıq. Bu vaxt Yasin müəllim də işlərini qurtarıb məhəlləyə gəlir. Görüşüb hal-əhval tuturuq. Məhəlləni gəzməyə davam edirik. Küçələrdə sakitlikdir. Hətta bir-iki nəfərdən başqa heç kimi görmürük.

Söhbətin bu yerində "Naxçıvan" məscidində əsr namazı üçün azan verilir. Dostlarımız namaz qılmaq üçün məscidə daxil olurlar. Mustafa Uludağ on ildən çox imamlığını etdiyi bu məsciddə son illərdə aparılan təmir işlərindən də bəhs edir.

Məhəllədən çıxıb Dörtdivanın yaylaqlarına üz tuturuq. Yaylaqda bizi Fəxri bəyin atası Fevzi Kayahalp qarşılayır. Hal-əhval tutub salamlaşır, bizi təzə sağılmış südə və çaya qonaq edir. Yaşı yetmiş beşi keçmiş Fevzi dayı ilə bu yerlərin şair qəlbli insanlarından, xeyir-şər mərasimlərindən, mətbəx mədəniyyətindən danışırıq. Deyir ki, bəzi dəyərlərimiz sıradan çıxsa da, hələ də onları yaşadanlar var. Məsələn, keçmiş zamanlardan qışa hazırlıq məxsusi əhəmiyyət daşıyardı. Hər kəs evində əriştə kəsib qurudar, qovurmalıq edib qışa hazırlıq görərdi. Çöl-bacadan toplanılan giləmeyvələrdən gözəl mürəbbələr hazırlanıb qış tədarükü görülərdi.

Yaylaqda söhbətimiz uzun çəkir. Bu yaşlı insan danışdıqca, əsrlərdir burada yaşayan Oğuz türklərinin öz adət-ənənələrini necə qoruyub saxladığına, sözün əsl mənasında, təəccüb edirəm. Demək ki, bizimlə eyni kökə bağlı insanlarımız yüz illərdir bu dəyərləri saxlamağı bacarıblar. Təsadüfi deyil ki, əslən Ordudan olan və artıq 7 ildən çoxdur ki, Gərədədəki Anadolu Liseyində türk dili və ədəbiyyatı fənnini tədris edən Yasin Şən Dörtdivandakı bu mədəni və tarixi zənginliyi dərindən dərk edərək bir neçə kitab da yazıb. Dörtdivanın ədəbiyyatı, folkloru, mədəni və milli dəyərlərindən bəhs edən bu kitablarda nələr yoxdur ki?..

...Ertəsi gün səhər Dörtdivandan çıxmağı qərarlaşdırsam da, dostlarımız rayonun bələdiyyə sədri Həmzə Əfə bəyin də mənimlə görüşmək istədiyini bildirirlər. Buna görə də səhər bələdiyyə sədri ilə iş otağında görüşürük. Bizi çox səmimiyyətlə qəbul edən Həmzə bəy Naxçıvandan gəldiyimizi eşidəndə çox sevinir. Bələdiyyə sədrinə Dörtdivanla bağlı ortaq tariximizin, mədəniyyətimizin olduğunu bir daha dilə gətiririk.

Beləliklə, bizim Dörtdivana səfərimiz başa çatır. Bu yazının hazırlanmasında burada adıkeçən hər kəsə öz səmimi təşəkkürlərimi bildirirəm. Bir də burada adını çəkmədiyim, əslində isə heç adını da bilmədiyim bir insana daha təşəkkür borcum var. Əslində, o da məni tanımır. Heç bu yazını oxuyacağını da zənn etmirəm. Amma məsələ burasındadır ki, Adaköydəki "Naxçıvan" məhəlləsi adına mən ilk dəfə olaraq təsadüfən elan saytlarından birində rast gəlmişdim.

Sonradan o elan sahibini yenidən axtarsam da, tapa bilməmişdim. Ancaq "Naxçıvan" məhəlləsi sözü o zamandan yaddaşımın bir küncünə ilişib qalmış, bundan bir müddət sonra bu ipin ucundan tutaraq 900 il bundan əvvəl buralardan gedərək Bolu ətrafında köç salmış naxçıvanlılarla, Oğuz türkləri ilə görüşə bilmişdim. Qoy bu da Dörtdivanda məndən maraqla bu yerlərə necə gəlib çıxdığımı soruşanlara bir cavab olsun.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 269 (30963) 23 dekabr 2025-ci il, çərşənbə axşamı

## İDMAN

### Misli Premyer Liqasında XVI tur

**Dünən Misli Premyer Liqasında XVI turun son oyunu keçirilib. M.Hüseynzadə adına Sumqayıt şəhər stadionunda meydan sahibləri "Sabah"ı qəbul edib. Qarşılaşma 3:1 hesabı ilə "Sabah"ın xeyrinə başa çatıb.**



Daha əvvəl "Turan Tovuz" "Kəpəz"i, "Araz-Naxçıvan" "Şamaxı"nı (2:0), "Neftçi" "Karvan-Yevlax"ı, "Qarabağ" isə "Qəbələ"ni (2:1) məğlub edib. "Zirə" – "İmişli" qarşılaşmasında qolsuz heç-heçə qeydə alınıb – 0:0.

### Güləş hakimlərimizin kateqoriyası yüksəlib

**Azərbaycan güləş hakimliyində yeni nailiyyət əldə edib. Müxtəlif bölgələrimizi təmsil edən referilərimiz dərəcələrini artırıblar.**



Bəşir İsazadə güləşdə ən yüksək dərəcə sayılan I-S kateqoriyasına yüksəlib. Bu il U23 Avropa çempionatında, U20 dünya çempionatında və İslam Həmrəyliyi Oyunlarında ədaləti qoruyan lənkəranlı referi Dünya Güləş Birliyinin (UWW) etimadını doğruldub. Xatırladaq ki, bu dərəcəyə sahib hakimlər bütün yarışlarda, o cümlədən Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanır.

Daha 2 referimiz isə beynəlxalq kateqoriyalı ədalət təmsilçiləri sırasına qoşulub. 7-12 oktyabr tarixlərində Macarıstanın Tatabanya şəhərində keçirilən veteranların dünya çempionatında iş başında olan və imtahandan keçən Samir Hacıyevlə (Astara) Əkbər Məmmədli (Göyçay) UWW-nin qərarı ilə III dərəcəli beynəlxalq hakim statusuna yiyələnib.

Bununla da Azərbaycanın beynəlxalq hakimlərinin sayı 25-ə çatıb.

### Qılıncoynadanların Azərbaycan birinciliyi

**Qılıncoynatma üzrə Azərbaycan birinciliyinə yekun vurulub. Azərbaycan Qılıncoynatma Federasiyasından verilən məlumata görə, Azərbaycan Texniki Universiteti İdman Sarayının qılıncoynatma zallarında keçirilən yarışın son günündə gənclər arasında şpaqa və sablya növləri üzrə mükafatçılar müəyyənləşib.**



Sablya növü üzrə qızların yarışında Leyla Əhmədova 1-ci, Fərəh Abasova 2-ci, Ayan Ağakişiyeva və Züleyxa Sultanlı 3-cü yeri tutublar.

Oğlanlarların həmin növdə yarışında Abbas Hüseynov 1-ci, Rəsul Əliyev 2-ci, Nahid Məmmədli və Timur Husnaddinov 3-cü yeri tutublar.

Şpaqa növündə isə qızların yarışında Xədicə Həsənli 1-ci, Mirnuray Abasova 2-ci, Nəzrin Mehdiyeva və Aynur Quliyeva 3-cü nəticə göstəriblər.

Oğlanların yarışında Mirxətai Məmmədov 1-ci, Vahab Fətullayev 2-ci, Osman Məmmədov və Səid Əliyev isə 3-cü olublar.

Qeyd edək ki, mükafatçılar Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Qılıncoynatma Federasiyası tərəfindən diplom və medallarla təltif olunublar.

***Qabil YUSİFOĞLU***
***XQ***

*Tofiq Bakıxanov – 95*

# Görkəmli bəstəkarın biblioqrafiyası

**Dünən Milli Kitabxanada görkəmli bəstəkar, Xalq artisti, professor Tofiq Bakıxanovun 95 illiyi ilə əlaqədar "Tofiq Bakıxanov. Biblioqrafiya" kitabının və "Milli Kitabxananın qızıl fondundan" layihəsi üzrə nəşr olunan not məcmuələrinin təqdimatı keçirilib.**

Mərasimi giriş sözü ilə açan Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov Xalq artisti, görkəmli tarzən Əhməd Bakıxanovun ailəsində dünyaya gəlmiş, Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi Tofiq Bakıxanovun yubileylərinin kollektivdə qeyd edilməsinin ənənəyə çevrildiyini bildirib, sənətkarın çoxşaxəli yaradıcılığından danışıb.

Milli Məclisin sədr müavini, akademik Rafael Hüseynov təqdim olunan biblioqrafiyada dahi Üzeyir bəyin tələbəsi, Qara Qarayevin yetirməsi olan Tofiq Bakıxanovun bütün irsinin əks olunduğunu qeyd edib. Bəstəkarın müəllimi Qara Qarayevin tövsiyəsi ilə yazdığı "Xəzər balladası" baletinin 1969-cu ildə Parisdə 30 gündə 35 dəfə səhnəyə qoyulduğunu söyləyən akademik bu hadisənin musiqi tariximizə yazılmış önəmli hadisə olduğunu vurğulayıb.

Mədəniyyət nazirinin müavini, Xalq artisti Murad Hüseynov bəstəkarın yubileyinə dəyərli töhfə olan nəşrlərin hazırlanmasına görə Milli Kitabxananın rəhbərliyinə təşəkkür edib. O, görkəmli bəstəkarı səmimi təbrik edib, ona möhkəm cansağlığı və uğurlar arzulayıb.



Mərasimdə Azərbaycan Milli Konservatoriyasının rektoru, professor Kamilə Dadaşzadə, Xalq artisti Eldar Mansurov, Azərbaycan Milli Konservatoriyasının prorektoru, professor Lalə Hüseynova, Azərbaycan Milli Konservatoriyası nəzdindəki Musiqi Kollecinin direktoru, professor Nazim Kazımov, Bakı Musiqi Akademiyasının prorektoru, professor Gülnaz Abdullazadə, Azərbaycan Musiqi Mədəniyyəti Muzeyinin direktoru, sənətşünas Alla Bayramova, Üzeyir Hacıbəylinin ev-muzeyinin direktoru, Xalq artisti Sərdar Fərəcov, Əməkdar jurnalist İttifaq Mirzəbəyli bəstəkarın çoxsaylı və çoxjanrlı əsərlərinin zəngin musiqi xəzinəsi olduğunu, klassiklərin əsərləri ilə yanaşı səsləndirildiyini, müxtəlif mövzulu elmi-tədqiqat əsərlərinə mövzu olduğunu vurğulayıblar.

Sonda Xalq artisti Tofiq Bakıxanov yubileyinin təntənə ilə qeyd edilməsinə, yaradıcılığına göstərilən daimi diqqətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Bəstəkar dünyanın 33 ölkəsinin kitabxanalarında mühafizə olunan əsərlərini əhatə edən mükəmməl biblioqrafiyasının nəşrinə görə məmnunluğunu ifadə edib.

***XQ***



# Məcburi audit subyektləri rəhbərlərinin nəzərinə!

Azərbaycan Respublikasının Auditorlar Palatası nəzərinizə çatdırır ki, qanunvericiliyin və müvafiq nizamnamə tələblərinə uyğun olaraq aşağıda göstərilən məcburi audit subyektləri hər il maliyyə hesabatlarının düzgünlüyünü yoxlatdırmaq üçün müstəqil (kənar) auditor cəlb etməlidirlər:

| Sıra №si | Məcburi audit subyektləri | Məcburi auditdən keçmənin qanunvericilikdə təsbiti və əsası |
|---|---|---|
| 1. | İctimai əhəmiyyətli qurumlar | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12-ci maddəsi |
| 2. | Məhdud məsuliyyətli cəmiyyətlər | Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 1999-cu il 28 dekabr tarixli 779-IQ saylı Qanununun 91.4-cü maddəsi |
| 3. | Səhmdar cəmiyyətləri | Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 1999-cu il 28 dekabr tarixli 779-IQ saylı Qanununun 107.6-cı maddəsi |
| 4. | Banklar və digər kredit təşkilatları | "Banklar haqqında" Azərbaycan Respublikasının 2004-cü il 16 yanvar tarixli 590-IIQ saylı Qanununun 8, 9, 44, 45, 46-cı və s. maddələri |
| 5. | Sığorta təşkilatları və cəmiyyətləri | "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ saylı Qanununun 74-cü maddəsi |
| 6. | İnvestisiya fondları | "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının 2010-cu il 22 oktyabr tarixli 1101-IIIQ saylı Qanununun 26-cı və 48-ci maddələri |
| 7. | Maliyyə-sənaye qrupları | "Maliyyə-sənaye qrupları haqqında" Azərbaycan Respublikasının 1996-cı il 23 aprel tarixli 69-IQ saylı Qanununun 16-cı və 17-ci maddələri |
| 8. | Birləşdirilmiş (konsolidə edilmiş və icmal) hesabatlar təqdim edən hüquqi şəxslər (holdinqlər) | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12.3-cü maddəsi |
| 9. | Dövlət zəmanəti ilə kredit alan və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak edən, həmçinin büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrılan kommersiya təşkilatları | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12.2-ci maddəsi |
| 10. | Publik hüquqi şəxslər | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12-ci maddəsi və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 06 iyul tarixli 173 nömrəli fərmanı ilə təsdiq edilmiş Publik hüquqi şəxslərin Nümunəvi Nizamnaməsinin 7.4-cü maddəsi |
| 11. | Siyasi partiyalar | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 14.6-cı maddəsi |
| 12. | Kənd təsərrüfatı kooperativləri | "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 270-VQ saylı Qanununun 5.4-cü maddəsi |
| 13. | Bələdiyyələr | "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 772-IQ saylı Qanununun 13-cü maddəsi |
| 14. | İnvestisiya şirkətləri, fond birjaları, klirinq təşkilatları və investisiya fondları | "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1284-IVQ saylı Qanununun 61-ci maddəsi |
| 15. | Nizamnamələrində (Əsasnamələrində) auditdən keçmələri tələb olunan qurumlar | Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman, Sərəncamları və digər sənədlər |

İzahedici qeydlər:

Qanunvericiliyin tələblərinə görə öz maliyyə hesabatlarını dərc etdirməli olan iqtisadi subyektlər, qanunvericilik aktları ilə bilavasitə nəzərdə tutulmuş hallarda və nizamnamələrində (əsasnamələrində) auditdən keçmələri tələb olunan qurumlarda həyata keçirilməli olan, habelə Səlahiyyətli Dövlət Orqanları tərəfindən aparılan audit məcburi, digər hallarda isə könüllüdür.

Yuxarıdakı siyahıda qeyd olunan məcburi audit subyektlərindən başqa digər iqtisadi subyektlər də öz təşəbbüsləri ilə maliyyə hesabatlarının düzgünlüyünü təsdiq etdirmək və digər auditor xidmətlərindən istifadə etmək üçün könüllü olaraq müstəqil (kənar) auditor cəlb edə bilər.

Auditi aparılan iqtisadi subyektin şəxsi əmlak mənafeyi, onun iqtisadi subyektinin rəhbərliyindən hər hansı şəxslə birbaşa qohumluq əlaqəsi, iqtisadi subyektin təsisçisi, mülkiyyətçisi və ya səhmdarı olduqda, həmin iqtisadi subyektdə bundan əvvəl öz peşə fəaliyyəti ilə bağlı xidmətlər göstərdikdə, auditorlara həmin iqtisadi subyektlərdə audit aparmaq qadağandır.

Yeni dövrün çağırışları nəzərə alınmaqla dayanıqlı inkişaf məqsədlərinə nail olmaq və yaşıl iqtisadiyyatın inkişafı naminə aparılan ölkə iqtisadiyyatının inkişafının müasir mərhələsində müstəqil (kənar) audit maliyyə şəffaflığının əsas təminatçısı kimi, maliyyə vəsaitlərindən səmərəli və təyinatı üzrə xərclənməsində, maliyyə və vergi intizamının möhkəmləndirilməsində, korrupsiyaya və cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə mühüm rola malik olmaqla yanaşı, auditorlar tərəfindən təqdim olunan auditor hesabatının (auditor rəyinin) iqtisadi subyektlərin maliyyə fəaliyyətində yol verilən nöqsan və çatışmazlıqların vaxtında aşkar edilməsində və aradan qaldırılmasında çox böyük əhəmiyyəti vardır;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 11 sentyabr tarixli 262 nömrəli Qərarı ilə təsdiq edilmiş "e-mühasibat" informasiya sistemi haqqında Əsasnamənin 3-cü "Sistemin altsistemləri" bölməsinə uyğun olaraq məcburi audit subyektləri tərəfindən aşağıdakılar təmin edilməlidir:

3.2.1. kommersiya təşkilatlarının maliyyə hesabatları altsistemi vasitəsilə "Mühasibat uçotu haqqında" Qanunun 12.2-ci maddəsində nəzərdə tutulmuş kommersiya təşkilatları tərəfindən illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının qanunla müəyyən edilmiş hallarda auditor rəyi ilə birlikdə, habelə həmin Qanunun 12.3-cü maddəsində nəzərdə tutulmuş kommersiya təşkilatları tərəfindən illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə dərc edilməsi barədə məlumatların, məcburi audit subyektləri tərəfindən isə maliyyə hesabatlarının məcburi auditini keçirməsi barədə auditor rəyinin elektron qaydada göndərilməsi.

3.2.2. publik hüquqi şəxslərin maliyyə hesabatları altsistemi vasitəsilə "Mühasibat uçotu haqqında" Qanunun 12-1.8-ci maddəsində nəzərdə tutulmuş publik hüquqi şəxslər tərəfindən illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının (auditor rəyi ilə birlikdə), habelə həmin Qanunun 12-1.9-cü maddəsində nəzərdə tutulmuş publik hüquqi şəxslər tərəfindən (Azərbaycan Respublikasının Mərkəzi Bankı istisna olmaqla) illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə dərc edilməsi barədə məlumatların elektron qaydada göndərilməsi.

Hörmətli təsərrüfat subyektlərinin rəhbərləri,

İqtisadi subyektlər auditor seçimində müstəqildirlər. Auditor təşkilatları və sərbəst auditorlar barədə məlumatları Azərbaycan Respublikası Auditorlar Palatasının internet səhifəsindən əldə edə bilərsiniz:

https://audit.gov.az/Az/page/5 (auditor təşkilatları)

https://audit.gov.az/Az/page/6 (sərbəst auditorlar)

Auditorlar Palatası bu istiqamətdə Sizin hər bir sorğunuzu cavablandırmağa və zəruri dəstək göstərməyə hazırdır. (Əlaqə telefonları: (012) 564-83-66; (012) 498-28-55 (dax.:109) (050-612-04-73; E-mail: auditinteshkili@audit.gov.az - Vasif Cavadov).

**Azərbaycan Respublikasının Auditorlar Palatası**


## HAVA

# Yağmursuz 2-ci qış günü

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 3-6, gündüz 7-10 dərəcə isti olacaq. Atmosfer təzyiqi 766 millimetr civə sütunu, nisbi rütubət isə gecə 80-85, gündüz 70-75 faizi təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 7-12 dərəcə isti, dağlarda gecə 3-8 dərəcə şaxta, gündüz 3-8 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN!

Naxçıvan Müəllimlər İnstitutu pedaqoji fakültəsinin dekanı Samirə Həsənova Naxçıvan şəhərində Hüseyn Əliyevə bacısı, şəhər 5 nömrəli uşaq musiqi məktəbinin müəllimi

**HƏQİQƏT ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3596
SİFARİŞ 2332
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00